Xalqın qəzeti!

# Xalq qəzeti

№ 106 (30510) 22 may 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Azərbaycanın və Özbəkistanın uğurları hər iki ölkədə sevinclə qarşılanır

*Prezident İlham Əliyev Özbəkistanın investisiya, sənaye və ticarət nazirini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratovu qəbul edib.**

Qəbula görə minnətdarlığını bildirən Laziz Kudratov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Özbəkistan Prezidenti ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin səviyyəsini yüksək qiymətləndirir. Qonaq vurğuladı ki, Azərbaycan Prezidentinin uzaqgörən və müdrik siyasəti nəticəsində əldə edilmiş uğurlar Özbəkistanda sevinclə qarşılanır. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndiyini, iqtisadiyyatımızın dinamik şəkildə inkişaf etdiyini, investisiyaların artdığını deyən Laziz Kudratov bildirdi ki, Azərbaycan qlobal böhranlara baxmayaraq inflyasiyanı saxlamağa uğurla müvəffəq olub.

Qonaq, eyni zamanda, vurğuladı ki, işğal olunmuş ərazilərin Prezident İlham Əliyevin rəhbərliyi ilə qaytarılması və tarixi ədalətin bərpa olunması təkcə Azərbaycanın deyil, bütün türk dövlətlərinin tarixində mühüm hadisə olmuşdur. Nazir qeyd etdi ki, Özbəkistanda bu tarixi hadisə böyük sevinclə qarşılanmışdır. O, əməkdaşlığımızın möhkəmlənməsinə yönəlmiş təşəbbüslərin reallaşması işinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Şavkat Mirziyoyevin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Özbəkistan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən inkişaf prosesləri Azərbaycanda böyük maraqla izlənilir. Özbəkistan Prezidentinin iqtisadi islahatlar, sosial və digər bütün sahələrin inkişafına yönəlmiş siyasəti konkret nəticələr verir. Prezident İlham Əliyev Özbəkistana səfərini məmnunluqla xatırlayaraq, bu ölkədə sənaye potensialı və tarixi-mədəni irsin qorunması ilə bağlı məsələlərin uğurla həll edilməsinin şahidi olduğunu dedi. Dövlətimizin başçısı əməkdaşlığımızın inkişafı ilə bağlı qarşılıqlı fəaliyyətin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev xüsusi olaraq Azərbaycanın suverenliyinin bərpa olunması işində Özbəkistanın və özbək xalqının dəstəyini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Şavkat Mirziyoyev ilə Füzuli və Şuşa şəhərlərinə səfərlərinə də toxunaraq Füzulidə Özbəkistan Prezidentinin və xalqının hədiyyəsi olan məktəbin açılışının da rəmzi xarakter daşıdığını dedi.

Prezident İlham Əliyev Laziz Kudratovun ölkəmizə səfərinin iqtisadi əməkdaşlığın möhkəmlənməsi ilə bağlı layihələrin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını vurğuladı.

**AZƏRTAC**

## Azərbaycan–Ukrayna: yeni hədəflər

**Ukrayna Prezidenti Volodimir Zelenski mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında dövlət başçıları regional təhlükəsizlik və enerji, ticarət və digər sahələrdə ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Söhbət zamanı hər iki ölkənin aidiyyəti qurumlarına birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi ilə əlaqədar müvafiq tapşırıqların veriləcəyi bildirilib.

**Prezidentin Mətbuat Xidməti**

## Birinci vitse-prezident Mehriban Əliyevanın "Instagram" paylaşımı



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva cüdoçu Hidayət Heydərovu Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən dünya çempionatında qızıl medal qazanması münasibətilə təbrik edib.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident bununla bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib.

Paylaşımda deyilir: "Cüdoçu Hidayət Heydərovu dünya çempionu titulu uğrunda yarışlarda qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Mükəmməl çıxış edən idmançımız yenilməz iradə, əzmkarlıq və məharət nümayiş etdirərək parlaq və inamlı qələbə qazandı! Gərgin əməyinə, Azərbaycan azarkeşlərinə bəxş etdiyi sevincə görə cüdoçumuza təşəkkür edir, ona möhkəm cansağlığı, yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!".

## İran – Azərbaycan dostluğu sarsılmazdır



Səhifə ⇨ 3

## Valday gölü, "Valday" Klubu və müasir dünyamız

Səhifə ⇨ 5

## Türk-erməni münasibətlərində tarixi gerçəklər



Səhifə ⇨ 8

# Helikopter qəzası və Ermənistanda "anti-Azərbaycan şousu"

*Bir vaxtlar eyni yolu rəsmi İrəvan gedirdi*



**İran Prezidenti Seyid İbrahim Rəisinin helikopter qəzasında həyatını itirməsi dünyanın diqqət mərkəzindədir. Hadisə ilə bağlı müxtəlif fərziyə və mülahizələr irəli sürülür. Onların hamısının üzərində dayanmaq istəməzdik. Ən azından ona görə ki, İran tərəfindən gələn açıqlamalar olayda hansısa başqa motiv axtarmağa imkan vermir.**

Bəli, Ermənistandakı bəzi siyasi dairələr çox aktiv şəkildə hadisədə Azərbaycan izi axtarmağa başlayıblar. Onlar İran Prezidentinin qəza nəticəsində həyatını itirməsini ölkəmizə qarşı siyasi təbliğat kimi istifadə edirlər. Üzərində dayandıqları iki məqam var. Birincisi, nə qədər paradoksal səslənsə də, Azərbaycanı Qərbə bağlamaq və mövcud xüsusda Qərbin anti-İran ab-havasından söz açaraq ölkəmizin, guya, həmin ab-havada iştirakı ilə bağlı saxta arqumentasiyaya baş vurmaq. İkincisi, bilavasitə Azərbaycan–İsrail əməkdaşlığının anti-İran trayektoriyasını qabartmaq.

*(ardı 4-cü səhifədə)*

# Türk dövlətlərinin ortaq investisiya qaynağı



Səhifə ⇨ 7

## Yeni dünya köhnə qəlibləri qəbul eləmir

*Reallığa müqavimət göstərmək çağdaş donkixotluqdur*

**Dünya da dəyişib, onun düzəni də. XXI əsrdə cərəyan edən hadisələrin təbii axarının yaratdığı obyektiv reallıqlar planetin siyasi nəbzini yeni ritmdə döyünməyə vadar edir. Üzünü qütbləşmə bəlasından qurtulmağa çevirmiş sivil dünya artıq beynəlxalq müstəvidə qüvvələr nisbətinin dəyişdiyinin və bəşəri dəyərlərin nəyə qurban verilməyə çalışıldığının da fərqindədir. Bu reallığı olduğu kimi qəbul etmək nə qədər doğru seçimdirsə, bundan imtina, yaxud müqavimət göstərməyin hansı fəssadlara gətirib çıxaracağını da göz önünə almaq vacibdir.**

(ardı 4-cü səhifədə)

# Fransanın ABŞ-yə müxalifliyi nədən qaynaqlanır?

## "Avropa lideri" "Dünya lideri"nə tabe olmaq istəmir



**Fransızların eqosu böyükdür. Buna görədir ki, qalların varisləri hadisələrin mərkəzində olmağı çox sevirlər. Görünür, bu xüsusiyyət onlara 14-cü Lüdovikdən keçib. Özünü "Günəş kralı" elan edən 14-cü Lüdovikin gündəlik şəxsi həyatını ətrafdakıların diqqət mərkəzində keçirməsini ölkədə bilməyən yoxdur. Aradan uzun illər keçsə də, hamıdan fərqlənmək, proseslərin mərkəzində olmaq, başqalarını ardınca aparmaq vərdişi bu gün də ortadan qalxmayıb. Andrea Morua demişkən, hər bir fransız özünü Napoleon hesab edir, sanki kainatın mərkəzində onlar dayanıblar.**

(ardı 11-ci səhifədə)

# Prezident İlham Əliyev İran səfirliyində başsağlığı verib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı verib.**

İran İslam Respublikasının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Seyid Cəfər Ağayi dövlətimizin başçısını qarşıladı.

Azərbaycan Prezidenti matəm kitabına ürək sözlərini yazdı.

**Sonra səfirliyin müvəqqəti işlər vəkili ilə söhbət edən Prezident İlham Əliyev dedi:**

– İran İslam Respublikasının Prezidenti cənab Seyid İbrahim Rəisinin faciəli şəkildə həlak olması bizim hamımızı dərindən sarsıtdı. Onunla bərabər xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və digər şəxslər faciəli şəkildə həlak olublar. Allah onlara rəhmət eləsin. İran xalqının başı sağ olsun. Bu, böyük itkidir. Bu itki təkcə İran xalqına, dövlətinə üz verməyib, bütün müsəlman aləminə üz verib.

Seyid İbrahim Rəisi böyük dövlət xadimi idi, görkəmli siyasətçi və İran xalqının etibarını qazanmış böyük şəxsiyyət idi. Onunla çoxsaylı görüşlərim hər zaman məndə çox böyük təəssürat izi buraxırdı. Onunla son görüşüm isə tarixi bir görüş idi. Həm o, həm də mən bu görüşü məhz tarixi görüş adlandırmışdıq. Dövlət sərhədində böyük infrastruktur layihəsinin açılışında birgə iştirakımız İran–Azərbaycan əlaqələrinin nə qədər möhkəm olmasından xəbər verirdi, həm xalqlarımıza, həm bütün dünyaya çox açıq mesaj idi ki, biz dostuq, qardaşıq, biz bundan sonra da birlikdə olacağıq. Açılış mərasimindən sonra həm mərhum Prezident Rəisinin, həm də mənim rəsmi açıqlamalarımız çox ciddi siyasi məna daşıyırdı. Hər iki Prezident açıq bəyan etmişdi ki, bu bölgənin gələcək inkişafında bölgədə yerləşən ölkələr fəal iştirak etməlidirlər.

Faciənin baş verməsi, əlbəttə ki, böyük dərddir, həm onun yaxınlarına, həm onu tanıyanlara. Amma təsəlli verən odur ki, o, öz həyatını İran xalqının inkişafına həsr etmişdir. İran dövlətinin milli maraqlarının müdafiə edilməsində onun xüsusi rolu var idi. Həm Prezident vəzifəsində çalışdığı zaman, həm ondan əvvəlki dövrlərdə o, İran xalqının rifahını yaxşılaşdırmağa çalışırdı və milli maraqların müdafiəsində onun böyük rolu olmuşdur.

Bildiyiniz kimi, faciədən əvvəl biz iki saatdan çox birlikdə idik. Bir saatdan çox davam edən ikitərəfli görüş əsnasında bir çox önəmli məsələlər müzakirə edilmişdir. İran–Azərbaycan əlaqələrinin inkişafının gələcək istiqamətləri bir daha təsdiqlənmişdir və hər iki tərəfin güclü siyasi iradəsi bir daha nümayiş etdirilmişdir. Bununla bərabər, biz konkret infrastruktur layihələri haqqında geniş fikir mübadiləsi aparmışdıq, önəmli qərarlar qəbul edilmişdir. O görüşdə iştirak edən şəxslər bunu, əminəm ki, İranın yeni rəhbərliyinə çatdıracaqlar. Əldə edilmiş bütün razılaşmalar, əminəm ki, icra ediləcək. Çünki bu, İran və Azərbaycan xalqlarının iradəsinə söykənir və biz mərhum Prezident Rəisi ilə söhbət əsnasında qəti iradəmizi bildirdik ki, bundan sonra böyük layihələrin sayı çox olacaq, həm ikitərəfli, həm çoxtərəfli formatda.

Əfsuslar olsun ki, gələcək layihələrin icrasını görmək ona nəsib olmadı. Tale ilə hər kəs barışmalıdır. Ancaq yenə də deyirəm, təsəlli verən amil odur ki, öz həyatını İranın inkişafına qurban vermişdir və bizim yaddaşımızda, İran xalqının, Azərbaycan xalqının yaddaşında o, parlaq şəxsiyyət, böyük dövlət xadimi, Azərbaycan dövlətinin və xalqının böyük dostu kimi qalacaq. Bir daha başınız sağ olsun. Allah rəhmət eləsin.

***

Seyid Cəfər Ağayi səfirliyə gələrək başsağlığı verdiyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.

***AZƏRTAC***

# Şeyxülislam İran səfirliyində olub

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub.**



QMİ-nin mətbuat xidmətindən bildiriblər ki, şeyxülislam İranın Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın, Təbrizin imamcüməsi Ayətullah Haşiminin və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli şəkildə həlak olmaları ilə əlaqədar başsağlığı verib.

Allahşükür Paşazadə matəm kitabına ürək sözlərini yazıb.

# BMT Baş katibi normallaşma prosesini yaxından izləyir

**“BMT-nin Baş katibi Azərbaycanla Ermənistan arasında normallaşma prosesini yaxından izləyir”.**



Bu barədə BMT-nin mətbuat xidmətinin AZƏRTAC-ın ABŞ bürosunun sorğusuna cavabında deyilib.

Bildirilib ki, Baş katib Antonio Quterreş aprelin 19-da sərhədlərin delimitasiyasına dair əldə olunmuş razılaşmanı alqışlayıb.

“O, tərəfləri sərhədin qalan hissələrinin delimitasiyası və demarkasiyasını davam etdirməyə və münasibətlərin tam normallaşmasına nail olmaq üçün geridə qalan bütün ikitərəfli məsələləri həll etməyə çağırıb. Hazırda Azərbaycanın və Ermənistanın sülh sazişi üzərində işləməyə davam etməsi ümidvericidir. Biz ümid edirik ki, xarici işlər nazirlərinin mayın 10-11-də Almatıda keçirilmiş görüşü yerdə qalan məsələlərin həllinə yönəlmiş konstruktiv təmaslarla davam edəcək”, – deyə BMT mətbuat xidmətinin cavabında qeyd olunub.

***XQ***

# “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 may 2024-cü il**

**Azərbaycan Respublikası Prezidentinin**
**2024-cü il 21 may tarixli Fərmanı ilə təsdiq edilmişdir**

## Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı

| Sıra №-si | İcazənin adı |
|---|---|
| 1. | Suvarma və kollektor-drenaj şəbəkələrinin təmizlənməsi, təmiri, bərpası və yenidən qurulması zamanı onların məcrasında, berma və dambasında bitmiş, habelə dövlət ehtiyacı üçün ayrılmış torpaqlarda aparılan meliorasiya və irriqasiya tədbirləri zamanı həmin obyektlərin altına düşən yaşıllığın götürülməsi vərəqi |
| 2. | Fövqəladə hallar zamanı suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə icazə |

# Milli Məclisdə insan alveri ilə bağlı məruzə dinlənildi

**Mayın 21-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirildi. Spiker aprel–may aylarında parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində görülmüş işlər haqqında məlumat verərək, bu dövrdə iki ölkəyə rəsmi və iki ölkəyə də işgüzar səfərlərin həyata keçirildiyini bildirib.**



Ötən dövrdə Milli Məclisdə spikerin Bolqarıstan və Konqo prezidentləri, Malayziya, İraq, Latviya parlamentlərinin sədrləri, Türkiyə, İtaliya, Gürcüstan, Əlcəzair, Yeni Kaledoniya parlamentlərinin təmsilçiləri, Çin Xalq Respublikasının Xarici Ölkələrlə Dostluq Assosiasiyasının sədri, Beynəlxalq Parlamentarilər Konqresinin baş katibi, Cənub–Şərqi Asiya Dövlətləri Assosiasiyası Parlamentlərarası Assambleyasının baş katibi və rəhbərlik etdikləri nümayəndə heyətləri, Türk dövlətləri parlamentlərinin xarici əlaqələr komitələrinin sədrləri və digər rəsmi şəxslər ilə görüşləri olmuşdur.

Sonra S.Qafarova gündəliyə 11 məsələ daxil edildiyini bildirdi. Birinci məsələ – İnsan alverinə qarşı mübarizə üzrə milli koordinatorun – daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimovun 2023-cü ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı dinlənildi.

Qeyd edildi ki, hazırda ölkəmizdə insan alverinə qarşı hərtərəfli mübarizə üçün əlverişli mexanizm yaradılıb və bu istiqamət üzrə milli fəaliyyət planları uğurla icra edilir. O, illik məlumatın Ağır Cinayətlər məhkəmələrinin, Baş Prokurorluğun, Ombudsman Aparatının, beynəlxalq təsisatların, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, Daxili İşlər Nazirliyinin struktur qurumlarının müvafiq sahə üzrə Milli Fəaliyyət Planından irəli gələn tədbirlərin yerinə yetirilməsinin və apardıqları monitorinqlərin nəticələri, təhlilləri nəzərə alınmaqla hazırlandığını dedi. Məlumatda insan alverinə qarşı mübarizə fəaliyyəti ilə bağlı qanunvericilik, profilaktika, maarifləndirmə, təlim və treninqlər, beynəlxalq əməkdaşlıq, məcburi əməyin qarşısının alınması sahəsində tədbirlər, cinayət təqibi və sair istiqamətlərdə görülən işlər öz əksini tapıb.

Hesabat dövründə insan alverinə qarşı mübarizədə normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi ilə bağlı “Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı”nın icraçı qurumlarının siyahısı dəqiqləşdirilib, normativ hüquqi aktlara uyğunlaşdırmalar aparılıb. Bununla yanaşı, “İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət qaydaları”na əsasən, İnsan alveri qurbanları üçün Yardım Mərkəzinin yaradılması, xüsusi müəssisədə onların dərman preparatları ilə təmin edilməsi, təxirəsalınmaz tibbi və psixoloji yardımın göstərilməsi Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) funksiyalarına aid edilib. Həmçinin, Nazirlər Kabinetinin 2023-cü il 16 may tarixli qərarı ilə “İnsan alverinə qarşı mübarizə üzrə milli koordinator yanında işçi qrupun tərkibi, təşkili və fəaliyyəti qaydası” təsdiqlənib.

İnsan alverinə qarşı mübarizə ilə bağlı metodik və maarifləndirici vəsaitlərin hazırlanması, o cümlədən, yayımlanması, həmin cinayətlərin törədilməsinə şərait yaradan hallarla bağlı cəmiyyətdə dözümsüzlük mühitinin yaradılması istiqamətində də məqsədyönlü tədbirlərin həyata keçirildiyi bildirildi. Belə ki, Daxili İşlər Nazirliyi tərəfindən hazırlanmış 14.000 maarifləndirici buklet aidiyyəti dövlət orqanlarına göndərilib, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 3.000 nüsxədə hazırlanmış “İnsan alverinin qurbanı olma!” bukleti və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hazırladığı “İnsan alveri–Uşaq alveri ilə mübarizə” mövzusunda 1.000 ədəd məlumat kitabçası paylanılıb, sosial şəbəkələrdə məlumatlandırıcı videoçarxlar nümayiş etdirilib. Səhiyyə Nazirliyi tərəfindən “İnsan alveri problemi və onun profilaktikası” məzmununda metodik vəsait hazırlanıb, “Sağlam uşaq” internet portalında maarifləndirici materiallar yerləşdirilib. Ombudsman Aparatı tərəfindən “Ombudsmanın fəaliyyətində uşaq hüquqlarının müdafiəsi” adlı maarifləndirici vəsait və “Uşaq Hüquqları Konvensiyası” elektron kitabı ictimaiyyətə təqdim edilib.

Milli koordinator insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə cəlb olunması sahəsində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri barəsində də məlumat verdi: “Bir sıra qanunlarda dəyişikliklər edilərək cinsi toxunulmazlıq və cinsi azadlıq əleyhinə olan cinayətlərin yetkinlik yaşına çatmayanlara qarşı törədilməsi ağırlaşdırıcı hal kimi müəyyən edilib, uşaqların cinsi istismarı ilə bağlı cinayətlərə görə cəzalar sərtləşdirilib. Yetkinlik yaşına çatmayanları ictimai mənəviyyata zidd əməllərə cəlb etmə də cinayət tərkibinin əməli kimi müəyyənləşdirilib. Bu cür məqsədlərlə uşaqların təqib edilməsinə görə qanunvericiliyə cinayət məsuliyyətini nəzərdə tutan müddəalar əlavə edilib”.

Sonra deputatlar hesabatla bağlı fikirlərini bildirdilər.

İnsan alverinə qarşı mübarizəyə dair mili koordinatorun illik məruzəsi səsə qoyularaq məqbul hesab edildi.

Gündəlikdəki digər qanun layihələri də səsə qoyularaq qəbul olundu.

İclasın sonunda helikopter qəzasında faciəli şəkildə həlak olan İran İslam Respublikasının Prezidenti İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir-Abdullahianın və digər şəxslərin xatirələri bir dəqiqəlik sükutla yad edildi.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# İran – Azərbaycan dostluğu sarsılmazdır

## Son faciədən biz də üzüldük

**Prezident İlham Əliyevin son iyirmi ildəki xarici siyasəti dəfələrlə sübut etmişdir ki, o, istənilən görüşdə, müsahibədə, qəbulda nə danışırsa, bütün fikirləri səmimidir, dediyi sözlərin hamısının üstündə durur, imzasına hörmətlə yanaşır, dost və tərəfdaşlarına yüksək səviyyədə sədaqətlidir. Bütün azərbaycanlılar fəxr edirlər ki, dövlət başçımız hansısa həmkarına və ya başqa ranqlı siyasətçiyə "dostum", "qardaşım" deyirsə, deməli, həmin siyasətçi, sözün həqiqi mənasında, Azərbaycanın dostuna, qardaşına çevrilmişdir. Dəfələrlə biz bunun şahidi olmuşuq.**

Son dövrlərdə biz Azərbaycanın daha bir səmimi və sədaqətli dostunun yanımızda olduğunu gördük. BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və EKO kimi beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq etdiyimiz İran İslam Respublikası iki dövlət başçısının qarşılıqlı səmərəli fəaliyyəti nəticəsində, sözün həqiqi mənasında, xalqlarımızın və dövlətlərimizin firavan gələcəyi naminə bir-birinin sədaqətli dostuna çevrildilər. Mərhum Prezident Seyid İbrahim Rəisi ötən illərdəki bütün anlaşılmazlıqların birdəfəlik geridə qoyulması üçün su diplomatiyasından uğurla istifadə edərək azərbaycanlı həmkarı ilə məhz sərhəddə görüşmək, mühüm layihələrin başa çatması sevincini birlikdə yaşamaq qərarına gəldi. Əslində, bu addım hər iki dövlətin və xalqlarımızın sabaha gedən yolunun ardınca su atmaq mənasını verirdi.

Mayın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin iştirakı ilə Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız qalası" hidroqovşağının açılış mərasiminin keçirilməsi dünyanın hər yerindəki bədxahlarımıza göndərilən qətiyyətli mesaj idi ki, artıq Tehranla Bakı çəkici eyni zindana vurur və bizim aramıza girmək istəyənlər heç nəyə nail ola bilməyəcəklər.

Həmin qənaəti Azərbaycan Prezidenti aydın şəkildə dilə gətirdi: "İran – Azərbaycan əlaqələrinin gələcək inkişafı da çox müsbətdir. Mən bu gün hörmətli Prezident Rəisini bu il Azərbaycanda keçiriləcək iqlim konfransına dəvət etmişəm. Hörmətli Prezident Rəisi məni İrana dəvət edib. Bu dəvətə görə təşəkkürümü bildirirəm. Əminəm, bizim bundan sonra da görüşlərimiz çox olacaq, son illər biz artıq beşinci dəfədir ki, görüşürük, amma sərhəddə ilk dəfədir. Bundan sonra da bu görüşlər olacaq. Bu görüşlərin həm mahiyyət üzrə çox böyük əhəmiyyəti var, həm də xalqlarımıza, bölgəyə və dünyaya ciddi mesajdır. İran–Azərbaycan birliyi, dostluğu sarsılmazdır. Heç kim bizim aramıza girə bilməz. Bu səylər əbəsdir və biz bugünkü mərasimlə bunu bir daha sübut edirik".

Əslində, Azərbaycan Prezidenti bu arqumentlərini dəfələrlə, müxtəlif beynəlxalq tribunalardan səsləndirmişdir. Azərbaycanın rəsmi mövqeyi ondan ibarətdir ki, bölgənin inkişafı bölgədəki ölkələrdə yaşayan xalqların iradəsi ilə təmin edilməlidir. Qeyri-regional ölkələrin bizim işlərimizə müdaxiləsi qəbuledilməzdir: " Əgər kimsə – buradan minlərlə kilometr uzaqlıqda yerləşən ölkələrin rəhbərləri bu bölgədə hər hansı bir nəticə əldə etmək istəyirlərsə, bizimlə danışsınlar. Yersiz və lazımsız müdaxilə bu günə qədər heç bir səmərə verməyib və verməyəcək". Dövlət başçımız bu qənaəti ilə təkcə uzaq xaricdəki bədxahlarımıza cavab vermirdi, həm də əldə edilmiş müsbət tendensiyaya görə İran rəhbərliyinə təşəkkür edirdi.

Yeri gəlmişkən, dövlət başçımız mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olarkən həmin təşəkkürü daha müfəssəl şəkildə dilə gətirdi: "Seyid İbrahim Rəisi böyük dövlət xadimi idi, görkəmli siyasətçi və İran xalqının etibarını qazanmış böyük şəxsiyyət idi. Onunla çoxsaylı görüşlərim hər zaman məndə çox böyük təəssürat izi buraxırdı. Onunla son görüşüm isə tarixi bir görüş idi. Həm o, həm də mən bu görüşü məhz tarixi görüş adlandırmışdıq".

Ancaq, çox təəssüf ki, gələcək layihələrin icrasını görmək mərhum Prezidentə nəsib olmadı. Dövlət başçımızın fikrincə, təsəlli verən amil odur ki, öz həyatını İranın inkişafına qurban vermişdir və bizim yaddaşımızda, İran xalqının, Azərbaycan xalqının yaddaşında o, parlaq şəxsiyyət, böyük dövlət xadimi, Azərbaycan dövlətinin və xalqının böyük dostu kimi qalacaq.

...Şəxsən mən – uzun illərin təcrübəsinə malik olan jurnalist 2020-ci ildə Azərbaycanla İran arasında yaranmış siyasi böhranın, xüsusən bu qonşu ölkədəki Azərbaycan səfirliyinə qarşı törədilən məlum terror aktından sonrakı kritik vəziyyətin tezliklə aradan qaldırıla biləcəyinə inanmırdım. Ancaq siyasətçilər jurnalistlər kimi fikirləşmirlər. Cənab prezidentlər İlham Əliyev və Seyid İbrahim Rəisi cəmi iki-üç il ərzində talenin və tarixin qonşu etdiyi bu iki ölkəni və xalqı, sözün həqiqi mənasında, dosta, tərəfdaşa çevirə bildilər. Aramızda heç bir narazılıq və ya narahatlıq qalmadı.

Dövlət rəsmilərinin də dediyi kimi, Ağbənd yolu regionları birləşdirən əsas nəqliyyat-tranzit yollardan biri olacaq. Oradan Türkiyəyə və İran vasitəsilə Fars körfəzinə yüklərin daşınması həyata keçiriləcək. Üstəlik, yaxın illərdə dəmir yolunun da çəkilməsi nəzərdə tutulur. Bundan başqa yuxarıda qeyd etdiyimiz fakt üzündən fəaliyyətini dayandırmış səfirliyimiz də yaxın aylarda açılacaq, Qeyd edək ki, səfirliyimizə hücum edən şəxs artıq cəzalandırılmışdır. Rəsmi məlumata görə, iyuldan səfirliyimiz yeni binada fəaliyyət göstərəcək.

Prezident İlham Əliyevin qənaəti belədir ki, Azərbaycan bundan sonra İranla ikitərəfli əlaqələri inkişaf etdirmək istiqamətində siyasət yürüdəcək. Əminik ki, rəsmi Tehran da bu yöndə addımlarını daha da sıxlaşdıracaq. Ümidvarıq ki, region ölkələri bütün pronblemləri öz aralarında həll edəcəklər.



***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Separatçıların "dəmir yumruq" altına yürüşü

## Baqratla gizli müzakirə aparanlar ölkələrini yeni savaşa sürükləyirlər

**Erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan Hayastanda qarışıqlıq salmaq, ölkə rəhbərliyini Azərbaycanla münasibətləri qaydaya salmaq istiqamətində götürdüyü kursdan yayındırmaq istiqamətində cəhdini davam etdirir. O, dünən növbəti çox təhlükəli oyununu oynayıb. Səhər saatlarında İrəvandakı "Ani Qrand" hotelində Azərbaycan ərazisində 1991-ci ilin sentyabrından 2023-cü ilin sentyabrınadək mövcud olmuş qondarma "dqr" rejimini təmsil edən şəxslərlə görüşüb. Görüş Ermənistanın "Nyus.am" saytında "Qarabağ rəsmiləri və deputatlar, habelə icmanın liderləri" ilə müzakirə kimi təqdim edilib.**

Ölkəmizə qarşı işğalçı müharibənin, Xocalı soyqırımının fəal iştirakçısı, qorxaq olduğu qədər də qaniçən, yırtıcı və hiyləgər olan, azərbaycanlı əsir və girovlara amansız işgəncələr verən, qondarma rejimdə müxtəlif "vəzifələr" tutan, "general-mayor" adlandırılan, 2023-cü ildə Azərbaycanın ədalət mühakiməsindən son anda qaçıb canını qurtarmağı bacaran Vitali Balasanyanın görüşdə Baqratın yanında əyləşməsi diqqətdən yayınmır. Kriminal "sxodka"nın məşvərət məclisinə bənzəyən görüşdə qondarma rejimin "ombudsmanı" adlandırılan Qeqam Stepanyanın, eləcə də lokal xarakterli antiterror tədbirlərindən sonra görüş üçün Yevlaxa gələn iki "deputat"dan birinin – "Artsax demokratik partiyası" fraksiyasının rəhbəri David Melkumyannın iştirakı da kadrlarda aydın görünür.

Görüşdən əvvəl keçmiş qondarma rejimin iki "deputatı" – Metakse Akopyan və Nella Qriqoryan jurnalistlərlə ünsiyyət qurublar. Akopyan deyib ki, 44 günlük müharibədən sonra Qarabağda baş verənlər Ermənistanda təkrarlanır. O, tipik revanşist fikirlərlə çıxış edərək deyib: "Biz yenə də Ermənistan ərazisini kimin təhvil verdiyini (?) görürük. Onlar Qarabağda da eyni hərəkəti etdilər. Düşmən qoşunlarının olması ona gətirib çıxaracaq ki, insanlar o kəndlərdə yaşaya bilməyəcəklər". Onun səsləndirdiyi fikirlər İrəvandakı etirazçıların daha çox Qarabağdan gətmiş ermənilərə "stavka" etdiyini aydın şəkildə ortaya qoyur: "Qarabağdan Ermənistan hökumətinin dəstəyini itirmək qorxusu ilə etiraz aksiyalarına qatılmayan az sayda əhali var. Bu, mövcudluq mübarizəsidir, Qarabağa qayıtmaq ümididir. Bu və ya digər hakimiyyətdən asılı olmayaraq, bizim tələblərimiz dəyişməyəcək: Beynəlxalq qurumlarda Qarabağ əhalisinin hüquqlarının müdafiəsi". Akopyan əlavə edib ki, "Vətən naminə Tavuş" hərəkatı bu ümidi inama çevirib.

Nella Qriqoryan isə daha kəskin ritorikadan istifadə edib. O, Azərbaycan Ordusunun bir günlük antiterror tədbirləri ilə separatizm yuvasını dağıtmasına, ölkənin suveren ərazilərini azad etməsinə görə Paşinyanı suçlayıb: "Artsaxın təslim olmasında (?) yeganə təqsirkar Nikol Paşinyan və onun xuntasıdır. Paşinyan 2022-ci il oktyabrın 6-da Praqada Alma–Ata bəyannaməsi əsasında Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanımaqla "Artsax"ı təslim etdi. Hər şey o gündən başladı".

Hökumətyönlü dairələrin ittihamlarına cavab verən deputat and-aman edib ki, "Artsax xalqı" etiraz aksiyalarında pul qarşılığında iştirak etmir: "Onlar özləri pul üçün hər şeyi etməyə hazır olanlardır. "Artsax"lılar mitinqə pul üçün deyil, öz "vətənləri" (?) naminə gedirlər".

Görüşün ilk 30 dəqiqəsində jurnalistlərin iştirakına imkan verilib. Daha sonra müzakirələr bağlı qapılar arxasında davam etdirilib.

Günortadan sonra isə Qalstanyanla ekspertlər, analitiklər, politoloqlar və ictimai təşkilatların nümayəndələri arasında yenə də qapalı görüş olub. Axşama yaxın isə arxiyepiskop "Surb Anna" kilsəsinin həyətində günün nəticələrini ümumiləşdirib.

Bu görüş "Keçinin əcəli çatanda çobanın çomağına sürtünər" məşhur el məsəlini yada salır. Görünür, separatçılar yenə "dəmir yumruq" arzusunda, pilotsuz uçuş aparatları (PUA) həsrətindədirlər. Onların İrəvanda keşiş Baqratla bağlı qapılar arxasında müzakirələr aparması o günlər üçün darıxdıqlarının göstəricisi sayıla bilər...

Ancaq istər parlamentdəki hakim "Mənim addımım" fraksiyasının üzvləri, istər Paşinyanın komandasında təmsil olunanlar, istərsə də baş nazir özü hakimiyyətin ünvanına səslənən ittihamları cavabsız qoymurlar.

Məsələn, hakim partiyanın deputatı Vaaqn Aleksanyan deyib ki, revanşistlərin baş naziri vaxtından əvvəl hakimiyyətdən uzaqlaşdırmaq planı baş tutmayacaq. Deputat bunun üçün müxaliflərin yetərli səslərinin olmadığını, hakim partiyadan da onlara dəstək verilməyəcəyini bildirib: "Parlament müxalifəti baş nazir Nikol Paşinyanın impiçment edilməsi prosesinə başlamaq istəyir, başlasınlar. Düzünü desəm, buna gülürəm, çünki başlaya bilmirlər, başlasalar da, uğursuzluğa məhkumdurlar. Əgər hakim "Mülki müqavilə" partiyasından "Hayastan" fraksiyasına (rəhbəri Robert Koçaryan) deputatların keçəcəyini düşünürsünüzsə, yanılırsınız. Bu, baş verməyəcək".



Dünən, həmçinin Ermənistan parlamentinin sədri Alen Simonyan da jurnalistlərə ölkədəki son hadisələrlə bağlı geniş şərh verib. O, din xadiminin siyasətlə məşğul olmasını qəbuledilməz saydığını bildirib: "Siyasət ticarətdir. "İncil"də "Mənim atamın evini bazara çevirməyin!" ifadəsi var. Sizcə, biz beynəlxalq tərəfdaşlarla danışıqlar aparanda, bu, ticarət deyil? Koalisiya yaradırsan, siyahı tərtib edirsən, bunun özü sövdələşmədir. Kilsə öz işini yarımçıq qoyub, indi bu cür əməllərlə məşğuldur".

Simonyan onu da bildirib ki, keşiş Baqratın arxasında dayananlar köhnə siyasi qüvvələrdir, bu, yeni siyasi hərəkat deyil: "Onların hansı formada zühur etmələri seçim məsələsidir. Biz burada yeni və tanış olmayan heç nə görmürük. Əvvəllər ölkədə baş verənlərin təkrarıdır. Sadəcə keçmiş baş nazir Vazgen Manukyanı keşiş Baqrat əvəzləyib. Həmin insanlar, eyni gündəm, köhnə məqsəd..."

Məlumat üçün bildirək ki, V.Manukyan 44 günlük müharibədən dərhal sonra Ermənistanda hakimiyyət əleyhinə başlayan və aylarla davam edən etiraz aksiyalarına rəhbərlik etmişdi. Aksiyalardan sonra növbədənkənar seçkilərə gedən N.Paşinyan revanşistləri növbəti dəfə məğlub etmişdi.

Parlament sədri hesab edir ki, köhnə gündəmlə hərəkət edən Ermənistan müxalifəti uğursuzluğa məhkumdur. Simonyan əminliklə bildirib ki, Qalstanyan heç vaxt baş nazir ola bilməyəcək.

O, baş nazirlə daxili siyasi vəziyyəti müzakirə etdiklərini, amma indi daha çox Azərbaycanla sərhədlərin demarkasiyası ilə məşğul olduqlarını vurğulayıb. Simonyan Ermənistan və Azərbaycan arasında Tavuş vilayəti ilə Qazax rayonu istiqamətində demarkasiya prosesinin, demək olar ki, başa çatdığını da bildirib: "Ermənistan və Azərbaycan arasında həmin hissənin demarkasiyası prosesini başa çatdırmışıq və dayaq məntəqəsi yaratmışıq. Sərhədin bərpası üçün gələcəkdə istifadə olunacaq bəzi prinsipləri müəyyən etmişik".

Revanşistlərin Qazax rayonunun 4 kəndinin ölkəmizə təhvil verilməsinə dair etirazlarına gəldikdə isə Simonyan vurğulayıb ki, həmin ərazilər Ermənistana məxsus deyildi. Onun sözlərinə görə, Ermənistan və Azərbaycan bu məsələdə aydın xəritə seçib. Bununla bağlı iki ölkə tərəfindən təsdiqlənmiş hüquqi baza var: "Bizim dövlət sərhədimiz dövlət müstəqilliyini bərpa etdiyimiz dövrdə olan sərhəddir. Burada Alma-Ata bəyannaməsinə qayıdaraq demək istəyirəm ki, keçmiş SSRİ ölkələri həmin sənədlə bir-birinin ərazi bütövlüklərini tanıyıblar. Ermənistan da bu sənədi imzalayaraq digər respublikaların, o cümlədən Azərbaycanın o dövrdə mövcud olan inzibati sərhədlərini tanıyıb. Həmin əsasla təməlləri qoymuşuq, qarşılıqlı məqbul olan prinsiplər əldə etmişik, o prinsiplərə əsaslanaraq delimitasiyaya başlamışıq və bu, bütün dünya ölkələri tərəfindən qəbul edilib, alqışlanıb".

**Ermənistandakı etiraz aksiyaları ilə bağlı fikirlərini öyrəndiyimiz politoloq Yeganə Hacıyeva bildirdi ki,** ölkədəki aksiyalar təkcə kənardan dəstəklənmir. Həm də hökumətin özü tərəfindən gizli şəkildə stimullaşdırılır. Onun sözlərinə görə, bu, hökumətin demokratik olduğu görüntüsünün yaradılması üçün lazımdır: "Bununla "Ermənistan demokratik ölkədir, etirazlara imkan yaradır, əks fikri boğmur" görüntüsü formalaşdırılır. Paşinyan hökuməti bu aksiyalardan öz xeyrinə yararlanır. Əslində isə hökumət aksiyaların qarşısını almaq üçün lazımi addımlar atır. Xüsusilə sanksiyalaşdırılmamış lokal etiraz aksiyalarını bunu görmək mümkündür. Qərb təsisatları isə bunu görmürlər. Daha doğrusu, görmək istəmirlər. Onlar "Ermənistan demokratik ölkədir" tezisi üzərindən siyasət yürütməkdə qərarlıdırlar. Bu mənada etiraz aksiyaları Paşinyan hakimiyyəti üçün beynəlxalq ictimaiyyət qarşısında imicini qorumaq vasitəsinə çevrilib".



Y.Hacıyeva qeyd etdi ki, etiraz aksiyalarının nə ilə yekunlaşacağı sualının cavabı ortadadır. Politoloq qeyd etdi ki, aksiyalar bir aydır davam edir və müəyyən formada hakimiyyətin özü tərəfindən uzlaşdırılır. Müsahibimiz hesab edir ki, etirazlar hakimiyyət daxilindəkilərlə yanaşı, xaricdən bir neçə qrup tərəfindən də dəstəklənir: "Məsələ ondadır ki, Paşinyanın hazırkı siyasi dönəmdə ölkədə ciddi alternativi yoxdur. Hazırda onun rəqibləri – Koçaryan və Sarkisyan vaxtilə diktatura qurmuş, mitinqlərdə onlarla Ermənistan vətəndaşının qətlinə fərman vermiş şəxslərdir. Onların rəhbərlik etdikləri Qarabağ klanı cəmiyyətin dərin nifrətini qazanıb. Onlar, əslində, ictimai legitimliklərini itiriblər. Bu səbəbdən klan bir müddət idi ki, "Paşinyana kimi alternativ qoya bilərik" sualına cavab axtarırdı".

Politoloq Paşinyanın qarşısına alternativ kimi din xadiminin çıxarılmasının bir neçə izahının olduğunu vurğuladı: "Birincisi, real alternativin olmamasıdır. İkincisi, din xadiminin birləşdirici faktor kimi istifadə olunması, üçüncüsü isə dinin özünün beynəlxalq səviyyədə Ermənistan–Azərbaycan münasibətlərində istismar olunması cəhdidir. Erməni lobbisi ərazi üstündə başlamış mübahisəni bütün dünyada xristian–müsəlman mübahisəsi müstəvisinə çəkməyə və öz maraqlarını dünyadakı xristianların kömıyi ilə təmin etməyə çalışır. Deyirlər ki, Azərbaycan dünyada xristianlığı ilk dəfə dövlət dini kimi qəbul etmiş ölkəyə qarşı müəyyən addımlar atıb və sair. Yəni, bu amildən yararlanmağa çalışırlar".

Y.Hacıyeva etirazların hər hansı nəticəsinin olmayacağını fikrindədir. Çünki aksiyalar mütəşəkkil formada keçirilmir və əhalinin ona ciddi marağı yoxdur.

***Səxavət HƏMİD***
***XQ***

# Helikopter qəzası və Ermənistanda “anti-Azərbaycan şousu”

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, demək olmaz ki, Ermənistanda belə təbliğat aparanlar birbaşa ölkənin hakim komandasının mənsubları və onlara yaxın şəxslərdir. Belələri əsasən hazırda ölkəni qarışdırmaq istəyən, Azərbaycanla sülh gündəmini pozmağa çalışan “beşinci kolon”un təmsilçiləridirlər. Bu revanşist-şovinist kəsimin səsi isə daha çox eşidilməkdədir.

Ermənistandakı revanşist qütb, əslində, İran daxilindəki ermənipərəst dairələrlə əlbir durumdadır. Həmişə belə olub. Məsələ burasındadır ki, birincilər ikincilər üçün, bir növ, mövzu verməyə girişiblər. Onlar bildirirlər ki, Azərbaycan, guya, İsraillə birlikdə İranda pantürkizmi alovlandırmaqla məşğuldur. Yəni, Rəisinin ölümü müstəvisində məhz bu sayaq düşüncələr təbliğ olunur. Sən demə, Azərbaycan İrandakı daxili vəziyyətin gərginliyi paradiqmasını, dövlətçiliyin sağlam təməllərdən uzaqlığını qabardırmış ki, durumin kəskinlik fazası yüksəlsin.

Belə deyimlərlə İranda sərt anti-Azərbaycan ritorikası yaratmaq niyyəti güdülür. Məqsəd ölkədə Azərbaycanı gözü götürməyən dairələrin hərəkətə keçmələrinə zəmin yaratmaqdır. Bu, öz yerində. Diqqətçəkən başqa bir məqam var. Ermənistanda “Vətən naminə Tavuş” hərəkatı deyilən siyasi hərəkat baş qaldırıb. Son günlərədək onun lideri arxiyepiskop Baqrat Qalstanyan çox aktiv idi. Belə təəssürat yaranırdı ki, din xadimi tərəfdarları ilə birgə baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdıracaq. Maraqlıdır ki, məlum helikopter qəzasından sonra Qalstanyanın fotoları artıq erməni mediasını bəzəmir. Hərəkatın səngidiyinə dair rəy yaranıb. Görəsən, nə üçün? Səbəb çox sadədir. Revanşist-şovinist kəsim əsas gücü İran üzərinə yönəldib. Onsuz da Qalstanyanın hərəkatının uğur qazanmayacağı aydın idi. Helikopter qəzası isə başlanılmış mənasız işi dayandırmaq üçün fürsət verdi.

Məlum idi ki, Qalstanyanın hərəkatının məqsədi Azərbaycanla sülhdən yayınmaqdır. Artıq erməni başbilənlər niyyətlərini İranla ölkəmizin arasını vurmaqla gerçəkləşdirmək istəyirlər. Hesab edirlər ki, Tehranın Bakıya qəzəblənməsi daha böyük “nəticələr” verə bilər, nəinki Qalstanyanın başlatdığı hərəkat. Amma digər cəhətə nəzər salaq. Əslində, Ermənistan rəhbərliyinin özü də dəfələrlə İranla Azərbaycanı incik salmağa çalışıb. Bu yolla birincinin ikinciyə qarşı irimiqyaslı hücuma keçməsini, ümumən Cənubi Qafqaz siyasi akvatoriyasında müharibə ab-havasının formalaşmasını istəyib. İstəyib ki, qarışıqlıq şəraitində yeni dəngələr dövriyyəyə girsin və nəticədə Azərbaycanın müəyyənləşdirdiyi sülh gündəliyi təxirə düşsün. Rəsmi İrəvan, həmçinin yaranacaq potensial gərginlik durumunda 44 günlük müharibə ilə itirdiyi mövqeləri geri qaytarmağa da ümid bəsləyib. Lakin bütün bu hesablamalar nəticə verməyib. Ən maraqlısı isə ondadır ki, bir vaxtlar Paşinyan administrasiyasının yürütdüyü xətti hazırda revanşist-şovinist kəsim həyata keçirməkdədir.

Söhbətimizin bu yerində bir məqamın üzərində dayanmağa ehtiyac duyuruq. Əlbəttə, İranla Azərbaycan arasında ötən il ciddi soyuqluq yaranmışdı. Vəziyyət o qədər dramatik şəkil almışdı ki, hətta, bəzi ekspertlər müharibə riski barədə də söz açırdılar. Lakin tezliklə işlər qaydasına düşdü.

Azərbaycan dövləti hər zaman İrana qarşı mehriban qonşuluq və dostluq siyasəti həyata keçirib. Ölkəmiz ən çətin anlarda belə bu siyasətdən kənar dayanmayaraq Qərbin anti-İran siyasətində yer almayıb, Tehrana qarşı plasdarm olmayıb. Görünür, cənub qonşumuzda bu reallığı düşünənlər də az deyilmiş. Belə düşünənlərdən birinin, bəlkə də birincisinin Prezident Rəisi olduğunu söyləyə bilərik.

Bəli, Azərbaycanla İranın ötənilki soyuqluğunun aradan qalxmasında Prezident Rəisi administrasiyası böyük rol oynayıb. Nəticədə Tehran Bakının “region region ölkələri üçündür” şüarını əsas tutan “3+3” platformasında aktiv mövqe tutmağa başlayıb. Bu mövqe həm də İranın region dövlətlərinin sərhədlərinin toxunulmazlığı prinsipi ilə həmahəng təşkil edib. Yəni, Bakı da cənub qonşusunun siyasi xəttinin məqbulluğunu qəbul edib, qarşı tərəfə gəldikdə isə, o, ölkəmizin səmimiyyətinə inanıb.





Bəs səmimiyyətdən uzaq davranış nümayiş etdirən hansı dövlət idi? Əlbəttə ki, Ermənistan. Rəsmi İrəvan Tehrana qarşı açıq çəkildə çıxmasa da, məlum idi ki, onun Qərbə meyillənməsi gec-tez anti-İran ovqatının işə düşməsini şərtləndirəcək. Bu tendensiyanın aktuallaşması indinin özündə də gözlənilməndir. Mümkün deyil ki, anti-Rusiya xəttinə üstünlük verən Ermənistan anti-İran dalğasında yer almasın.

Ancaq konkret məqam var. İş ondadır ki, Ermənistan rəhbərliyi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməkdən boyun qaçırır. Söhbət sırf Naxçıvana yol məsələsində olan şərtdən gedir. İrəvan həmin bəyanata əsasən, Azərbaycana tam maneəsiz yol verməli olduğu təqdirdə, məsələni özünün ərazi bütövlüyünə və suverenliyinə təhdid qismində görməyi seçir. Əslində, zaman-zaman İranın region dövlətlərinin sərhədlərinin toxunulmazlığı prinsipi həm də bu səbəbdən gündəmdə idi. Ancaq artıq İran administrasiyası daha çox “region region ölkələri üçündür” deyimi ilə hərəkət edir. Bu o deməkdir ki, rəsmi Tehran Qərbin Ermənistanda həlledici faktor olması reallığı ilə barışmır.

Qərbin məqsədi Ermənistanı hansısa formada ayaqda tutmaq, erməni amilini avantürizm qaynağı kimi gündəmdə saxlamaqdır. Hazırda mövcud istiqamətdə canfəşanlıq edən Fransadır. Ancaq bunadək Qərbdən Azərbaycana qarşı təpkilər var idi. Həmin təpkiləri hansı vəziyyət doğurmuşdu, bu barədə fikirlərimizi bölüşək.

Məlum olduğu kimi, Ermənistan haqqında söz açdığımız üçtərəfli Bəyanata məhəl qoymayaraq, Naxçıvana yol vermədiyindən, ölkəmiz həmin yolun İran ərazisindən keçməsi ilə bağlı Rəisi administrasiyası ilə razılığa gəlib. Təsadüfi deyil ki, mayın 19-da Azərbaycan və İran Prezidentlərinin dövlət sərhədində görüşməsi, Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılış mərasimi əsnasında söhbət Kələlə–Ağbənd yolundan düşdü. Prezident Rəisi gələrkən ora baxış keçirdiyini, tikinti işlərinin çox gözəl şəkildə getdiyini bildirdi və əlavə etdi ki, Azərbaycan ilə İran arasındakı əməkdaşlıqların nəticələri açılışı edilən su bəndi və eyni zamanda, həmin körpü və yoldur. Dövlətimizin başçısı da Ağbənd istiqamətində inşa edilən körpünü həm növbəti nəqliyyat bağlantısı, eyni zamanda, növbəti dostluq rəmzi kimi dəyərləndirdi. Cənab Əliyev Şimal–Cənub Nəqliyyat Dəhlizinin bir istiqamətinin də Ağbənd istiqamətindən salındığını diqqətə çatdırdı.

Qərbin, xüsusən də Fransanın məqsədinin Ermənistanı ayaqda tutmaq olduğunu nəzərə alsaq, Azərbaycan – İran münasibətlərinin hazırkı dinamik fazası, yeni Prezidentlərin mayın 19-da səsləndirdikləri fikirlər İrəvanı təcriddə saxlayır. Yeri gəlmişkən, dövlətimizin başçısı təcrid məsələsini bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində də qabartmışdı. Ölkəmizin lideri Naxçıvana gedən yolun İran ərazisindən keçməsinə qarşı beynəlxalq müqavimətin mövcudluğundan söz açarkən belə demişdi: “Onlar indi, necə deyərlər, bundan duyuq düşərək əl-ayağa düşdülər ki, biz kənarda qaldıq və hətta bildiyiniz kimi, Amerika Dövlət Departamentinin rəhbərinin müavini də bir anlaşılmaz açıqlama vermişdi ki, ya Ermənistandan keçəcək, ya da ki, biz imkan verməyəcəyik. Yaxşı, biz bunu üç ildir deyirik ki, bu, Ermənistandan keçsin, Ermənistan imkan vermir. İndi də bizi ittiham edirlər ki, biz başqa yol seçirik. Yəni, siz şərait yaradın Ermənistanın ərazisindən keçsin, Mehri ərazisindən keçsin, mən dediyim şərtlərlə, onda digər varianta ehtiyac qalmayacaq. Yoxsa bu da anlaşılan deyil. Bu gün Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə yenə də İran ərazisindən həyata keçirilir. Niyə buna etiraz edilmir, məhz Mehri hissəsinə etiraz edilir? Ermənistan–İran ticarəti gündən-günə artır, çiçəklənir. İran Qərbi Zəngəzurda konsulluq açıb. Niyə bu, necə deyərlər, heç bir sual yaratmır? Yəni, belə məntiqsiz və cəfəng açıqlamalar heç kimə şərəf gətirmir və “biz buna imkan verməyəcəyik” deyəndə, – mən artıq bunu demişəm, – Amerika nəyi nəzərdə tutur, necə imkan verməyəcək? Gələcək Zəngəzurda bir sədd qoyacaq, ya Zəngilanda bir qoşun yerləşdirəcək, ya İran ərazisində? Necə imkan verməyəcək? Bu, bizim suveren işimizdir. Bizim İranla bu yaxınlarda Astaraçay üzərində körpünün açılışı olmuşdur. Nə üçün? Çünki Şimal–Cənub dəhlizində yükdaşımaların həcmi iki dəfə artıb və hazırda Astaradakı terminal bütün o yükləri götürə bilmir. Rusiya ilə ikinci keçid açmışıq Xanobada və indi Rusiya–Azərbaycan sərhədində iki keçid var. Bir idi. İranla da iki keçid var. Yəni, bu, bizim suveren işimizdir”.

***Ə.CAHANGİROĞU***
***XQ***

# Yeni dünya köhnə qəlibləri qəbul eləmir

**(əvvəli 1-ci səhifədə)**

Son otuz ildə planetin ən həssas “qaynar nöqtələrindən” biri sayılan Cənubi Qafqaz da yeni tarixinin həlledici mərhələsini yaşamaqdadır. Bir tərəfdən bölgə ölkələri öz aralarında sülhə və əməkdaşlığa yönəlik səylərini artırır, digər tərəfdən isə Şərqlə Qərbi birləşdirən bu strateji coğrafiyada korporativ maraqlarını yürüdən üçüncü qüvvələr heç cür “suların durulmasına” imkan vermək istəmirlər. Azərbaycan və Ermənistan sülhün bir addımlığındadır. Amma kənar qüvvələr, “böyük güclər” ən müxtəlif bəhanə və üsullarla onlara sonuncu addımı atmaqda mane olmağa çalışırlar. Rəsmi İrəvanın siyasi kompasını tez-tez dəyişməsinin, ziddiyyətli bəyanatlar verməsinin, bu gün bir söz deyib, sabah dediyinin əksini etməsinin az şahidi olmamışıq. Üstəlik, Ermənistanda mövcud hakimiyyəti qeyri-konstitusion yolla devirmə riski, Nikol Paşinyana daxildən və xaricdən təzyiqlərin artması təhlükəsi hələ də qalmaqdadır.

***

Birmənalı demək olar ki, xarici qüvvələr Ermənistan cəmiyyətinin müxtəlif vektorları arasında ziddiyyətlər yaratmaq və bunun üzərində oynamaq yolunu tutublar. Bu zaman həmin qüvvələr ermənilərə çeşidli “nemətlər” vəd etməklə yanaşı, eyni zamanda, onu xəyali “qisas ssenarisi”nə hazırlamağın cizgilərini çəkməyə girişiblər. İctimai rəy üzərində qurulan bu cür manipulyasiyaların hərdən ən kobud formalarının, hətta şantaj taktikasının şahidi oluruq. Bu taktikanı daha çox Fransanın timsalında görmək mümkündür. Təxmin edə bilərik ki, Parisin “qara qitə”yə qarşı aciz qəzəbi Yeni Kaledoniya hadisələrindən sonra daha da artıb. Fransanın daxili işlər naziri Cerald Darmaninin həmin hadisələrdə Bakını günahlandırmağa tələsməsi isə məhz acizliyin təzahürü idi. Bu şəraitdə güman etmək olar ki, Yelisey sarayının müvəqqəti kirayənişini və onun nazirləri Cənubi Qafqazda müharibə məşəlini yandırmaq üçün yeni cəhdlərə baş vuracaqlar. İntəhası, yuxarıda qeyd etdiymiz kimi, daha dünya əvvəlki dünya deyil və Fransanın Cənubi Qafqaza yönəlik məkrli və təxribatçı siyasətinə qarşı çıxmağa qadir güc və söz sahibləri var.

“Azərbaycanlı qardaşlarımız sülh istəyən tərəf olduqlarını dəfələrlə nümayiş etdiriblər və biz Ermənistan rəhbərliyindən də eyni münasibəti gözləyirik”. Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasının yekunlarına dair brifinqdə söyləyib. R.T.Ərdoğan Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesindən danışarkən “xarici güclərin təxribatlarından” da söz açıb. Bu zaman Türkiyə liderinin, ilk növbədə, Fransanı nəzərdə tutduğunu söyləyə bilərik. Türkiyə Prezidenti bildirib ki, Ankara Bakının İrəvanla apardığı sülh danışıqlarını diqqətlə izləyir. O, 4 kəndin Azərbaycana verilməsi ilə bağlı son razılaşmanı alqışladığını vurğulayıb. Rəcəb Tayyib Ərdoğan bunu Cənubi Qafqazda əldən qaçırılması mümkün olmayan “tarixi şans” adlandırıb: “Regionumuzun qeyri-sabitliyindən qidalanan xarici güclərin təxribatlarına son qoyulmalıdır. Türkiyə bölgədə davamlı sülhə nail olmaq üçün hər cür səy göstərəcək”.



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bölgədə sülhə nail olmanın vacibliyi ilə bağlı eyni fikirləri və reaksiyanı Azərbaycan Prezidenti İlham Əliyevlə telefon danışığında da dilə gətirib. İki gün əvvəlki telefon danışığında R.Tayyib Ərdoğan Azərbaycanla Ermənistan arasında sülh prosesinin müsbət istiqamətdə irəliləməsindən məmnunluğunu ifadə edib və Türkiyənin prosesi yaxından izlədiyini bildirib. Türkiyə Prezidenti bölgədə təmin olunacaq ədalətli və davamlı sülhün həm Azərbaycan, həm Ermənistan, eləcə də bölgə ölkələri üçün yeni bir mühit yaradacağını vurğulayıb.

Bu, Türkiyə liderinin İrəvana və onu yanlış yola çəkməyə çalışanlara birinci ismarıcı deyil. R.T.Ərdoğan Bakı ilə sülhün müqabilində Ermənistanla sərhədin və kommunikasiyaların açılacağını dəfələrlə bəyan edib. Həmin kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin Şuşadakı çıxışından bu cümləni bir daha xatırlatmaq yerinə düşər: “Əgər kimsə – minlərlə kilometr uzaqda yerləşən ölkələrin rəhbərləri bu regionda müəyyən nəticələr əldə etmək istəyirlərsə, qoy bizimlə danışsınlar”. Bu xəbərdarlıq Cənubi Qafqazda Bakının özünün yaratdığı yeni reallığın bütün mahiyyətini özündə ehtiva edir.

***

Ermənistanda Azərbaycanla sülh tərəfdarlarının çoxaldığı, son vaxtlar onların səslərinin gücləndiyi barədə yazmışdıq. Belə insanların sırasında hətta bu günədək Nikol Paşinyan iqtidarına və sülh prosesinə müxalif mövqedə dayanmış siyasi ekspetlərin, eks-nazirlərin, alimlərin, blogerlərin olduğunu da qeyd etmişdik. “Cənubi Qafqazda regional kommunikasiyaların açılması müasir geosiyasi təsirlərsiz mümkün olmalıdır”. Bunu “Report”a açıqlamasında britaniyalı jurnalist Onnik Ceyms Krikorian bildirib. Onun sözlərinə görə, İrəvanın regionda kommunikasiyaların açılması üzrə üçtərəfli işçi qrupunun işini (Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin birgə sədrliyi ilə - red.) dondurmasının səbəbləri məlum deyil: “Yəni, Ermənistanın bu qərarı təzyiq altında verdiyi, yaxud Rusiya FTX-nin İrəvanın böyük nəqliyyat qovşağı üzərində hər hansı nəzarətə malik olmasını istəmədiyi aydın deyil”.

Erməni əsilli britaniyalı jurnalist və fotoqraf Onnik Krikorian daha sonra vurğulayıb ki, hazırda Bakı və İrəvan ikitərəfli danışıqlara üstünlük verir: “Bu formatın prioritet sayılmaması üçün heç bir səbəb görmürəm”. Onun fikrincə, Zəngəzur dəhlizi layihəsinin artıq Rusiya vəə Qərb arasında rəqabət mərkəzi orbitindən çıxması çox vacibdir.

Sağlam və praqmatik düşüncə sahibi olan erməni əsilli britaniyalı jurnalist Krikorianın açıqlamasından daha bir sitat: “Bu layihənin (Zəngəzur dəhlizi – red.) gələcəyi Azərbaycan və Ermənistandan, həmçinin ondan faydalanmağa ümid edən ölkələrdən asılı olacaq. Amma hesab edirəm ki, regional kommunikasiyaların açılması və Naxçıvanla əlaqələri bərpa etmək arasında fərq qoymalıyıq. Əslində, bu layihə mövcud geosiyasi proseslər nəzərə alınmadan mümkün olmalıdır. Amma Ermənistan dəmir yolu şəbəkəsi Cənubi Qafqaz dəmir yollarının inhisarında və 2037-ci ilə qədər Rusiyanın nəzarəti altında olduğundan ikinci mərhələ daha uzun çəkə bilər”.

İndi İrəvanın reallıqdan çıxış edərək, sülh və əməkdaşlıq yolunda konkret addımlar atmalı olduğu məqamda Fransa rəsmən bəyan edir ki, Ermənistana Azərbaycandan müdaxilə təhdidi var və onu mütləq müdafiə etməlidirlər. Yəni, Yelisey sarayı, guya, Ermənistanı müdafiə etmək üçün əlindən gələni etməyə çalışır, bu məqsədlə ona yeni silahlar göndərir. Əlbəttə, vasitəçilikdən və danışıqların platformasından məhrum olan Fransanın əsas məqsədi sülh sazişinin imzalanmasına mane olmaqdır. Ermənistanın bəzi media qurumları yaxın gələcəkdə Fransa hərbçilərinin bu ölkədə peyda olacağı barədə xəbərləri tirajlayırlar. Artıq hamıya aydındır ki, Emmanuel Makronun niyyəti Ermənistanı müdafiə etməkdən daha çox Cənubi Qafqaz uğrunda apardığı mübarizədə Türkiyə və Rusiya qarşısında üstünlük əldə etməkdir. Yoxsa, balaca Ermənistana geniş radiuslu GM-200 radiolokasiya sistemlərini verməzdi. Ərazini əhatə dairəsi 250 kilometrə çatan həmin sistemlər Fransaya nəinki Azərbaycan, eləcə Türkiyə, İran və Rusiya təyyarələrini gecə-gündüz izləməyə imkan verəcək.

***

Dünənə qədər kollektiv Qərbin, ABŞ-nin analitik mərkəzləri Ermənistanla Azərbaycan arasında yeni hərbi münaqişənin qaçılmaz olduğunu proqnozlaşdırırdılar. Əslində, sülh danışıqlarında yaranan fasilə onlara ən müxtəlif ehtimal və fərziyyələr irəli sürmək üçün “meydan” yaratmışdı. İndi Azərbaycan və Ermənistan arasında birbaşa, vasitəçisiz dialoq start götürüb. Sadəcə, İrəvan Bakının bir sıra vacib şərtlərini qəbul etməli, konstitutsiyanı dəyişdirməlidir. Çünki hayların ana qanununda açıq şəkildə Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları yer alır. Bunu ən azı ona görə etməlidir ki, Cənubi Qafqazda əsas oyunçunun Azərbaycan olduğunu özü də yaxşı anlayır. Ermənistan rəhbərliyinin bunu dərk etməsinin sübutu isə sərhədlərin delimitasiyası və demarkasiyası prosesi ilə bağlı protokolu imzalaması və ikitərəfli münasibətlərin normallaşması istiqamətində atdığı addımlardır. Nikol Paşinyan bu prosesin Ermənistanın suverenliyinin və təhlükəsizliyinin daha da möhkəmləndirilməsi üçün təməl daşına çevrildiyini təkrarlamaqdan yorulmur. Siyasi məntiq də onu deyir ki, Azərbaycanın suverenliyinin möhkəmlənməsi, bununla paralel olaraq, Ermənistanın suverenliyinin möhkəmlənməsinə, ümumilikdə, Cənubi Qafqazın beynəlxalq subyektivliyinin güclənməsinə zəmin yaradacaq. Amma özlərini “qlobal aktor”, “böyük güclər” sayan bəzi ölkələr məlum səbəblərdən bu reallığı həzm etməkdə çətinlik çəkirlər. Bizim vəzifəmiz onlara dönə-dönə başa salmaqdır ki, bu reallığa müqavimət göstərmək əbəsdir. Artıq dünyanın yeni düzəninə köhnə nümunələri sırımaq cəhdləri fayda verməyəcək. Bu cəhdlərin kənardan Servantesin Don Kixotunun yel dəyirmanı ilə “döyüşməsi” kimi miskin səhnəyə bənzədiyini üçüncü tərəflər, nəhayət, anlamalıdırlar.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**

Əlbəttə, Rəcəb Tayyib Ərdoğanın nəzərdə tutduğu ölkə Fransadır. ABŞ-nin sülh sazişinin imzalanması ilə bağlı mövqeyi konstruktiv xarakteri daşıyır. Bu da anlaşılandır. Amma onu da demək lazımdır ki, rəsmi Paris tərəfindən son günlər Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması, sülh danışıqları kontekstində kəskin çıxışlar müşahidə olunmur. Fransa Almatı görüşü barədə, sadəcə olaraq, neyrtal bir bəyanatla çıxış edib. Çox güman ki, Azərbaycanın atdığı adekvat addımlar, Yeni Kaledoniya məsələsində Bakının əks-tədbirləri Parisi düşünməyə vadar edib. Yəni, Yelisey sarayındakılar artıq anlayırlar ki, Azərbaycan heç də Cənubi Qafqazda yerləşən balaca, gücsüz, iradəsiz bir ölkə deyil. Əgər, o, Azərbaycana qarşı əvvəlki təxribatçı fəaliyyətini davam etdirərsə, Bakının da onun maraqlarına toxuna biləcəyini nəzərə almalıdır. Hadisələrin bundan sonrakım inkişafı bu məsələyə tam aydınlıq gətirəcək. Hər halda, xarici işlər nazirlərinin Almatı görüşündən sonra Parisin kəskin reaksiyasını görmədik.

Bəlkə indi biz Fransanın bölgəyə yönəlik münasibətində hansısa dönüşün yarana biləcəyini ehtimal edə bilərik. Ola bilsin, onlar Azərbaycana qarşı qərəzli fəaliyyətdən çəkinmək barədə düşünürlər. Doğrudur, bunu söyləmək hələ tezdir, vaxt hər şeyə aydınlıq gətirəcək.

# İlham Əliyev: postmüharibə dövrünün memarı

**II MƏQALƏ**

**Liderlik faydalı işlər görmək məharətidir.**

**Piter Druker**

## Suverenlik diplomatiyası

Azərbaycan Cənubi Qafqazın qədim dövləti kimi, unikal liderlik və dövlətçilik ənənəsinə malikdir. Bu məsələnin təməli o dərəcədə fundamentaldır ki, yalnız onun üzərində bərqərar olan liderlik ölkənin uğurunu təmin edə bilər. Bu aspektdə yeni tarixi dönəm üçün Azərbaycanda uğurlu liderlik strategiyasını ulu öndər Heydər Əliyevin bənzərsiz liderlik təcrübəsi bazasında müəyyən etmək olar.

Belə bir fəlsəfi qənaətimiz vardır ki, Prezident İlham Əliyevin postmüharibə dövründə çox əhəmiyyətli siyasi-diplomatik uğurlar əldə etməsinin təməlində məhz vurğuladığımız liderlik təcrübəsi dayanır. Bu əsasda Azərbaycan Prezidenti konkret olaraq müstəqil dövlət quruculuğunu yeni səviyyəyə yüksəltmişdir. Artıq həmin mərhələni canlı olaraq yaşayırıq. Bu mərhələni diplomatiya prizmasında necə adlandırmaq olar?

Artıq dünya politoloqları sırasında ona "suverenlik diplomatiyası" deyirlər. Təbii ki, burada həqiqət payı çoxdur. Lakin, bizcə, İlham Əliyevin diplomatik məharətinin substantiv və funksional aspektlərini tam olaraq belə təsnifat ifadə etmir. Çünki İlham Əliyev postmüharibə mərhələsində "sistemüstü şəbəkə diplomatiyası"nın Azərbaycan nümunəsini yaradır.



## Sistemüstü şəbəkə diplomatiyası

Burada "sistemüstü" termini Azərbaycan Prezidentinin sərt qaydalı sistemliliyin fövqündə dayanan və əsas olaraq əhatəliliklə yanaşı çevikliyi ifadə edən dinamik fəaliyyətini ifadə edir. Fəlsəfədə və politologiyada "şəbəkə" anlayışı "sistem" anlayışından daha mütəhərrik və hər anında kreativliyə (situasiyada yaradıcı davranışa) qabil stuktur-funksional bütöv kimi təsəvvür edilir. Bu mənada şəbəkənin adi mürəkkəb çoxluqdan iki başlıca fərqi mövcuddur.

Birincisi, şəbəkədə tərkib hissələri arasında dərin məntiqi və funksional bağlılıq olur, lakin, bu, həmin elementlərin bir-birinə sərt bağlılığını deyil, ahəngdar qarşılıqlı münasibətlərini ifadə edir.

İkincisi, şəbəkə mütləq konkret strateji hədəfə istiqamətlənmiş sinergetik fəaliyyəti tələb edir. Bunun fəlsəfi anlamı ondan ibarətdir ki, adi mürəkkəb çoxluqdan fərqli olaraq şəbəkə fəaliyyəti tərkib hissələrinin sinerjisinin təmini şəraitində özünü təsdiq edə bilir.

Bu fərqliliklər şəbəkədaxili situasiyaya aiddir. Sistemüstü diplomatiyada şəbəkə–ətraf mühit münasibətləri konteksti də prinsipial rol oynayır. Çünki şəbəkənin mövcudluq şərtləri daim ətraf mühitə tam açıq olmasını zəruri edir. Bu olmasa, onda şəbəkə deyil sistemdən bəhs etmək lazım gəlir. Müasir fəlsəfi və elmi təsəvvürlərə görə, şəbəkə həmin aspektdə inkişaf və sürətli yeniləşmə üçün daha potensial struktur hesab olunur. Yəni şəbəkə ətraf mühitə münasibətdə sistemdən fərqli olaraq, daha açıq və dinamik strukturdur.

Eyni zamanda, şəbəkə funksional olmaq üçün ətraf aləmlə münasibətlərini özünün daxili mahiyyətinə uyğun məcrada qurmalıdır. Liderlikdə diplomatik fəaliyyət baxımından, bu, situasiyaya bütöv baxmaq qüdrətində olan strateji zəkanın olması deməkdir. Burada diplomatiyanın iki aspekti birləşir – birincisi, lider fəaliyyətinin bütün aspektlərini öncədən müəyyən edilmiş strateji hədəfə fokuslandırmalıdır; ikincisi, bu prosesin gedişində ətraf mühitlə qarşılıqlı əlaqələrin ümumi mənzərəsi səviyyəsində milli maraqlara cavab verən çevik qərarlar qəbul etməyi bacarmalıdır.

Bu yanaşma çərçivəsində suverenlik diplomatiyası sistemüstü şəbəkə diplomatiyasının tərkib hissələrindən biri kimi görünür. Hesab edirik ki, Azərbaycan Prezidentinin postmüharibə dövründə diplomatik məharəti məhz daha geniş kontekstdə xarakterizə olunmalıdır.

Məsələnin bu cür qoyuluşu avtomatik olaraq başqa bir aktual siyasi-nəzəri məqamı diqqətə gətirir. Kifayət qədər mürəkkəb struktur-funksional keyfiyyətlərə malik sistemüstü şəbəkə diplomatiyasının təməlində Heydər Əliyevin yeni liderlik təcrübəsinin hansı əlamətləri dayanır?

## Ulu öndərin liderlik təcrübəsinin üç əlaməti

Heydər Əliyevin liderlik təcrübəsi son dərəcə zəngin və əlamətləri də çoxdur. Bizi həmin əlamətlərin sırasında postmüharibə mərhələsində sistemüstü şəbəkə diplomatiyasını reallaşdırmağı stumullaşdıran keyfiyyətlər maraqlandırır. Bizcə, ilk əlamət liderin realpolitika müstəvisində özünə inamıdır. Özünəinam, bütövlükdə, liderliyin hər bir növü üçün xarakterikdir. Ancaq Heydər Əliyev çox mürəkkəb geosiyasi regionda (Cənubi Qafqazda) lideri olduğu ölkə üçün olduqca əlverişsiz siyasi, geosiyasi, psixoloji və ideoloji situasiyada özünəinam keyfiyyətini bütövlükdə cəmiyyətə sirayət etdirə bildi. Özünəinamın bu transformasiyası abstrakt şərtlərə deyil, konkret realpolitikaya uyğun baş verdi. Onun lakonik ifadəsi – "Fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamındadır.

Liderin şəxsi psixoloji özünəinamını ictimailəşdirə bilməsi hər zaman baş tutmur. Postsovet məkanında belə bir təcrübə yoxdur (Rusiya istisnadır, çünki əsrlərlə davam edən güclü dövlət psixoloji özünəvurğunluğu bu ölkədə inersiya ilə hələ davam edir). Onu da nəzərə alaq ki, postsovet məkanında Azərbaycan qədər bütün aspektlərdə əlverişsiz şərtlər daxilində müstəqilliyini təsdiq etməyə çalışan ikinci dövlət olmamışdır! Heydər Əliyev üçün şəxsi özünəinamı sosial hadisəyə çevirmək böyük məharət tələb edirdi. Ulu öndər bunu bacardı, çünki özünəinamın psixoloji və mənəvi təməlində səmimilik və düzlük dayanır. Bu səbəbdəndir ki, Heydər Əliyevlə ünsiyyətdə olan olan siyasi liderlər, onu "verdiyi sözə tam əməl edən siyasətçi" kimi xarakterizə edirlər. Eyni fikirləri onunsiyasi varisi haqqında söyləyirlər!

Səmimi və düz insan önzünəinamlı olur – haqq yolunda getdiyini bilir! Haqqa söykənən həmişə qalibdir!

Eyni zamanda, liderin özünəinamı sosiallaşdırması prosesi mifik, abstarkt ideoloji söyləntilər kimi deyil, realpolitikanın sərt şərtləri daxilində reallaşmalıdır. Azərbaycan dövlətçilik ənənəsi üçün unikal olan bu keyfiiyyəti müasir mərhələdə Ulu öndər şəxsi aspektdən praktiki siyasi müstəviyə çıxardı. Və sonrakı təcrübə göstərdi ki, həmin keyfiyyətin siyasi varisin liderlik özəlliklərindən biri kimi formalaşmasına tam nail oldu.

İkinci əlamət cəmiyyətin daxili birlik və həmrəylik fəlsəfəsini yeniləşdirməsi ilə bağlıdır. Heydər Əliyev elə bir inqilabi yenilik etdi ki, hətta indi Avropa üçün nümunə ola bilər (Yurgen Habermasın Avropa həmrəyliyi ilə bağlı narahatlıqlarını xatırlayaq). Konkret olaraq, Heydər Əliyev Azərbaycan cəmiyyətinin etnik birlik modelindən sosial-mədəni modelə müasir şərtləri nəzərə alaraq transformasiyasına nail oldu! Bu zaman etnik birlik modelinə psixoloji cəhətdən zərrə qədər də zərbə vurulmadı. Əksinə, Ulu öndər məharətlə onu yeni dövrün ruhuna uyğun forma və məzmuna saldı!

Bu prosesin iki sosial, mədəni, psixoloji, siyasi və ideoloji sütunu vardır – azərbaycançılıq və multikulturalizm! Bu iki təfəkkür fenomeninin praktiki siyasi liderliyə üzvi surətdə gətirilməsi sonrakı mərhələdə sistemüstü şəbəkə diplomatiyasının mühüm təminedici şərtlərini formalaşdırdı. Heydər Əliyevin siyasi varisi həmin keyfiyyətə də tam yiyələnərək, lider kimi asanlıqla regional və qlobal miqyaslardakı fəaliyyəti zamanı konstruktiv manevrlər edə bildi. Həmin əlamətin əsas tezisi "Biz birlikdə güclüyük"dür!

Üçüncü əlamət Heydər Əlliyevin müasir dövrdə liderliyə milli dövlət quruculuğu kontekstində milli-regional-qlobal sintezi gətirməsi ilə bağlıdır. Bu əlamətin ana tezisini "Bir millət, iki dövlət" kəlamı təşkil edir. Bu kəlam Azərbaycan liderliyində müstəqil dövləti regional və qlobal miqyasların qarşılıqlı əlaqəsində "görməyə" imkan verir. Həmin kəlamın fəlsəfi və siyasi-nəzəri məzmunu, reallaşma mexanizmləri, funksionallığı və strateji məqsədi basxımından "yeni qlobal siyasi konstruktivizm" kimi qiymətləndirilə bilər. Ulu öndər bu cür "siyasi universallaşmanın" reallaşması "xəritəsi"ni də müəyyən etmişdir. Onu sxematik olaraq belə formula edə bilərik: milli dövlətçilikdən türk dövlətləri birliyinə və oradan da qlobal konstruktiv, qarşılıqlı faydalı əməkdaşlıq formatlarına keçid.

Heydər Əliyevin siyasi varisi üçün liderlik aspektində burada olduqca vacib, əhəmiyyətli və strateji mənası dərin olan keyfiyyətlərin əsası yaradılmışdır.

Birincisi, siyasi varis istənilən səviyyədə lider kimi fəaliyyətində milli, güclü, müstəqil dövlət kimi inkişafın əsas məqsəd olduğunu qəbul etməlidir.

İkincisi, bu əsas məqsədə nail olmaq üçün "Bir millət, iki dövlət" formulunun ruhu əsasında bütün türk dünyasının konstruktivliyə, açıqlığa, sülhsevər və əməkdaşlığa istiqamətlənmiş siyasi təşkilatlanması təmin edilməlidir.

Üçüncüsü, milli və ümumtürk miqyasının qlobal miqyasda dövlətlərarası münasibətlərə konstruktiv aspektdə transformasiya etməsi üçün sistemüstü şəbəkə diplomatiyası yeni mərhələyə uyğun məzmunlaşmalı və faktiki olaraq "strateji yol xəritəsi" funksiyasını yerinə yetirməlidir!

Prezident İlham Əliyev bütün bu yeni liderlik keyfiyyətlərinə mükəmməl səviyyədə sahibdir və bunu fəaliyyətində əldə etdiyi konkret nəticələr sübut edir! Buna qətiyyən şübhə yoxdur. Bununla yanaşı, cəmiyyət üçün aydınlaşdırılmalı mühüm məqamlar vardır. Məsələ ondan ibarətdir ki, hazırkı çox mürəkkəb və qarışıq geosiyasi mühitdə liderlərin toplum tərəfindən adekvat dərk edilməsi dövlət və millət səviyyəsində çox vacibdir. Çünki dünya üzrə müasir dövlətçilik təcrübəsi göstərir ki, lider-toplum birliyinin mövcud olduğu dövlətlər real inkişaf edərək gücünü artıra bilir. Bu şərtin qoyulmasının özəl səbəbi vardır.

Həmin səbəb indi istənilən müstəqil dövlətin siyasi və ictimai şüuruna, toplumun rəyinə kənardan simmetrik və asimmetrik təsirlərin olması ilə bağlıdır. Həm də indi ideoloji mərkəzlərin elə müasir təsiretmə mexanizmləri vardır ki, haradan hansı informasiyanın hansı məqsədlərlə gəldiyini çevik müəyyən etmək çox çətindir. Üstəlik, son illər bu təxribat-informasiyaları "insan haqları", "demokratiya", "azadlıq", "müasirlik" və s. kimi ibarələr altında yeridirlər. Müşahidələr göstərir ki, cəmiyyətlər bu kimi təsirlərin altına müvəqqəti də olsa düşürlər. Lakin qısa zamanda cəmiyyətin aldığı zərbələri uzun müddət neytrallaşdırmaq çətin olur. Bu prosesin fəlsəfi və siyasi-ideoloji aspekti mürəkkəbdir – ona baş vurmayaq.

Deməli, lider-toplum birliyinin perspektivli olması nə liderin, nə də toplumun ayrı-ayrılıqda mənfəəti deyil, bütövlükdə, tarix, millət, dövlətçilik qarşısında ortaq siyasi, mənəvi, ideoloji və tale məsuliyyətidir! Həm də məsələ yalnız nəzəri səviyyədə qalmamalı, konkret praktiki həyatda toplumun biliyinə və inamına çevrilməlidir. Bu da hər bir tarixi mərhələdə dövlət başçısı–liderin fəaliyyətinin cəmiyyətə anladılmasının strateji əhəmiyyətini təkrar-təkrar meydana çıxarır.

Bütün bunlara görə, Prezident İlham Əliyevin postmüharibə mərhələsində milli, regional və qlobal miqyaslarda hansı mənalarda dövrün uğurlu memarı olduğuna aydınlıq gətirilməlidir! Şərəfli olduğu qədər də, böyük məsuliyyət və zəhmət tələb edən məsələdir!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Valday gölü, "Valday" Klubu və müasir dünyamız

## Bu diskussiya formatının fəxri qonaqları sırasında Azərbaycan Prezidentinin adı ilk sırada çəkilir

**Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan rəhbərliyi üzərində qazandığı möhtəşəm uğurlardan biri də 2019-cu il oktyabrın 3-də Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında olmuşdu. Dövlət başçımız həmin tədbirdə keçmiş Qarabağ münaqişəsindən söz açaraq, diqqəti Ermənistanın işğalçılıq siyasətinin nəticələrinə yönəltmiş, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi 4 qətnamənin on illərdən bəri yerinə yetirilmədiyini vurğulamışdı.**

Silahlı Qüvvələrimizin Ali Baş Komandanı Ermənistanın baş nazirinin həmin tədbirdən əvvəl "Qarabağ Ermənistandır və nöqtə" bəyanatının yalan olduğunu vurğulayaraq demişdi: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!".

Xatırladaq ki, dövlət başçımızın uğurlu çıxışı və Nikol Paşinyanın biabır olması ilə nəticələnən ( Ermənistan mətbuatı baş nazirin həmin diskussiyaya qatılmasını erməni xalqı üçün rüsvayçılıq adlandırmışdı) 2019-cu il müzakirələri "Şərq şəfəqləri və dünya siyasi quruluşu" mövzusuna həsr olunmuşdu. Görüş iştirakçıları "Yaxın Şərq dünya siyasətinin laboratoriyası", "Dini ekstremizm problemləri və onun siyasətə təsiri", "Böyük Avrasiya geoiqtisadi məkanın təşkilinin yeni forması kimi" və digər mövzular ətrafında fikir mübadiləsi aparmışdılar. Eyni zamanda, ilk dəfə olaraq, dünya energetika bazarında vəziyyət, Rusiyanın İslam dünyası ilə qarşılıqlı münasibətləri diskussiyaların mövzusuna çevrilmişdi.

Bəs Valday Diskussiya Klubu nə deməkdir? Onun müasir dünyadakı rolu nədən ibarətdir? Klubun sessiyalarında kimlər iştirak etmişdir? Bu suallara cavab tapmaq üçün həmin klubun elektron resurslarına baxdım və... fəxr etdim. Çünki klubun diskussiyalarında iştirak etmiş çoxsaylı dövlət başçılarının ad-soyadının sıralanmasında Azərbaycan Prezidentinin adı birinci çəkilir.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun təsisçiliyi ilə yaradılmış bu klubun elektron resurslarında göstərilir ki, ötən illər ərzində dünyanın aparıcı ekspertlərinin görüş yerinə çevrilmiş klub öz tədqiqatlarında qlobal siyasət və iqtisadi proseslərin araşdırılmasına xüsusi yer verir. İndiyədək klubun işinə, təxminən, 85 ölkədən dünya elmi birliyini təmsil edən 1000-dən çox nümayəndə, o cümlədən, Harvard, Kolumbiya, Corctaun, Stenford, Karlton, Sarbonna, London, Qahirə, Tehran, Tokio, Təl-Əviv və digər universitetlərin tanınmış professorları qatılıblar. Bir çox ölkələrin prezidentləri və baş nazirləri "Valday klubu"nun qonağı olublar. Rusiya Prezidenti Vladimir Putin klub yarandığı vaxtdan hər il diskussiyaların iştirakçıları ilə görüşür və ətraflı fikir mübadiləsi aparır.

Qeyd edək ki, bu klub iyirmi il bundan əvvəl – 2004-cü ildə Rusiyanın Velikiy Novqorod şəhərində – Vladimir Putinin Valday gölünün yaxınlığında, meşəlik ərazidəki iqamətgahında yaradılıb. Sonradan klubun tədbirləri müxtəlif şəhərlərdə, daha çox isə Soçi şəhərində keçirilsə də, bütün görüşlər "Valday" müzakirələri adlandırılır.

Валдай | Международный дискуссионный клуб

Bu klub beynəlxalq ekspertlər ordusu tərəfindən Asiya, Yaxın Şərq, Rusiya–Çin və Avroatlantik mövzularının müzakirə edildiyi "Valday konfransı" kimi də qəbul edilir. Klubun bəzi sessiyaları Peterburq Beynəlxalq İqtisadi Forumunda və Vladivostok Şərq İqtisadi Forumunda müzakirəyə çıxarılır.

Son illər isə bu müzakirələrə dünyanın aparıcı siyasətçiləri, dövlət və hökumət başçıları da qatılırlar. Həmin siyasətçilər arasında Azərbaycan Prezidenti İlham Əliyevin, İordaniya Haşimilər Krallığının kralı İkinci Abdullah ibn Əl-Hüseyn, Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev, Filippin Prezidenti Rodriqo Duterte, Əfqanıstan Prezidenti Həmid Karzay, Finlandiya Prezidenti Tarya Hallonen, İranın İslami Məşvərət Şurasının sədri Əli Laricani, Avstriya Prezidenti Haynts Fişer, CAR Prezidenti Tabo Mbeki, Çexiya Prezidenti Vatslav Klaus, Fransanın sabiq baş nazirləri Fransua Fiyon və Dominik de Vilpen, İtaliyanın Baş naziri Romano Prodi, Ümumçin Xalq Təmsilçiləri Məclisinin sədri Fu İn, Monqolustan Xarici işlər naziri Tsoqbaatar Damdin, İsrail Müdafiə naziri Moşe Yaalon, Almaniyanın Müdafiə naziri Folker Ryue... və onlarca digər siyasətçi, dövlət və hökumət təmsilçilərinin adları var.

Mən siyahını bilərəkdən uzadırdım ki, görək Nikol Paşinyanın adını da görəcəyəmmi? Amma yoxdur. Maraqlıdır. Nəyə görə yoxdur? Axı o, "Valday"da ən çox zərərdidə olan şəxs idi. Həm də Paşinyanın Rusiyaya dirsək göstərməsi son bir neçə ilin "faktıdır". Onun "Valday"dakı "məşhur" çıxışından isə beş il ötür. Əlavə edim ki, siyahıda adı çəkilənlərin yarıdan çoxu sabiq prezident və ya baş nazirlərdir. Onların adı qeyd olunsa da, bu gün hələ də "Ermənistanı ağ günə çıxarmağa çalışan" baş nazirin adı gözə dəymədi.

Daha bir əlavə edim ki, bu siyahını nəinki mən tərtib etməmişəm, hətta onun hazırlanmasında Azərbaycanın və ya Rusiyanın heç bir jurnalisti iştirak etməyib, sadəcə klubun məsullarının hesabatı bu şəkildədir (https://ru.valdaiclub.com/).

Sonda bildirək ki, dünyanın ən iri "beyin mərkəzləri"nin reytinqində ilk yerləri ABŞ-nin Brukinqs İnstitutu, Fransa Beynəlxalq Münasibətlər İnstitutu və ABŞ-nin Karnegi Fondu tutur. Azərbaycan analitik mərkəzləri arasında doqquz il əvvəl yaradılan "Baku International Policy and Security Network" mərkəzi də son illər aparıcı analitik mərkəzlərin ümumdünya indeks-reytinqinə daxil edilib. Bu indeks-reytinq hər il ABŞ-nin Pensilvaniya Universitetinin nəzdində fəaliyyət göstərən Loder İnstitutu tərəfindən dərc olunur.

***İ.MƏMMƏDCANOĞLU,***
***Əməkdar jurnalist***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 265** **Bakı şəhəri, 20 may 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı ilə təsdiq edilmiş "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 253 (Cild I) ilə təsdiq edilmiş "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı" aşağıdakı redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Ceyhun Bayramovun İtaliya və Ukrayna səfirləri ilə görüşü



**Mayın 21-də Xarici İşlər naziri Ceyhun Bayramov İtaliyanın ölkəmizdə yeni təyin olunmuş səfiri Luka Di Canfrançesko ilə görüşüb.**

Görüşdə iki ölkə arasında çoxölçülü strateji tərəfdaşlıq münasibətlərindən irəli gələn məsələlər, habelə cari regional vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

İtaliya şirkətlərinin yenidənqurma səylərinə töhfəsi məmnunluqla qeyd edilib. Ölkəmizdə mina təhdidi məsələsi diqqətə çatdırılıb, minasızlaşdırma fəaliyyəti sahəsində əməkdaşlıq imkanları dəyərləndirilib.

Ölkəmizdə səfir təyin olunmasından məmnun olduğunu bildirən Luka Di Canfrançesko fəaliyyəti müddətində mövcud çoxölçülü strateji tərəfdaşlıq münasibətlərinin inkişafı istiqamətində çalışacağını qeyd edib.

***

Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Ukraynanın ölkəmizə yeni təyin olunmuş səfiri Yuriy Husyev ilə də görüşüb.

Tərəflər iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, humanitar və sair istiqamətlərdə inkişafından məmnun olduqlarını qeyd ediblər.

Səfir Yuriy Husyev Azərbaycanın Ukraynanın ərazi bütövlüyü və suverenliyinə göstərdiyi daimi dəstəyə, o cümlədən, Ukraynaya humanitar yardımlara görə təşəkkür edib.

# Çin Azərbaycanın Orta Dəhlizdə roluna önəm verir

**Çində səfərdə olan "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov "Çin Dəmir Yolları" dövlət korporasiya şirkətinin sədri cənab Liu Jenfanq ilə görüşüb.**



Söhbət zamanı ADY nümayəndə heyəti Orta Dəhlizin inkişafı istiqamətində Azərbaycan tərəfinin həyata keçirdiyi layihələr, yeni reallıqlar və imkanlar barədə geniş təqdimatla çıxış edib. Təqdimatda ADY-nin cari ilin dörd ayı ərzində Orta Dəhlizlə yük daşımalarının həcminin 2023-cü illə müqayisədə 35 faiz artdığı, Çinin Sian limanından bu dəhlizlə, ümumilikdə, 60 blok qatarın yola salındığı, eləcə də Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə yük daşımaların bərpa edildiyi və onun yükburaxma qabiliyyətinin artıq illik 5 milyon tona çatdırılması barədə məlumat verilib.

Tərəflər Orta Dəhlizin rəqabət və yükdaşıma qabiliyyətini artırmaq üçün Çin tərəfinin dəmir yolu ilə tranzit daşımaların və Azərbaycan ərazisindən keçən tranzit marşrutu üzrə daşımaların subsidiyalaşdırılması haqqında fikir mübadiləsi aparıb. ADY-nin Qərb–Şərq istiqamətində Türkiyə və Azərbaycandan Çinə qayıdan yük axınının formalaşdırılmasına kömək etməyə hazır olduğunu bildirilib.

# Azərbaycan–Özbəkistan Regionlararası Forumu




**Mayın 21-də Qubada təşkil edilən II Azərbaycan–Özbəkistan Regionlararası Forumunda ölkələrimizin bölgələrinin iqtisadi potensialı və tərəfdaşlığın inkişaf etdirilməsi imkanları müzakirə olunub, ikitərəfli sənədlər imzalanıb.**

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov vurğulayıb ki, dövlət başçılarının siyasi iradəsi və birgə səyləri ölkələr arasındakı strateji tərəfdaşlıq əlaqələrinin təməlini təşkil edir. Özbəkistanla qarşılıqlı münasibətlərdə iqtisadi-ticarət əməkdaşlığı mühüm rol oynayır. İnvestisiya üzrə işbirliyi inkişaf edir. Nizamnamə kapitalı 500 milyon dollar olan Azərbaycan–Özbəkistan İnvestisiya Şirkətinin fəaliyyəti hər iki dövlətdə, eləcə də üçüncü ölkələrdə investisiya layihələrinin gerçəkləşdirilməsinə hesablanıb. İşğaldan azad olunmuş ərazidə qardaş ölkənin sərmayəsi ilə tekstil müəssisəsinin qurulması və ilkin mərhələdə 400-dən çox iş yerinin yaradılması hədəflənir. Bundan əlavə, sənayenin bir sıra istiqamətləri, eləcə də nəqliyyat-logistika üzrə işbirliyinin möhkəmləndirilməsi üçün münbit şərait var.

Özbəkistanın investisiya, sənaye və ticarət naziri Laziz Kudratov yüksək səviyyəli Azərbaycan–Özbəkistan münasibətlərinə, ölkəsinin Azərbaycanla iqtisadi-ticarət əməkdaşlığının güclənməsinə önəm verdiyini vurğulayıb.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, ölkəmizin işgüzar mühiti, investisiya imkanları, Özbəkistanla nəzərdə tutulan əməkdaşlıq tədbirləri, işgüzar dairələr üçün potensial birgə fəaliyyət istiqamətləri barədə çıxış ediblər.

Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Daşkənd şəhəri hakiminin müavini Zafarxuja Tursunov, Buxara vilayəti hakiminin müavini Rizo Asadov, Sırdərya vilayəti hakiminin müavini Şoxrux İsakulov təmsil etdikləri inzibati ərazi vahidlərinin iqtisadi potensialı, həyata keçirilən layihələr barədə məlumat verib, əməkdaşlıq perspektivləri barədə fikirlərini bölüşüblər.

Forumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfərinin iqtisadi hissəsinin hazırlanmasına dair Yol Xəritəsi, həmçinin Azərbaycan və Özbəkistan arasında Füzuli və Gülüstan, Biləsuvar və Termez, Mingəçevir və Namanqan şəhərlərinin qardaşlaşması barədə sazişlər imzalanıb.

Tədbir çərçivəsində "B2B" formatda görüşlər keçirilib.

Forum zamanı Özbəkistan–Azərbaycan İşgüzar Şurasının 4-cü iclası da olub. Tədbirdə əvvəlki iclaslar zamanı müəyyənləşdirilmiş tapşırıqlar üzrə görülmüş işlər, eləcə də iki ölkənin işgüzar dairələri arasında əlaqələrin gücləndirilməsi imkanları dəyərləndirilib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın investisiya, sənaye və ticarət naziri Laziz Kudratov Xaçmazda yerləşən Qafqaz Konserv Zavodunun və "Azərxalça"nın Şabrandakı emalatxanasının fəaliyyəti ilə tanış olublar.

**Replika**

# "No komment", Simonyan!

**Elə personalar var ki, onların danışmasından susması daha faydalıdır. Həm özü, həm də təmsil etdiyi qrup, partiya, hətta yüksək vəzifə tutduğu dövlət üçün. Ermənistan parlamentinin sədri Alen Simonyan yenə öz ampluasına uyğun şəkildə davranır. İctimaiyyət dəfələrlə onun tutduğu vəzifəsinə və diplomatik ranqına uyğun olmayan hərəkətlərinin şahidi olub, diletant və gülünc açıqlamalarını eşidib. Parlamentin iclaslarında tez-tez deputatları təhqir edən, küçədə müxalifətçinin üzünə tüpürən Simonyan bir gün sonra xarici telekanala müsahibəsində Ermənistanın "Qafqazın ən demokratik ölkəsi" olduğunu bəyan edir. İkinci Qarabağ müharibəsinin gedişində biz də erməni spikerin boğazdan yuxarı çox sözlərindən "agah olmuşuq".**



Bir müddət bundan əvvəl erməni mediası spiker Alen Simonyanla təhlükəsizlik şurasının katibi Armen Qriqoryan arasında pərdəarxası mübarizənin getdiyi barədə xəbərləri tirajlayırdı. Mübarizə açıq hücumlar və korrupsiya ittihamları səviyyəsinə çatanda Simonyan baş nazirə Qriqoryanın fəaliyyəti barədə "donos" çatdırıbmış. Paşinyan da öz növbəsində, spikerin yadına ailə üzvlərinin "Synergy" şirkətinin tender satınalmasında iştirakını salıb. Bundan sonra qardaşının həyat yoldaşının həbsinə səbəb olan korrupsiya qalmaqalı ilə bağlı medianın sualını şərh etməməsi spikeri əməlli-başlı qınaq obyektinə çevirmişdi.

Yayılan xəbərlərdə deyilirdi ki, hakim partiyanın bəzi üzvləri Paşinyandan Simonyanın istefasını tələb ediblər. Yəni, onlar hesab edirlər ki, Alen Simonyanın adı ilə bağlı "çoxseriyalı" qalmaqallar partiyanın nüfuzuna və reytinqinə mənfi təsir göstərir.

Dünən isə Ermənistan parlamentində jurnalistlərlə söhbətində spiker Alen Simonyana "Azərbaycan Prezidenti İlham Əliyevin "bu gün bizim bir tələbimizlə Ermənistan Qazaxın dörd kəndini qaytardı. Bundan sonra da belə olacaq" bəyanatını necə şərh edərdiniz?" – sualı ünvanlanıb. O, suala "Mən Azərbaycan Prezidentinin sözlərinə münasibət bildirmək istəmirəm" formasında cavab verib. Amma sualdan yayınmağın mümkün olmadığını görən Simonyan Azərbaycan Prezidentinin bəyanatının daxili auditoriya üçün nəzərdə tutulduğunu ərz edib. Erməni spiker sualın ətrafında "dolanmağa" başlayıb: "Görüşlər zamanı biz bu məsələni qaldırırıq. Danışıqlarda bir lüğətdən, ictimai yerlərdə isə başqa sözdən istifadə edilməsi bizim üçün həmişə təəccüblü və qəbuledilməzdir. Mən özümü misal çəkə bilərəm: azərbaycanlı həmkarımla danışıqlar aparanda qarşı tərəfdə belə təəssürat yaranır ki, bu, çoxdan gözlənilən, çox mehriban görüşdür. Ona görə biz deyirik ki, nifrət sözünü azaltmaq lazımdır, radikal siyasi ritorika aradan qaldırılmalıdır. Çünki bu, real danışıqlara mane olur".

Maraqlı paradoksdur. Xalqını qonşularına qarşı nifrət ideologiyasına kökləyən, "məğlubedilməz" ordusunun müharibə başlayarsa, Azərbaycanın yeni ərazilərini işğal etməklə "xariqələr" yaratmağa qadir olmasından dəm vuran Ermənistan hakimiyyəti indi bizi müharibə ritorikasından çəkinməyə çağırır. Bəs, 30 il ərzində Bakının sülh çağırışlarını qulaqardına vuran, münaqişənin dinc yolla həllindən imtina edən İrəvanın keçmiş və indiki isteblişmentinin dikbaş, saymazyana davranışını, hərbi hədə-qorxularını kimin ayağına yazaq? Bunları şərh etməyə Alen Simonyanın sözü və arqumenti varmı? Yoxdur! Ona görə də onun üçün həm şəxsi problemləri, həm də dövlət işləri ilə bağlı tutacağı ən doğru mövqe "no komment"dir. Bir də ki, Bakı sülhlə bağlı bütün zəruri təklif və şərhlərini Ermənistan hakimiyyətinə çatdırıb. İndi onun vəzifəsi eşitdiklərinə şərh vermək yox, onlara şərhsiz və şərtsiz əməl etməkdir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Oskanyan yenə xərifləyir

## Keçmiş XİN rəhbəri Azərbaycanla sülhə qarşı

**Ermənistanın sabiq xarici işlər naziri, qocaldıqca ağlını da itirən Vardan Oskanyan xərifləyir. Qeyd edək ki, o, "Vətən naminə Tavuş" hərəkatı adlı növbəti erməni avantürası start götürəndə də dilə gəlmişdi. Demişdi ki, hərəkatın rəhbəri arxiyepiskop Baqrat Qalstanyanı baş nazir postunda görür. Dünyəvi adlandırılan dövlətdə mühüm vəzifə tutan biri olasan, axırda deyəsən ki, keşişin ölkə rəhbəri olmasına razıyam. Göründüyü kimi, Oskanyanın dövlət anlayışından xəbəri yoxdur.**



Oskanyan yarımçıq bildiyi diplomatiyanı yenidən işə salaraq deyib ki, hazırda Azərbaycanla Ermənistan arasındakı sülh gündəmi qarşılıqlı əsasda deyil və Ermənistanı alçaltmaq məramına söykənib. Əlbəttə, Ermənistanda bu fikirdə olanların sayı az deyil. Belələri reallıq hissini itirmiş zombilərdir. Bəs nəyə görə Oskanyanın dediklərinə diqqət yetirilməlidir?

Bu zat uzun müddət ölkənin xarici siyasətinə rəhbərlik edib. Yəni, haqqında söz açdığı qeyri-bərabər mühitin formalaşmasında təqsiri böyükdür. Baş nazir Nikol Paşinyan heç də əbəs yerə ölkəyə özündən əvvəl rəhbərlik edənləri qınamaq yolu tutmur. O, nə dediyinin fərqindədir. Paşinyan yaxşı bilir ki, ekslərin illərdir daşıdığı Qarabağ avantürası yekunda 44 günlük müharibə reallığını yaratdı. Doğrudur, "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verən Nikol idi. Yəni, bilavasitə müharibəyə səbəb onun bu yöndə populustcəsinə dillənməsidir. Ancaq Paşinyanın rəhbərlik etdiyi cəmiyyət xəstədirsə, bu adam üçün başqa yol qalmırdı. Nikolun prizmasından yanaşsaq, xəstələrə həqiqəti göstərməyə ehtiyac duyulurdu və baş nazir bunu etdi…

Məsələ burasındadır ki, həmin xəstə cəmiyyət 44 günlük müharibədəki acınacaqlı durumdan nəticə çıxarmadı. Bu gün də revanşist-şovinistlər önə çıxır, ağzıköpüklü bəyanatlar səsləndirirlər. V.Oskanyan onlardan biridir. O deyir ki, Azərbaycanla sülh gündəmi çərçivəsində yaşananlar Ermənistanın ərazi bütövlüyünün, ölkə konstitusiyasının açıq-aşkar pozulmasıdır. Digər yandan isə keçmiş nazir demokratiyadan danışaraq vurğulayır ki, ölkədə baş verənlər Ermənistanın kövrək demokratiyasının tamamilə məhvidir və bu proses də ağrılıdır. Təsəvvür edin, illərlə Ermənistanı çapıb-talamış, hər cür qanunsuzluq, ədalətsiz edən rejimdə məsul vəzifə tutmuş şəxs indi arsız-arsız demokratiyadan, ərazi bütövlüyünün pozulması xüsusunda konstitusiyanın aliliyinə hörmətdən söz açır.

"Bu, qarşılıqlı razılıq əsasında delimitasiya prosesi deyil. Bu, sadəcə olaraq, müharibə və işğal təhlükəsi altında olan Ermənistanın Azərbaycanın tələblərinə tabe olmasıdır. Təslim olma prosesi yeni başlayır və sonda Ermənistan ərazilərinin, strateji mövqelərinin və nəqliyyat marşrutlarının xeyli hissəsini itirəcək. Hazırkı şərtlərlə sülh müqaviləsinin imzalanması Ermənistanın daimi şəkildə Azərbaycana tabe olmasına gətirib çıxaracaq ki, bu da ölkəni strateji dəyərdən məhrum duruma salacaq və onu total avtoritar polis dövlətinə çevrilmək yoluna sürükləyəcək", – deyən Oskanyanın həyasızlığı heyrət doğurmaya bilməz. Ancaq keçmiş nazirin sərsəmləmələri yalnız bununla bitmir.

V.Oskanyan bildirir ki, Ermənistan indiki durumla razılaşaraq real danışıqlar aparmır, təzyiq altında təslim olur. Bu, məcburiyyət və hərbi təhdidlərin suverenlik və öz müqəddəratını təyinetmə prinsiplərini sarsıdan şərtləri diktə etdiyi təhlükəli presedent yaradır. Kritik ərazilərin potensial itkisi Ermənistanın müdafiə qabiliyyətini zəiflətməklə yanaşı, həm də onun iqtisadi və logistik sabitliyini, milli təhlükəsizliyini daha da təhlükə altına salır. Üstəlik, Azərbaycanla sülh razılaşmasınnın ölkədaxili nəticələri də ağır olacaq. Suverenliyin azalması və daxili təzyiqin artması ilə Ermənistan avtoritar idarəçiliyin davamlı yüksəlişi ilə üzləşir. Çünki dövlət daxili narazılığı idarə etmək üçün hakimiyyətə nəzarət və demokratik proseslərin ələ keçirilməsinə üstünlük verir: "44 günlük müharibənin bitməsindən bəri avtoritar polis dövlətinə doğru keçid artıq vətəndaş azadlıqlarını sarsıdıb, siyasi müxalifəti sıxışdırıb və hakimiyyəti ayrı-ayrı şəxslərin əlində cəmləyib, milləti gələcək inkişafa həsrət qoyub".

Bəli, Oskanyanın dedikləri indiki Ermənistanın acı mənzərəsidir. Başlıca məsələ bu mənzərə haqqında onun kimi bivecin danışmasıdır. İsa Peyğəmbərlə (ə.) bağlı məşhur hadisədə deyildiyi kimi, daşı günahı olmayan atsın. Oskanyan günahkardır, özü də lap yekəsindən. Onun ölkə adına söz deməsi yolverilməzdir. Həm də ona görə ki, bu iyrənc məxluq siyasi oyunların içərisindədir. O, Ermənistandakı revanşist-şovinist kəsimin ən "parlaq" nümayəndəsi obrazındadır. Acınacaqlı durum budur ki, Oskanyan və onun kimi potensial cinayətkarlar azadlıqdadırlar və hansısa formada ictimai rəyi manipulyasiya edirlər. Ən pisi isə belələrinin qaldırdıqları vay-şivən ritorikasının Cənubi Qafqazda çoxdandır gözlənilən sülh mühitinin formalaşmasına əngəl törətməsi, bu coğrafiyadakı xalqların dinc və birgəyaşamına maneçilik yaratmasıdır. Daha bir məqam isə odur ki, V.Oskanyan və onun kimilər bölgədə sabitliyi pozmaq istəyənlərin dirijor çubuğu ilə hərəkətə gəlirlər.

***R.ƏVƏZ***
***XQ***

# Türk dövlətlərinin ortaq investisiya qaynağı

## Birlik ölkələrinin iqtisadiyyatı bu il 1,9 trilyon dollara çatacaq

**Türk dövlətlərinin cari ilin sonuna qədər 1,9 trilyon dollarlıq iqtisadi böyüməsi və 178 milyon əhali sayına çatması ilə dünya iqtisadiyyatında mühüm yer qazanacağı gözlənilir. Türk İnvestisiya Fondunun (TİF) yaradılmasında ən böyük məqsəd isə türkdilli dövlətlər arasında iqtisadi-ticari əlaqələrin inkişafını təmin etməkdir.**



Türkiyənin xəzinə və maliyyə naziri Mehmet Şimşek bu barədə fondun İstanbulda keçirilən açılış mərasimində bildirib. Nazir, eyni zamanda, TİF-in nizamnamə kapitalının 500 milyon dollar olduğunu vurğulayıb.

“Bu maliyyə qurumu həm dövlət, həm də özəl sektora investisiya qoyuluşunu sürətləndirəcək, eləcə də kiçik və orta biznesin inkişafı, bərpaolunan enerji, kənd təsərrüfatı, turizm kimi bir çox sahələrdə sərmayə yatırımında mühüm rol oynayacaq, davamlı iqtisadi inkişafa töhfə verəcək”, – deyə M.Şimşek qeyd edib.

Fondun yüksək standarta cavab verən beynəlxalq maliyyə təşkilatı olmasının hədəfləndiyini vurğulayan türkiyəli nazir qurumun strukturu, qərar qəbuletmə mexanizmləri, insan resursları, risklərin idarə edilməsi, monitorinq və audit funksiyaları ilə beynəlxalq təcrübəyə uyğun fəaliyyət göstərəcəyini deyib.

M.Şimşek tədbir çərçivəsində sözügedən maliyyə qurumu ilə bağlı sazişin imzalanacağını da bildirərək Macarıstanın Türk İnvestisiya Fonduna üzv olmaq istəyinin məmnuniyyətlə qarşılandığını diqqətə çatdırıb və fondun fəaliyyətə başladığı zaman bu ölkənin üzvlük prosesinin yekunlaşdırılmasının da gündəmdə olacağını deyib.

Tədbirdə çıxış edən TİF-in prezidenti Bağdad Amreyev bu maliyyə qurumunu ölkələr arasında iqtisadi münasibətləri, əlaqələri və davamlı inkişafı təşviq etmək baxışı kimi qiymətləndirib. Fondun etimad, əməkdaşlıq və ortaq rifaha əsaslanan daha parlaq gələcəyə doğru birgə çalışmaq əzmində olduğuna diqqət çəkən B.Amreyev onun inkişaf layihələrini maliyyələşdirməklə yanaşı, investisiyaların cəlb edilməsində təsirli bir vasitə olacağını əminliklə vurğulayıb.

TİF-in Prezident İlham Əliyevin 27 aprel 2024-cü il tarixli sərəncamı ilə “Türk İnvestisiya Fondunun yaradılması haqqında” Sazişin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli Qanununa uyğun olaraq qurumun Rəhbərlər Şurasında ölkəmizdən Rəhbər iqtisadiyyat naziri, alternativ Rəhbər isə maliyyə naziri təyin edilib və onlara həmin maliyyə təşkilatında respublikamızı təmsil etmək səlahiyyəti verilib.

Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində yaradılan TİF türk dövlətlərinin əməkdaşlığının, birliyinin, qardaşlığının daha da güclənib inkişaf etməsi, xüsusən də iqtisadi, ticari əlaqələrin, böyük və ortaq infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində çox böyük uğurdur.

Fondun fəaliyyətində regiondaxili ticarətin gücləndirilməsi, iqtisadi layihələrin dəstəklənməsi və TDT-yə üzv ölkələrin iqtisadi inkişafına töhfə verilməsi nəzərdə tutulur.

Azərbaycanın iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev fondun İstanbulda keçirilən açılış mərasimindəki çıxışında ölkəmizin TDT çərçivəsində əməkdaşlığın artırılmasına böyük əhəmiyyət verdiyini, təşkilata üzv ölkələrlə hər sahə üzrə əlaqələrin gücləndirilməsinin respublikamızın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu qeyd edib. Bu, TDT-yə üzv və müşahidəçi statusa malik ölkələrin iqtisadi əməkdaşlığının yüksək inkişafını göstərən göstəricilərdə də öz ifadəsini tapıb. Qeyd edək ki, təkcə cari ilin ilk rübündə Azərbaycanın TDT üzv və müşahidəçi statusa malik ölkələrlə ticarət dövriyyəsi 1 milyard 709,1 milyon ABŞ dolları təşkil edib. Bu da ölkəmizin ümumi ticarət dövriyyəsinin 17,6 faizinə bərabər olub.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, həmin dövrdə Azərbaycan Türkiyə ilə 1 milyard 469,1 milyon dollar, Türkmənistanla 96 milyon 926 min dollar, Qazaxıstanla 70 milyon 829 min dollar, Özbəkistanla 35 milyon 814 min dolar, Qırğızıstanla 23 milyon 382 min dollar, Macarıstanla isə 13 milyon dollar məbləğində idxal-ixrac əməliyyatları həyata keçirib.

2024-cü ilin yanvar–mart aylarında Azərbaycandan Türkiyəyə 150 milyon 291 min dollar, Qırğızıstana 20 milyon 815 min dollar, Türkmənistana 16 milyon 861 min dollar, Qazaxıstana isə 11 milyon 731 min dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib.

Xatırladaq ki, TDT 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində keçirilən Zirvə Görüşündə imzalanmış sazişə əsasən, 2012-ci il noyabrın 1-də yaradılıb. İlk vaxtlar təşkilatın adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası olub. 2021-ci ildən isə qurum Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirir. TDT türkdilli ölkələr arasında siyasət, iqtisadiyyat, elm, təhsil, nəqliyyat və turizm sahələrində əməkdaşlığı genişləndirmək məqsədilə yaradılmış dövlətlərarası blokdur. Qurumun üzvləri Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistandır. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası isə təşkilatda müşahidəçi statusuna malikdir. Təşkilatın mənzil-qərargahı Türkiyənin İstanbul şəhərində yerləşir.

TDT fəaliyyət göstərdiyi ötən müddətdə səmərəli inkişaf yolu keçib. Qurum 173 milyona yaxın insanın yaşadığı böyük bir coğrafiyada və qlobal miqyasda güclü təşkilat kimi tanınıb. Qeyd edək ki, Türk dünyası hazırda beynəlxalq münasibətlərin yeni bir güc mərkəzi kimi mühüm önəm daşıyır, ciddi geosiyasi və geoiqtisadi çəkiyə malik olması ilə diqqət çəkir. Bunu statistik göstəricilər də təsdiq edir. Hazırda bu dövlətlərdə ümumi daxili məhsulun (ÜDM) həcmi 1,5 trilyon dollar, ticarət dövriyyəsi isə 1,2 trilyon dollar təşkil edir. Ümumilikdə, dünya ərazisinin 1 faizi, ticarət dövriyyəsinin isə 2,4 faizi TDT-yə üzv ölkələrin payına düşür.

Qeyd edək ki, TDT-nin sıraları təşkilatın fəaliyyəti dövründə əhəmiyyətli dərəcədə möhkəmlənib, quruma üzv dövlətlər arasında ümumi ticarət dövriyyəsinin həcmi 30 milyard dollara yaxınlaşıb. Tərəflər arasında həm qarşılıqlı şəkildə, həm də TDT çərçivəsində ticarət dövriyyəsinin artırılması davamlı şəkildə yaxşılaşıb, əlaqələrin daha da güclənməsi məqsədilə genişmiqyaslı nəqliyyat layihələri reallaşıb.

TDT-nin ötən ilin noyabr ayında Astanada keçirilən 10-cu Zirvə görüşündə dövlətimizin başçısı çıxış edərək bununla bağlı bir sıra məqamlara toxunub. Ölkə rəhbəri bu təşkilata üzv dövlətlər arasında münasibətlərin möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu, artıq beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malik qurum kimi tanındığını diqqətə çatdırıb. Prezident İlham Əliyev daha sonra respublikamızın TDT-nin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoyduğunu və bunun əsas hissəsinin Türkiyəyə yönəldildiyini də qeyd edib.

Azərbaycanla TDT-nin üzv dövlətlər arasında dost münasibətləri ifadə edən bir faktı da xatırlatmaq yerinə düşərdi. Prezident İlham Əliyev Astanada keçirilən toplantıdakı çıxışında Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycanın işğaldan azad olunan ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başlayarkən, bu prosesə Türk dövlətlərinin də maraq göstərdiklərini, Özbəkistan və Qazaxıstan tərəfindən Füzuli şəhərində məktəb və yaradıcılıq mərkəzi inşa edildiyini, eyni zamanda, bunu Azərbaycan, Özbəkistan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürü kimi dəyərləndirib.

***Vaqif BAYRAMOV***
***XQ***



## 4 min yeni kommersiya qurumu

***Cari ilin may ayının 1-nə respublika üzrə uçotda olan 1 milyon 547 min 914 vergiödəyicisinin 87,3 faizi fiziki şəxs, 12,7 faizi hüquqi şəxs və digər təşkilatlar olub.***

Dövlət Vergi Xidmətinin məlumatına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergiödəyicilərin ümumi sayı 7,3 faiz, o cümlədən fiziki şəxslərin sayı 7,3 faiz, hüquqi şəxslərin sayı isə 7,8 faiz artıb. Təhlil aparılan dövrdə vergiödəyicilərin ümumi sayında hüquqi şəxslərin xüsusi çəkisi 12,7 faiz olub. Kommersiya qurumlarının sayı isə 180 min 174 vahid təşkil edib və müqayisə edilən dövr ərzində 8,5 faiz yüksəlib.

2024-cü ilin may ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində aktiv ƏDV ödəyicilərinin sayı 36 min 721 vahid təşkil edərək 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 14,6 faiz artıb. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi isə 31,8 faiz təşkil edib.

## BTQ ilə daşımalara start verildi

***Bu yaxınlarda genişləndirilməsi tamamlanan Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu ilə mayın 20-də yüklərin daşınmasına start verilərək ilk yük qatarı yola salınıb.***



“Azərbaycan Dəmir Yolları” QSC-nin məlumatına görə, Abşeron Logistika Mərkəzindən yola çıxan 20 konteynerdən ibarət yük qatarı Gürcüstan istiqamətində hərəkətə başlayıb.

Qeyd edək ki, bu ayın əvvəlində BTQ dəmir yolunun Gürcüstandan keçən 184 kilometrlik hissəsinin təmir-bərpa, rekonstruksiya və genişləndirmə işləri tamamlanıb. Görülmüş işlər nəticəsində dəmir yolu xəttinin illik yükdaşıma həcmi 1 milyon tondan 5 milyon tona çatdırılıb.

Modernləşdirilmiş BTQ dəmir yolu xətti Çin və Mərkəzi Asiyadan, bütövlükdə isə Asiyadan Qərbə doğru, eləcə də əks istiqamətə göndərilən yüklərin böyük hissəsinin Orta Dəhlizlə Azərbaycandan keçməklə daşınmasına imkan verəcək.

***XQ***

## TAP-la 35 milyard kubmetr qaz nəql edilib

***Dövlət Neft Şirkətinin məlumatına əsasən, Trans–Adriatik Boru Kəməri (TAP) vasitəsilə 2020-ci ilin dekabr ayının 31-dən Avropaya–Yunanıstan, Bolqarıstan, İtaliya, Macarıstan, Rumıniya və Serbiya ölkələrinə ixrac edilən Azərbaycan qazının həcmi 35 milyard kubmetri ötüb.***



Xatırladaq ki, TAP-ın tikintisi 2020-ci ilin oktyabrında başa çatıb. Ümumi uzunluğu 878 kilometr olan kəmərin 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir.

Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükünə 2020-ci il dekabrın 31-dən başlanılıb.

## 3 ildə 243 dövlət standartı

***Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini İlqar Həsənov Milli Metrologiya Forumunda son 3 ildə 243 dövlət standartının qəbul edildiyini bildirib.***



Onun sözlərinə görə, respublikada 2024–2026-cı illər üzrə milli standartlaşdırma çərçivəsi təsdiq edilib. Azərbaycan Metrologiya İnstitutunun kalibrləmə və ölçmə imkanları genişləndirilərək 32-yə çatdırılıb, 12 yeni laboratoriyanın qurulması istiqamətində işlərə başlanılıb.

Bu il bir neçə yeni etalon laboratoriyasının qurulmasına başlanılacağını deyən rəis müavini bildirib ki, 39 mal kateqoriyası laboratoriyasının diaqnostik qiymətləndirilməsi aparılıb. Eyni zamanda, malların risk qruplarının müəyyənləşdirilməsi meyarları təsdiqlənib, malların risk qrupları üzrə təsnifatı reallaşdırılıb və razılaşdırılması məqsədilə dövlət qurumlarına təqdim edilib.

***XQ***

# Azərbaycanın beynəlxalq aqrar sferada nüfuzu artır

**Xəbər verildiyi kimi, İtaliyanın Roma şəhərində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa Regional Konfransının 34-cü sessiyası keçirilib. Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən verilən məlumata görə, tədbirdə 53 ölkədən dövlət qurumları, özəl sektor, beynəlxalq təşkilatların nümayəndələri və aqrar sahədə çalışan mütəxəssislər iştirak ediblər.**



Beynəlxalq tədbirdə ölkəmizi kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Leyla Cabbarlı, Azərbaycanın İtaliya, San Marino və Maltadakı səfiri Rəşad Aslanov təmsil ediblər.

Tədbirdə çıxış edən FAO-nun baş direktoru Qu Donqyu müasir çağırışlara uyğun dayanıqlı kənd təsərrüfatı sisteminin yaradılması və ətraf mühiti qorumaqla məhsuldarlığın artırılması məsələlərinə toxunub. Qeyd olunub ki, qlobal çağırışların təsirləri fonunda Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün daha dayanıqlı aqroərzaq sistemlərinin qurulması və bu istiqamətlərdə qlobal əməkdaşlığın genişləndirilməsi son dərəcə vacibdir. Baş direktor belə tədbirlərin aqrar sahənin inkişafı istiqamətində prioritetlərin müəyyənləşdirilməsi işinə mühüm töhfə verdiyini qeyd edib.

Azərbaycanın kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova çıxışında ölkəmizdə aqrar sahədə həyata keçirilən islahatlardan söz açıb. O, Azərbaycanda aqrar inkişaf strategiyasının əsas istiqamətləri, bu sahədə reallaşdırılan innovativ layihələr barədə məlumat verib. Qlobal iqlim dəyişikliyinin aqrar sahəyə təsirindən danışan nazir müavini müasir çağırışlar fonunda torpaq və su ehtiyatlarından səmərəli istifadənin zəruriliyini diqqətə çatdırıb. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsinin əhəmiyyətindən bəhs edən İ. Qədimova iqlim dəyişikliyinin kənd təsərrüfatı sahəsinə təsirinin minimuma endirilməsi məqsədilə ölkəmizdə görülən işlər barədə iştirakçılara məlumat verib.

Tədbirdə təbii ehtiyatların davamlı istifadəsində innovasiya və rəqəmsallaşmanın rolu xüsusi müzakirə olunub. Mütəxəssislər qlobal iqlim dəyişikliklərinin su mənbələrinə təsirinin idarə edilməsi üçün su ehtiyatlarının sektorlar üzrə bölüşdürülməsi və dəqiq uçotunun aparılmasının, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsinin aktual olduğunu vurğulayıblar.

Sessiyada, həmçinin əhalinin sürətli artımı, dəyişən istehlak tələbləri, iqlim dəyişikliyi və təbii ehtiyatların tükənməsi fonunda dünyada ərzaq və qida təhlükəsizliyinin təmin olunması ətrafında fikir mübadiləsi aparılıb. Tədbir iştirakçıları ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün kənd təsərrüfatının rəqəmsal transformasiyası, bu sahədə texnologiya transferi, qabaqcıl təcrübələrin bölüşülməsi sahələrində əməkdaşlığın zəruri olduğunu diqqətə çatdırıblar.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Dünya Ərzaq Təhlükəsizliyi Komitəsinin (CFS) sədri Nosipho Jezile ilə görüş keçirilib. Görüşdə aqrar sahədə qabaqcıl təcrübələrin ölkəmizdə tətbiqi, əməkdaşlıq perspektivləri müzakirə olunub, qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, BMT-nin ixtisalaşmış qurumu olan Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı 1945-ci ildə yaradılıb. FAO dünya əhalisinin kənd təsərrüfatı məhsulları ilə təminatını yaxşılaşdırmaq məqsədilə fərdi və kollektiv fəaliyyətlər aparmaq və həmçinin kənd təsərrüfatının inkişafı məsələləri üzrə hökumətlərarası təşkilatların işlərini əlaqələndirir. Hazırda dünyanın 191 ölkəsində fəaliyyət göstərən qurumun 130-dan çox nümayəndəliyi var.

Azərbaycan 1995-ci il oktyabrın 20-də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatına üzv olub. FAO Azərbaycanda milli, regional və qlobal səciyyəli layihələr həyata keçirir. Həmin layihələr, əsasən, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, potensialın artırılması, resursların idarə edilməsi, heyvan və bitki xəstəliklərinə qarşı mübarizə, təchizat və digər müvafiq sahələrdə texniki yardımları nəzərdə tutur.

Qurumun layihələri Azərbaycan hökumətinin prioritetləşdirilmiş ehtiyaclarına dair müraciətlərinə uyğun olaraq texniki əməkdaşlıq proqramlarına əsaslanır. 2009-cu ildən etibarən FAO kənd təsərrüfatının inkişafı sahəsində ölkəmizə yardım proqramının hazırlanması prosesinə başlayıb. Bu məqsədlə Azərbaycan üçün 2016–2020-ci illər üzrə FAO-nun Milli Orta-müddətli Prioritetlər üzrə Çərçivə Sənədi hazırlanıb. Hazırda həmin sənəd Azərbaycanın prioritetlərinə uyğun olaraq müntəzəm surətdə yenilənməkdədir. Sözügedən sənəd hökumətin mövcud milli siyasəti və planları çərçivəsində kənd təsərrüfatı üzrə inkişaf prioritetlərinin həyata keçirilməsində FAO-nun ölkəmizə müvafiq sahələrdə və müəyyən olmuş səviyyədə xidmətlər göstərməsini nəzərdə tutur. Sənəd ölkədəki vəziyyətin qısa təhlili və növbəti 3–4 il müddətində FAO-nun yardımı üçün prioritet tədbirlərdən ibarətdir.

Yeri gəlmişkən, FAO təşkilatına üzv olduğu müddətdə Azərbaycan hökuməti kənd təsərrüfatında məhsuldarlığın artırılması məqsədilə müxtəlif inkişaf və fövqəladə hallara hazırlıq layihələrinin icrası, habelə kənd təsərrüfatında islahatların aparılması və sürətləndirilməsi, ölkədə ərzaq təhlükəsizliyi ilə bağlı bir çox çətinliklərin müsbət həlli üçün qurumdan dəstək alıb. FAO-nun əsas məqsədi Azərbaycanda qida məhsullarının və tullantıların idarə olunması sahəsində layihələrə dəstəyə yönəlib. Ötən müddətdə tərəflər aqrar sahədə 60-dan yuxarı layihə reallaşdırıb, xüsusən də ölkənin bölgələrində kənd təsərrüfatı mühiti, o cümlədən, qida təhlükəsizliyi yaxşılaşdırılıb.

Hazırda isə FAO tərəfindən Azərbaycanda 21 layihə həyata keçirilir. Ölkəmizdə kənd təsərrüfatının mühüm sahələrindən sayılan heyvandarlığın və balıqçılıığın inkişaf etdirilməsi, fındıqçılıq sahəsində səmərəliliyin və dayanıqlılığın sürətləndirilməsi, milli qida təhlükəsizliyi sistemlərinin və regional əməkdaşlığın təkmilləşdirilməsi, pestisidlərin dövriyyəsinin idarə edilməsi və davamlı üzvi çirkləndiricilərə aid edilən pestisidlərin zərərsizləşdirilməsi, kənd təsərrüfatının davamlı inkişafı naminə aqrar sahədə su ehtiyatlarının idarə edilməsinin təkmilləşdirilməsi və digər layihələr bu baxımdan maraq doğurur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Türk-erməni münasibətlərində tarixi gerçəklər

**III YAZI**

Bu gün Ermənistan–Azərbaycan danışıqları ilə paralel olaraq Türkiyə ilə Ermənistan arasında diplomatik əlaqələrin qurulması və Türkiyə–Ermənistan sərhədlərinin açılması da gündəmdədir. Bunların bir-biri ilə təbii bağlılığı var. Türkiyənin Ermənistanla münasibətlərini normallaşdırması Ermənistan– Azərbaycan sülh danışıqlarının nəticəsindən asılı olacaqdır.

İkitərəfli əlaqələrlə yanaşı, Türkiyə Prezidenti R.T.Ərdoğanın təklif etdiyi "3+3" formatı da region dövlətlərinin bir araya gəlməsi və problemləri həll etməsi üçün yaxşı format kimi müzakirə edilməkdədir. Rusiya, Türkiyə, İran, Azərbaycan, Ermənistan və Gürcüstanın da daxil olacağı bu format bəzi problemlərə görə hələlik layihə olaraq qalır. Artıq Türkiyə ilə Ermənistan arasında ikitərəfli münasibətlərin normallaşdırılması üçün xüsusi nümayəndələr (Türkiyədən diplomat Serdar Kılıç, Ermənistandan Milli Məclisin vitse-prezidenti Ruben Rubinyan) təyin edilib.

Diplomatlar bir neçə dəfə bir araya gəliblər. Bəzi addımlar atılıb. Ermənistanın baş naziri Nikol Paşinyanın 2023-cü il iyunun 3-də keçirilən prezident R.T.Ərdoğanın andiçmə mərasiminə dəvət edilməsi və tədbirdə iştirakı regionda sülh üçün atılan yeni addım sayıla bilərdi. Ermənistanda buna qarşı çıxanlar olsa da, cəmiyyətin böyük bir hissəsi iki ölkə arasında konstruktiv siyasətin aparılmasının tərəfdarıdır. Lakin İrəvan şəhər rəhbərliyinin qərarı ilə "Nemesis" abidəsinin inşa edilməsindən və irqçi şüarların Ermənistan–Türkiyə futbol matçında nümayişindən sonra hava məkanının Türkiyə tərəfindən bağlanması, Osmanlı və Azərbaycan dövlət xadimlərini 1920-ci illərdə sui-qəsd edərək öldürən terrorçuların xatirəsinə ucaldılmış abidənin götürülməsi tələbi münasibətlərin davam etdirilməsini çətinləşirib.

Ümumiyyətlə, erməni xalqı Ermənistan–Türkiyə münasibətlərinin normallaşmasına müsbət baxır. Ermənistanla Türkiyə arasında əlaqələrin qurulmasının faydaları və riskləri bu ölkədə əsas müzakirə mövzusudur. Bir qrup insan düşünür ki, qonşularla münasibət qurmaq həyatı normallaşdıracaq və biznes açmaq imkanı verəcək. Ticarət həcminin artması ilə gəlirlərin də artacağını deyən erməni iqtisadçılar var. Türkiyə mallarının ölkəyə daxil olması iqtisadi inkişafa səbəb olacaq. Sərhədlərin açılması ilə sərhəd ticarət imkanları genişlənəcək. İctimaiyyətin 80 faizi bu cür düşünür. Türkiyəyə düşmən kimi baxan revanşistlərin xalqın əsas hissəsinə təsir etmək imkanları məhduddur.



Onlar sərhədlərin açılması və türk şirkətlərinin Ermənistana daxil olması ilə iqtisadiyyatı zəif olan ərazilərin Türkiyənin nəzarətinə keçəcəyindən narahatdırlar. Bunun müəyyən iqtisadi risklər gətirəcəyini düşünənlər də var, amma onlar çoxluq təşkil etmir. Paşinyan hökumətinin Türkiyə ilə ilkin şərt irəli sürmədən əlaqələr qurmaq üçün siyasi iradəsi var. Bu ondan irəli gəlir ki, Ermənistanın başqa yolu yoxdur və sadə insanlar hər səviyyədə qonşuları ilə normal yaşamaq arzusunu ifadə edirlər.

Bütün bunların fonunda Antalya Diplomatik Forumu çərçivəsində müəyyən "gəlişmələr"in olduğu müşahidə edildi. Forumun əsas müzakirələrindən biri Cənubi Qafqaz regionunda sülh prosesinin gedişi, Ermənistan–Azərbaycan və Ermənistan–Türkiyə arasında aparılan danışıqlar, sülhün təmin edilməsi istiqamətində görülən tədbirlərin başa çatdırılması, qarşıda duran maneələrin aradan qaldırılması idi. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın başçılıq etdiyi nümayəndə heyəti tərkibində Ermənistan–Türkiyə münasibətlərinin normallaşmasına cavabdeh olan səlahiyyətli nümayəndə Ruben Rubinyan da vardı. Erməni diplomatlar Türkiyədən və Azərbaycandan olan həmkarları ilə görüşərək regiondakı vəziyyət, Ermənistan–Azərbaycan və Ermənistan–Türkiyə münasibətlərinin müxtəlif aspektləri ilə bağlı fikirlərini təqdim etdilər.

Ermənistanın sülh sazişlərinə hazır olduğunu göstərən addımlar atması gözlənilirdi. Ermənistanın son vaxtlar Türkiyə ilə münasibətləri normallaşdırmaq üçün heç bir səy göstərmədiyi məlum idi və bunun Azərbaycan–Ermənistan sülh prosesi ilə bağlı olduğu anlaşılırdı. Azərbaycan Ermənistana sülh təkliflərini göndərib və Ermənistan 1991-ci il Müstəqillik Bəyannaməsində Azərbaycana qarşı ərazi bütövlüyü iddialarını, həmçinin bu bəyannamədən sonra eyni iddiaların yer aldığı 1995-ci il Konstitusiyasının, ən azı, preambulasını dəyişdirməlidir. Bundan əlavə, 2020-ci il noyabrın 9-da imzalanmış Üçtərəfli Bəyannamənin 9-cu maddəsinin Azərbaycanın Qərb rayonlarını Naxçıvana birləşdirən yolun və kommunikasiya xəttinin açılması ilə bağlı üzərinə düşən öhdəlikləri yerinə yetirməsi şərt olaraq ortaya çıxır. Ermənistan bu öhdəliyi yerinə yetirməkdən imtina edərsə, davamlı sülhə nail olmaq çətin olacaq. Erməni nümayəndələri həmişəki kimi, müxtəlif bəhanələrlə bu məsələni danışıqlar predmetindən kənara daşımaq istəyirlər. Amma bu, Türkiyə üçün də prioritet məsələdir. Türkiyə öz ərazisində, Azərbaycan isə öz ərazisində quru yolu və dəmir yolu işlərini bitirmək üzrədir, Ermənistan isə öhdəsinə düşəni etmir. Əsas maneə budur

Antalya Forumunda Türkiyənin nümayəndəsi, keçmiş səfir Sərdar Kılıç bir neçə aydır ki, Ermənistanın görüş təklifini rədd etdiyini Rubinyanın üzünə deməli olub. Bu, həm də Ermənistanın sülh danışıqlarını manipulyasiya etməyə çalışdığının göstəricisidir. Ermənistan nümayəndəsi Türkiyənin şərtlərini bəhanə kimi irəli sürür. Təbii ki, şərt kimi heç nə göstərilməyib. Bununla belə, Ermənistan dövlət səviyyəsində "soyqırımı" ideologiyasından, o cümlədən Türkiyənin Şərqi Anadolu torpaqlarına iddiasından əl çəkməli və Ağrı dağının rəmzini gerbindən çıxarmalıdır. Türkiyənin xarici işlər naziri Hakan Fidanın ABŞ-a səfəri zamanı ABŞ Prezidenti Co Baydenin Milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan ilə Ermənistan–Türkiyə münasibətlərinin normallaşdırılması məsələsi müzakirə olunub. Türkiyənin dəyişməz mövqeyi bir daha xatırladılıb. Bildirilib ki, Türkiyə Ermənistanla diplomatik əlaqələr qurmağa və sərhədləri açmağa hazırdır.

Hakan Fidan 2023-cü ilin sonunda həmkarı Ceyhun Bayramovla Bakıda keçirdiyi mətbuat konfransında demişdi: "Əvvəl də qeyd etdiyim kimi, Ermənistanla normallaşmaya heç bir maneə görmürük. Biz sülh sazişinin Azərbaycanla imzalanacağını gözləyirik. Daha sonra bir çox texniki və bəzi siyasi məsələlər var. Bunlar həlli mümkün olmayan problemlər deyil".

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Türkiyənin "TRT World" televiziyasına müsahibəsində deyib ki, prosesin yenidən başlaması üçün nümayəndələrin tezliklə bir araya gələcəyinə ümid edirlər. Onlar hesab edirlər ki, İrəvanda Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşmasının yeni mərhələsi başlayıb. Hakimiyyət nümayəndələrinin Ermənistanın Türkiyəyə münasibətini düzəltmək cəhdləri və erməni toplumunun Türkiyəyə qarşı düşmənçilik siyasətinin olmaması bu ehtimalı gücləndirir.

Sərhədin üçüncü ölkə vətəndaşları və diplomatik pasport sahibləri üçün açılması ilə bağlı əldə edilmiş razılaşmaya baxmayaraq, Ermənistan–Türkiyə sərhədi bağlı olaraq qalır və bu indiki halda qarşılıqlı etimada zərbə vurur. 2023-cü ilin yazında üçüncü ölkə vətəndaşlarına sərhədlərin açılmasına gəlincə, Kılıç Ermənistan nümayəndəsinə zamanı gələndə sərhədi hamının üzünə açmaq istədiklərini bildirib. Bu o deməkdir ki, üçüncü ölkə vətəndaşlarına sərhədlərin açılması elə də böyük məsələ deyil. Üçüncü ölkə vətəndaşlarına açılan quru sərhədinin Ermənistan və Türkiyədəki diplomatik pasport sahibləri üçün də keçərli olacağı anlaşılır. Xüsusi nümayəndələr arasında danışıqların bu şəkildə davam edəcəyini söyləmək mümkündür. Mirzoyanın tarixi "Ani körpüsü"nün bərpası, sərhədyanı ərazilərdə infrastruktur və yolların çəkilməsi ilə bağlı bəzi razılıqların əldə olunduğunu deməsi də yaxın vaxtlarda sərhədlərin açıla biləcəyi ehtimalını gücləndirir.

Ermənistan sərhədlərin tez bir zamanda açılmasını hər platformada qeyd edir. Digər tərəfdən, həm Fransa, həm də digər Qərb dövlətləri ilə Ermənistanın yaxınlaşması, özünə müttəfiqlər axtarması yeni dövrdə münasibətlər prosesinə mənfi təsir göstərir. Ermənistanda bu yaxınlarda keçirilən sorğuda Fransa, İran və ABŞ-ın bu ölkənin ən mühüm təhlükəsizlik tərəfdaşları kimi önə çıxması mühüm göstəricidir. Ona görə də qeyd etmək lazımdır ki, bu oxun yerdəyişməsi Rusiya tərəfindən yaxından izlənilir. Nəhayət, İrəvanın lazım gələrsə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxa biləcəkləri barədə bəyanatı və rus əsgərlərinin Zvartnots hava limanını tərk etmələri barədə açıqlamaları da gərginliyin artmasının mühüm göstəricilərindəndir.

Fransanın bölgədə artan gərginliyi, xüsusən də Azərbaycana münasibəti danışıqları poza biləcək digər problemdir. Çünki Azərbaycanla Fransa arasında diplomatik böhranla başlayan gərginlik hələ də səngiməyib. Ermənistanın Hindistanla münasibətlərində bəzi məqamlar maneə törədir və İrəvan Hindistandan təkcə hərbi ləvazimatlar almır, həm də ciddi əhali miqrasiyası baş verir, bu da Ermənistanla Türkiyə arasında münasibətlərdə öz mənfi rolunu oynayır.

Ermənistanla Türkiyə arasında münasibətləri normallaşdırmaq üçün hələ imkanlar var və bu danışıqlar regionun barışa qovuşacağı ümidlərini artırır. Bunun reallaşması isə Ermənistanın ortaya çıxan məsələlərə konstruktiv yanaşmasını tələb edir.

***Qafar ÇAXMAQLI,***
***"XQ"nin Türkiyə müxbiri***

# Qarabağ torpağı bol suya möhtacdır

**30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz dağıdılıb, mədəni irsimizə böyük zərbə vurulub, əkin sahələrimiz yararsız hala salınıb, infrastruktur məhv edilib. Hazırda Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, ərazilər minalardan təmizlənir, elektrik enerjisi, avtomobil və dəmir yolları, su kəmərləri, içməli su, o cümlədən suvarma ilə bağlı layihələr həyata keçirilir. Bu layihələrin həyata keçirilməsi azad olunmuş ərazilərin inkişafının əsas strateji istiqamətlərindən biridir. Çünki bərpa prosesi gerçəkləşdirilmədən həmin ərazilərin sosial-iqtisadi inkişafını təmin etmək mümkün deyildir. Yenidənqurma və bərpa prosesinin həyata keçirilməsi isə Azərbaycanda ümumi iqtisadi inkişafa təkan verəcək, yeni iş yerlərinin yaranmasına şərait yaradacaqdır.**

Yuxarıda qeyd etdiyimiz kimi, işğaldan azad edilmiş ərazilərdə icra olunan infrastruktur layihələri arasında su təchizatının bərpası xüsusi yer tutur. H.Əliyev adına Coğrafiya İnstitutunun şöbə müdiri İsmayıl Quliyev bildirdi ki, Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas rayonlardan biridir. "Ölkəmizin yerli su ehtiyatlarının 25 faizi, yəni, ildə təqribən 2 milyard 560 milyon kubmetr su ehtiyatları bu ərazidədir. Onların əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşan su resurslarıdır. Bu resurslar üzərində qısa müddətdə böyük infrastruktur layihələri icra edilib və bu işlər hazırda da davam etdirilir. Həyata keçirilmiş tədbirlər arasında Xaçınçay və Köndələnçay su anbarlarının bərpa-təmiri layihələri xüsusi yer tutur".

Qeyd edək ki, Ağdam rayonundakı Xaçınçay anbarının yerləşdiyi ərazi 28 il işğal altında olduğundan bu mənbədən suvarılan minlərə hektar torpaq sahəsinin su təminatında ciddi çətinliklər yaranmışdı. Ermənilər qış mövsümündə anbardan suyu açıb buraxır, bu da azərbaycanlıların əkin sahələrini basır, mülki infrastruktura ziyan vururdu. Bundan başqa, onlar anbarda təmir-bərpa işləri aparmamışdılar.

2022-ci ilin mart ayında həyata keçirilən Fərrux əməliyyatı nəticəsində Xaçınçay su anbarı tamamilə Azərbaycanın nəzarətinə keçdikdən sonra su terrorunun da qarşısı alındı. Həmin su anbarının və ondan çıxan kanalın təmiri və bərpasına başlanıldı. Təkcə bəndin beton hissəsinin 80 min kvadratmetrə yaxın aşınan hissəsi sökülüb çıxarıldı. 20–30 santimetr qalınlığında beton vuruldu. Yamacda görülən işlərlə yanaşı, ermənilər tərəfindən bərbad vəziyyətə salınmış suqəbuledici qurğuların bərpası həyata keçirildi. Hazırda kanalın səthi tamamilə betondur. Bu da su itkisinin qarşısını alır.

Ümumilikdə, Xaçınçay su anbarı vasitəsi ilə 7 min hektar əkin sahəsinin suvarılması təmin ediləcək. Onun suyu subartezian quyularının suyu ilə müqayisədə daha keyfiyyətli və daha zəngindir. Belə ki, subartezian quyularının suyunda nisbətən duzlaşma, şorlaşma mövcuddur. Ancaq dağ çaylarından gələn sularda minerallar var, bu da bitkilər üçün daha faydalı hesab olunur.

Bu günlərdə Füzuli rayonundakı Köndələnçay su anbarları kompleksi də təmir-bərpadan sonra istifadəyə verilib. Kompleks 3 su anbarından ibarətdir. Aşağı Köndələnçay su anbarının ümumi



su tutumu 9,5 milyon kubmetr (faydalı həcmi 9 milyon kubmetr), "Köndələnçay-1" su anbarının ümumi su tutumu 3,9 milyon kubmetr (faydalı həcmi 3,6 milyon kubmetr), "Köndələnçay-2" su anbarının ümumi su tutumu isə 2,1 milyon kubmetrdir (faydalı həcmi 1,6 milyon kubmetr).

Onun sözlərinə görə, hər 3 su anbarı təmir-bərpa olunaraq istifadəyə verilib. "Əsas məqsəd böyük kənd təsərrüfatı rayonu olan Füzulinin min hektarlarla əkin sahələrini suvarma suyu ilə təchiz etməkdir. Ümumi su tutumu 15,5 milyon kubmetr olan su anbarlarından istifadə nəticəsində 6200 hektar əkin sahəsini suvarmaq mümkün olacaq. Onun 5 min hektarı işğaldan azad edilən ərazilərdə olan torpaqlardır".

Suqovuşan su anbarı da yenidən qurulub və o anbardan çıxan iki kanalın biri artıq tam təmir edilib, ikincisi də təmir olunur. Bu su anbarı Sərsəng su anbarı ilə bərabər ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə inşa edilib. Əsas məqsəd Tərtər, Bərdə, Ağdam, Goranboy və digər rayonlara su vermək olub. Amma işğal dövründə keçmiş təmas xəttinin yaxınlığında yerləşən rayonlarda minlərlə hektar ərazidə əkin-biçin susuz qalıb. Məsələn, Tərtərdə 24,5 min, Ağdərədə 14,4 min, Goranboyda 7 min, Yevlaxda 5,9 min, Bərdədə 12,6 min, Ağdamda 30 min, Ağcabədidə 2 min hektar olmaqla, ümumilikdə, 96 min hektardan çox torpaq sahəsinin su təminatında ciddi çətinliklər yaranıb. Nəticədə, münbit torpaqlarımız şoranlaşıb. Mövcud su anbarlarının qəsdən məhv edilməsi Ermənistanın Qarabağda həyata keçirdiyi ekoloji terrorun daha bir nümunəsidir.



Suqovuşan su anbarının bərpasından sonra 30 il ərzində ilk dəfə Tərtər və digər rayonlara su verildi. Suvarılan əkin sahələrinin həcmi 100 min hektara yaxın olacaq.

Bu arada "Xudafərin" hidroqovşağı istismara verilib və "Qız Qalası" hidroqovşağının açılış mərasimi olub. Su tutumu 1,6 milyard kubmetr olan "Xudafərin" və 56,75 milyon kubmetr su tutumuna malik "Qız Qalası" hidroqovşaqları həm işğaldan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təmin edilməsində, həm də suvarılmasında xüsusi rol oynayacaq. Bu layihə təkcə Azərbaycana mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılmasına və 12 min hektar yeni əkin sahələrinin suvarılmasına imkan yaradacaq.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında istifadə olunan su anbarlarl ilə yanşı, bu gün tikintisi davam edən və tikiləcək su anbarları da var. Zabuxçay su anbarı onlardan biridir. Bununla bağlı Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov bildirib ki, əkin sahələrinə saniyədə 6,18 kubmetr suyun mütəmadi verilməsi üçün tutumu 26,7 milyon kubmetr olan su anbarı inşa olunur. Zabuxçayın suyu yeni su anbarında tənzimlənməklə uzunluğu 49 kilometr olan polad boru xətti ilə Qubadlı və Zəngilan rayonlarında yerləşən torpaq sahələrinə veriləcək. Su anbarının sayəsində Qubadlı və Zəngilan rayonları ərazisində 12 min 100 hektar torpaq sahəsi suvarma suyu ilə təmin olunacaq. Anbarının bu il istifadəyə veriləcəyi gözlənilir.

Dövlət Su Ehtiyatları Agentliyinin şöbə müdiri Riad Axundzadə isə bildirib ki, Həkəriçay, Bərgüşadçay su anbarlarının və kanalların inşa edilməsi də nəzərdə tutulur. Onun sözlərinə görə, sənədlərin hazırlanmasının bu ilin ortalarında başa çatdırılması nəzərdə tutulur.

R.Axundzadə qeyd edib ki, Qubadlı rayonu ərazisində Bərgüşadçay su anbarının və ondan ayrılan 62 kilometr uzunluğunda magistral boru xəttinin layihə sənədləri əsasında tikintisi ilə Qubadlı, Zəngilan və Cəbrayıl rayonunda təqribən 12 min hektar yeni torpaq sahəsi suvarılacaq.

Qarabağ və Şərqi Zəngəzurunun kənd təsərrüfatı üçün yararlı torpaqların, zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması, bütövlükdə, regionun iqtisadi inkişafını sürətləndirəcək. Ən müasir texnologiyaların tətbiqi nəticəsində bu bölgələrdə həm taxılçılıq, həm də meyvəçilik, bostançılıq, üzümçülük geniş vüsət alacaq. Hər şey planlı şəkildə edilir ki, hər qarış torpaqdan maksimum məhsuldarlıq götürülsün.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

TƏQDİMAT

# "Nizami Gəncəvinin Əlyazmalarının Vahid Kataloqu və Məlumat Bazası"



**"Nizami Gəncəvinin Əlyazmalarının Vahid Kataloqu və Məlumat Bazası" layihəsi elmi ictimaiyyətə təqdim edilib.**

Üçillik icra müddəti olan layihənin məqsədi Nizami Gəncəvinin əlyazmalarının sayı və dünyada yayılması haqqında dəqiq məlumat toplamaq, bu əlyazmaların sayını, mənbələrini, həqiqiliyini və keyfiyyətini sənədləşdirən vahid resurs yaratmaqdır.

Xatırladaq ki, 2022-ci il noyabrın 11-də Oksford Nizami Gəncəvi Mərkəzində Nizami Gəncəvinin əlyazmalarının vahid kataloqunun və məlumatlar bazasının yaradılması ilə bağlı layihə qəbul edilib. Layihənin direktorları Oksford Universitetindən farsşünaslıq professoru Edmund Herziq və Azərbaycandan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayevadır. Onlar layihənin öz ölkələrində işinə və ümumilikdə layihəyə nəzarəti həyata keçirirlər.

Mayın 20-də Bakıda keçirilən "dəyirmi masa"da Azərbaycan elmi ictimaiyyətinin görkəmli nümayəndələri, Milli Elmlər Akademiyasının, Bakı Dövlət Universitetinin alimləri, şərqşünas mütəxəssislər iştirak ediblər.

"Dəyirmi masa"da çıxış edən akademik Nərgiz Paşayeva 2013-cü ildən fəaliyyətə başlayan Oksford Nizami Gəncəvi Mərkəzinin ötən müddət ərzində həyata keçirdiyi tədbirlərə ümumi nəzər salıb. Qeyd edib ki, artıq 2018-ci ildən Nizami Gəncəvi Elmi Mərkəzi Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun tərkibində daimi mövcudluq statusuna malikdir. Mərkəz ədəbiyyat, tərcüməçilik, tarix, arxeologiya, tədris və mədəniyyət sahələrində fəaliyyətini davam etdirir, əlbəttə ki, Nizami irsinin tədqiqi və təbliğində xüsusi rola malikdir.

Nərgiz Paşayeva çıxışında, həmçinin Azərbaycanda mövcud olan şərqşünaslıq məktəbinin ənənələrinə, görkəmli şərqşünas alimlərin tədqiqatlar aparmasına toxunub və bu sahədə yeni layihənin bu məktəbin ənənələrinin daha da gücləndirilməsinə və möhkəmləndirilməsinə, gənc mütəxəssislərin fundamental araşdırmalara cəlb edilməsinə imkan verdiyini söyləyib.

### Nizami Gəncəvi Azərbaycan şairidir

Dəyirmi masada çıxış edən professor Edmund Herziq bu layihənin xüsusi maraq kəsb etdiyini vurğulayaraq deyib: "Bu, şair Nizami Gəncəvi haqqında bir layihədir. Nizami Gəncəvi Azərbaycanın böyük şairidir. Eyni zamanda, bu layihə çərçivəsində üç ölkənin – İran, Azərbaycan və İngiltərənin alimləri bir araya gəliblər".

O qeyd edib ki, vahid kataloq və onlayn məlumat bazası yaradıldıqdan sonra bu məlumatlara çıxış bütün dünyadan mümkün olacaq: "Nizami Gəncəvi təkcə bir ölkədə deyil, bütün dünyada məşhur şairdir və onun əlyazmaları hamı üçün maraq kəsb edir. Firdovsinin "Şahnamə"si və Nizaminin "Xəmsə"si dünyada ən çox araşdırılan əsərlərdir. Nizaminin əlyazmalarının üzü şairin vəfatından sonra köçürülərək Hindistana, Yaxın Şərq ölkələrinə qədər dünyanın bütün məşhur kitabxanalarında öz yerini tapıb. Onun anadan olduğu Gəncə bu baxımdan müstəsna rol oynayıb".

Professorun sözlərinə görə, bu günə qədər Nizaminin tədqiqatçıları və pərəstişkarları üçün çatışmayan bir məqam var idi: "Bu məqam onun vahid kataloqunun olmaması və ya onun müasir standartlarda olmaması idi. Digər tərəfdən, kağızın keyfiyyətinə, cildlənmə məsələlərinə də indiyə qədər diqqət yetirilməmişdi. Bəzi kataloqlar 100–150 il bundan əvvəl yazılıb. O zaman kataloqlaşdırma yaxşı inkişaf etməmişdi. Biz bu işə başlamışıq. Yekun nəticədə bizim üç dildə böyük bir kataloqumuz olacaq. Ondan sonra biz kataloqun bütün dünyada əlçatanlığını təmin edəcəyik. Gələcəkdə tərcüməçilərin daha etibarlı kataloqdan istifadə etmək imkanı olacaq. Bu layihə mənim üçün çox dəyərlidir. Biz artıq bir neçə ildir ki, bu məsələni Nərgiz xanımla günbəgün müzakirə edirik".

"Dəyirmi masa"da, həmçinin ABŞ Tulane Universitetinin Alman və Slavyan Tədqiqatları şöbəsinin dosenti, müqayisəli ədəbiyyatşünaslıq üzrə fəlsəfə doktoru (Harvard) Elio Brankaforte layihənin əhəmiyyətindən danışıb, Nizami Gəncəvi yaradıcılığının dünyada böyük maraq kəsb etdiyini vurğulayıb, eyni zamanda, ümumiyyətlə Azərbaycan alimlərinin apardığı tədqiqatları yüksək qiymətləndirib.

### Beynəlxalq layihəyə 3 ölkə cəlb edilib

Qeyd edək ki, layihənin tədqiqatçıları İrandan Böyük İslam Ensiklopediyası Mərkəzinin professoru Mir-Ənsari, Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutundan Nəsib Göyüşov və Oksford Universitetinin Vadham Kollecindən Məhəmməd Emamidir.

Tədqiqat qrupu layihə direktorlarına rüblük hesabatlar verməli və onlardan alınan məsləhətləri layihənin icrasında istifadə etməlidirlər.

Professor Mir-Ənsari Tehran, Bakı və Oksfordda tədqiqat aparır, əlyazmaları kodlaşdırır və kataloqlaşdırır. O, Bakı Dövlət Universitetinin (BDU) Şərqşünaslıq fakültəsinin seçilmiş tələbələrinə MDU-nun Bakı filialında fars dili, kataloqlaşdırma üzrə təlim keçib. O, həmçinin Əlyazmalar İnstitutunun işçilərinə kodikologiya, kataloqlaşdırma, mövcud əlyazma kataloqlarından istifadə və fars əlyazmalarının tədqiqi üçün tədqiqat metodları üzrə təlim keçib.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Farsdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri filologiya elmləri doktoru Nəsib Göyüşov əlyazmaların nəzərdən keçirilməsində, kodlaşdırılmasında və kataloqlaşdırılmasında iştirak edir, onları Azərbaycan dilinə tərcümə edir. O, həmçinin rusdilli kitabxana kataloqlarından məlumat əldə etməklə layihəyə öz töhfəsini verir.

Mohammad Emami kataloq yazılarını fars dilindən ingilis dilinə tərcümə edir, həmçinin, fars və ingilis dillərindəki sənədləri SDS (Software Delivery Service Proqram təminatı xidməti) və ORA (Oxford Research Archive) Oksford tədqiqat arxivinə yükləyir.

Qeyd olunub ki, Azərbaycandan qayıdandan sonra professor Mir-Ənsari doktor Nəsib Göyüşova kataloqlanmış əlyazmalar haqqında əsas məlumatları təqdim edərək əməkdaşlığı davam etdirir. Bundan başqa, Mir-Ənsari Nizami Gəncəvinin əlyazmalarının kataloqlaşdırılması və bununla bağlı fəaliyyətlərinə dair 4 hesabat təqdim edib.

Dəyirmi masada layihə ilə bağlı müzakirələr də aparılıb. Müzakirə çərçivəsində, filologiya elmləri doktoru Nəsib Göyüşov, BDU-nun Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasından filologiya elmləri doktoru, professor Aida Qasımova, AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutundan tarix elmləri doktoru, dosent Nigar Gözəlova, ADA Universitetindən filologiya elmləri doktoru, dosent Şəfəq Dadaşova, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Farsdilli əlyazmaların tədqiqi şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Jalə Şükürova, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutundan tarix elmləri doktoru, dosent Tofiq Nəcəfli, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş eksperti, Farsdilli əlyazmaların tədqiqi şöbəsinin böyük elmi işçisi Mustafa Əliyev, Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, akademiklər Nizami Cəfərov, Akif Əlizadə, BDU-nun Şərqşünaslıq fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Aydan Xəndan, filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Elçin Məmmədov çıxış ediblər.

Qeyd olunub ki, Nizami Gəncəvinin əsərlərinin 4000-ə yaxın əlyazması təqribən 600 il ərzində dəfələrlə köçürülərək Yaxın Şərq, Cənubi və Orta Asiya, Qafqaz və Qərb ölkələrinin kitabxanalarına geniş yayılıb. Vahid kataloqun yaradılması ona görə zəruridir ki, mövcud məlumatlar dağınıq, köhnəlmişdir, onlar kodikoloji təfərrüatları, mətni köçürənlərin qiymətli qeydlərini ehtiva etmir, bəzən tarixi səhvlərə yol verir. Bundan başqa, bəzi mühüm əlyazmalar şəxsi kolleksiyalarda olduğu üçün onların kataloqu yoxdur.

### Kataloq 3 dildə nəşr ediləcək

Nizami Gəncəvinin əsərlərinin vahid kataloqu ilkin olaraq Oksford Universitetinin tədqiqat arxivində (ORA) fars və ingilis dillərində məlumat bazası kimi yerləşdiriləcək və yeni nəticələr mütəmadi olaraq oraya əlavə ediləcək.

Kataloq layihə tamamlandıqdan sonra Azərbaycan, fars və ingilis dillərində kitab şəklində nəşr olunacaq.

Nizami əlyazmalarının tarixi və kodikologiyasına dair elmi məqalələr hazırlanacaq.

Layihənin icrasında bu günə qədər əhəmiyyətli irəliləyiş əldə olunub və bu işə uğurla davam edir.

# BMT: Azərbaycanın COP29-a evsahibliyi etməsi ölkə üçün böyük nailiyyətdir

**"Azərbaycanın COP29-a evsahibliyi etməsi ölkə üçün böyük nailiyyətdir və onun iqlim fəaliyyətlərinə güclü sadiqliyini nümayiş etdirir".**



Bu fikirlər BMT-nin mətbuat xidmətinin AZƏRTAC-ın ABŞ bürosunun sorğusuna cavabında yer alıb. Bildirilib ki, BMT COP29-un sədrliyinə geniş miqyasda dəstək verir.

Bildirilib ki, BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hart və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyevanın həmsədrliyi ilə BMT Qlobal COP29 İşçi Qrupunu təsis edib:

"Ölkə səviyyəsində isə BMT komandası Azərbaycanda iqlim fəaliyyətlərini mobilizə etmək üçün bütün maraqlı tərəflərlə işləyir. Buna misal olaraq, BMT-nin Azərbaycan nümayəndəliyi tərəfdaşlarla birlikdə iqlim dəyişikliyi və ədalətli keçidlə bağlı ölkə boyu dialoq və fəaliyyətə təkan vermək üçün "29 iqlim müzakirəsi: COP29-a gedən yol" adlı təşəbbüs həyata keçirib. Bundan əlavə, BMT-nin ölkədəki komandası COP29 ərəfəsində və tədbir zamanı Azərbaycanın hər yerindən gənclərlə işləmək məsələsinə xüsusi diqqət yetirir. Burada məqsəd onları həvəsləndirmək, maarifləndirmək, səfərbər etmək və bununla da onlara fəaliyyət göstərmələri və iqlim həllərinin bir hissəsi olmaları üçün imkan yaratmaqdır".

# Bakıda "Yaşıl dünya naminə" Bitki Sağlamlığı Forumu

**Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və Beynəlxalq Bitki Sağlamlığı Günü ilə bağlı Bakıda "Yaşıl dünya naminə" Bitki Sağlamlığı Forumu işə başlayıb.**




üçün yarana biləcək təhlükələri önləmək üçün pomidor, bibər, kartof kimi təsərrüfat əhəmiyyətli bitkilərin əkin materialının idxalı zamanı həyata keçirilən fitosanitar tədbirləri daha da genişləndirib.

Həmçinin Q.Təhməzli vurğulayıb ki, agentlik qida zəncirinin əsas elementlərindən olan bitki sağlamlığı sahəsində hüquqi bazanın təkmilləşdirilməsi, bitki sağlamlığı və bitki mühafizəsi vasitələrinin və aqrokimyəvi maddələrin dövriyyəsinə nəzarət sisteminin inkişafı, kadr və elmi potensialın gücləndirilməsi və digər əhəmiyyətli tədbirlər həyata keçirib.



Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) və Kənd Təsərrüfatı Nazirliyinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə bir sıra dövlət qurumlarının, xarici ölkələrin və beynəlxalq təşkilatların nümayəndələri, ekspertlər iştirak edirlər.

AQTA sədri Qoşqar Təhməzli bildirib ki, agentlik tərəfindən fermerlərin sağlam toxum məhsulu ilə təminatı və ölkə ərazisinin təhlükəli yeni bitki xəstəliklərindən mühafizə olunması istiqamətində genişhəcmli fəaliyyətlər icra edilir. Agentlik ölkə ərazisini qonşu ölkələrdə yayılmaqda olan təhlükəli bitki virus və bakteriya xəstəliklərindən qorumaq, respublikada bitkiçilik məhsullarının istehsalı və ixracı

Forumda daha sonra Kənd Təsərrüfatı Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Milli Məclisin Aqrar Siyasət Komitəsinin, Dövlət Gömrük Komitəsinin, Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin və Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin ("Rosselxoznadzor") təbiliyində fəaliyyət göstərən Ümumrusiya Bitki Karantini Mərkəzinin nümayəndələri çıxış ediblər. Nəticələr ölkəmizdə aqrar sahədə aparılan islahatlardan, bitkiçiliyin inkişafı istiqamətində görülən işlərdən və bu sahədə əldə olunan nailiyyətlərdən danışıblar.

# ABŞ nəşrinin Azərbaycan barədə yazısı



**ABŞ-də yayımlanan "International Policy Digest" nəşrində sülhməramlıların bölgəni tərk etməsindən sonra Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün əldə olunması üçün yeni imkanların yaranmasından bəhs edən məqalə dərc olunub.**

Yazıda qeyd edilib ki, sülhməramlı kontingentin missiyası 2025-ci ilin noyabrında başa çatmalı olsa da, Rusiya sülhməramlıları bölgədən çıxarıb. Daha sonra Qarabağın beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanındığı diqqətə çatdırılıb: "Azərbaycan 2020-ci ildə İkinci Qarabağ müharibəsində və 2023-cü ilin sentyabrında əraziyə nəzarəti bərpa edib. 6 ay sonra Rusiya Qarabağdan sülhməramlılarını çıxarıb".

Məqalədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu barədə mediaya açıqlamasına istinad edilir: "2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib".

Yazıda iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində əldə olunan razılığın və atılan addımların xüsusilə ümidverici olduğu bildirilib. Həmçinin Zəngəzur dəhlizi haqqında da məlumat verilib, bu məsələnin hələ də həllini tapmadığı vurğulanıb.

Məqalədə Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun Almaniyanın "Die Zeit" qəzetinə müsahibəsindən də sitat gətirilib: "Ermənistan təcrid vəziyyətini aşa, tranzit gəlirləri əldə edə və Türkiyə ilə münasibətlərini yaxşılaşdıra bilər". Ermənistan bu təklifi rədd edərsə, Azərbaycan yolu və dəmir yolunu İran vasitəsilə daha cənubda da inşa edə bilər.

Nəşrdə Azərbaycanın COP29-a evsahibliyi haqqında da məlumat verilib.

XQ

SOSİAL XƏBƏRLƏR

### 73 xəstəliyə əlillik birbaşa təyin olunacaq




***Nazirlər Kabinetinin yeni qərarı ilə "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nda dəyişikliklər edilib.***

Dəyişikliklər əlilliyin qiymətləndirilməsi üçün göndərişlərin rəsmiləşdirilməsi və qiymətləndirmə prosedurunun təkmilləşdirilməsinə, bu sahədə xidmətlərinin çevikliyinin və vətəndaş məmnunluğunun, əlillik sisteminə əlçatanlığın artırılmasına xidmət edir. Bu vaxtadək tibb müəssisələrinin həkim-məsləhət komissiyaları tərəfindən bu və ya digər şəxsin əlilliyinin qiymətləndirilməsi məqsədilə göndərişlərin (forma 88) rəsmiləşdirilməsi üçün bir çox xəstəliklərin ağır və ya yüngül olmasından, şəxsin yaşından və s. asılı olmayaraq minimum 6 ay müalicə müddəti tələb olunurdu.

Yeni dəyişikliklərə əsasən, bu tələblə bağlı dəqiqləşdirmələr aparılıb və əlilliyin qiymətləndirilməsi məqsədilə ilkin müraciət zamanı müalicə müddəti gözlənilmədən göndərişlərin rəsmiləşdirilməsinə əsas verən xəstəliklərin sayı təqribən 15 dəfə artırılaraq 5-dən 73-ə çatdırılıb. Əlilliyin qiymətləndirilməsi məqsədilə təkrar müraciət zamanı isə xəstəliyin klinikası nəzərə alınmaqla minimal müalicə müddətləri müəyyən olunub.

### 4 ayda əlillərə 40,2 min bərpa vasitəsi verilib

***Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən***




***bu ilin yanvar–aprel aylarında əlilliyi olan şəxslərə 40 min 200 reabilitasiya vasitəsi verilib. Onlardan 3 min 500-ü təkərli oturacaq (o cümlədən 6-sı mühərrikli təkərli oturacaq), 835-i aşağı və yuxarı ətraf protezi, 944-ü eşitmə aparatı, 953-ü qoltuqaltı və dirsəkaltı ağac olub.***

Həmçinin əlilliyi olan şəxslərə 1073 cüt protez ayaqqabı, 1,8 min cüt ortopedik ayaqqabı, 29 korset və s. reabilitasiya vasitələri təqdim olunub. 4 ayda, ümumilikdə, 5 min 500 nəfər əlil reabilitasiya vasitəsi ilə təmin edilib.

*Zərifə HÜSEYNOVA*
*XQ*

Azərbaycanda Tacikistan Mədəniyyəti Günləri

# Düşənbədən Bakıya sənət çələngi



**Ölkəmizdə Tacikistan Mədəniyyəti Günləri uğurla start götürüb. Heydər Əliyev Mərkəzində təntənəli açılışdan əvvəl qonaqlar "Tacikistan rəssamlarının əsərləri, xalq sənətkarlıq nümunələri və milli geyimləri" sərgisini maraqla qarşılayıblar. Azərbaycanın və Tacikistanın Mədəniyyət nazirləri Adil Kərimli və Matlubahon Sattoriyon mərasimdə çıxış edib, mədəniyyət günlərinin ölkələrimiz arasında dostluğun daha da möhkəmlənməsinə xidmət edəcəyini bildiriblər. Sonra qonaq ölkənin incəsənət ustalarının böyük konsert proqramı təqdim olunub.**

Mərasimin gözəl aurası mədəniyyət günləri ilə bağlı təşkilati işlərin olduqca yüksək səviyyədə görüldüyünü aşkar göstərirdi. Hər tərəf bayramsayağı bəzədilmişdi. Başlıcası isə bütün təqdimatlar, ifalar gözəl ovqat yaradırdı. Mərasimin iştirakçıları hamılıqla parlaq çıxışların, unudulmaz anların şahidi oldular.

**Tacikistan Rəssamlar İttifaqının sədri Nərgiz Həmidova jurnalistlərə müsahibəsində bu barədə böyük həvəslə danışdı:**



– İstənilən mədəni tədbir, əlbəttə ki, bayramdır. Könüllərin bayramı, köhnə tanışlarla, dostlarla yenidən görüş, yeni tanışlıqlar bayramıdır. İncəsənətin sərhədləri yoxdur. İncəsənət xalqları birləşdirir. Bu gün biz incəsənət nümayəndələri Tacikistan və Azərbaycan xalqlarının dostluğunun möhkəmlənməsinə öz töhfəmizi verməyə çalışırıq. Fürsətdən istifadə edərək, bizim ekspozisiyamız üçün Heydər Əliyev Mərkəzi kimi gözəl binanın, müasir sərgi salonunun təqdim olunmasına görə təşkilatçılara minnətdarlığımı bildirirəm.

Qeyd edək ki, sərgidə Tacikistanın müxtəlif üslublarda, istiqamətlərdə və müxtəlif janrlarda çalışan görkəmli rəssamlarının 30-a yaxın əsəri təqdim edilir. Tacikistan Sənətkarlar İttifaqı üzvlərinin dekorativ və tətbiqi sənət əsərləri, həmçinin "Noor Art" qalereyasının kolleksiyası da zövq oxşayırdı. Seyrçilər məşhur tacik dizayneri Xurşed Sattorovun parlaq və orijinal modellərinə xüsusilə heyran qaldılar.

...Nizami Kino Mərkəzində isə Tacik Kinosu Günlərinin açılışı olub. Mərasimdə Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev, "Tacikfilm"in baş direktoru Mahmadsaid Şoxiyon, Tacikistan Kinematoqrafçılar İttifaqının sədri Səfər Hakdodov xalqlarımızın dostluğu, kino ustalarımızın əlaqələri barədə danışıb, yaradıcı əməkdaşlığın yüksələn xətlə inkişaf edəcəyinə ümidvar olduqlarını bildirdilər.

Mərasimdə Xalq artisti Tariyel Qasımova "Tacikistan kinosunun əlaçısı" medalı təqdim olundu. Fərəhli haldır ki, 85 yaşı qeyd olunan görkəmli aktyorumuz dəfələrlə Orta Asiya respublikalarında – "Tacikfilm", "Özbəkfilm", "Türkmənfilm"in kinolarında rollara çəkilib. Həmin gün onun da rol aldığı məşhur tacik filmi "Rüstəm və Söhrab" (1969), dünənki seansda "Şöhrətlənən Sarəzm" filmi göstərildi. Bu günsə kinoseverlər "Tale" ("Fortuna") bədii filmini izləyə biləcəklər. Kino Günlərinin bağlanışı sabah "Güzgü" filmi ilə olacaq.

**Tanınmış yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin ürək sözləri:**



– Tacikistan Mədəniyyəti Günləri məndə daha çox fərəh yaradır. Çünki "Varlı qadın" pyesim hələ 16 il əvvəl Tacikistanda oynanılıb. Buna vəsilə isə 2007-ci ildə Bakıda keçirilmiş "Tacikistan mədəniyyəti günləri" olub. O vaxt qonaqlar məndən kitabımı almışdılar, 4–5 aydan sonra məni Düşənbəyə premyeraya dəvət elədilər. Gedə bilmədim, amma bir müddət sonra Tacikistanda "Azərbaycan Mədəniyyəti Günləri" keçiriləndə mən də nümayəndə heyətinin tərkibində Düşənbəyə getdim və V.Mayakovski adına Dövlət Rus Dram Teatrında rus dilində hazırlanmış tamaşaya baxdım. Eyni vaxtda daha bir teatr – Vohidov adına Tacikstan Dövlət Gənclər Teatrı da əsəri tacik dilində tamaşaya hazırlamışdı. Həmin tamaşa Orta Asiya ölkələrinin II Beynəlxalq teatr festivalında iki nominasiya üzrə mükafata və qızıl medala layiq görülüb. Onu da deyim ki, daha sonra "Varlı qadın" Qazaxıstan, Özbəkistan, Qırğızıstan və digər respublikalarda da səhnələşdirilib. Yəni, tacikistanlı rejissor Sultan Osmonovun ilk təşəbbüsü düşərli olub. Mədəniyyətlərin birliyi, bax, budur!

Xatırladaq ki, Azərbaycanda Tacikistan Mədəniyyəti Günləri F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında qardaş ölkənin incəsənət ustalarının konserti ilə yekunlaşacaq.

*Ə.ƏLİYEV*
*XQ*

# TÜRKSOY himninin azərbaycanlı bəstəçisi



**Həyatın gedişini müəyyən edəcək elə bacarıqlar var ki, insanın özü ilə birgə doğulur. Elə götürək musiqi istedadını. Ola bilər ki, kimsə bu qabiliyyətinin mövcudluğundan nisbətən gec xəbər tutsun, amma, hər halda, istedad varsa, nə vaxtsa bulaq kimi qaynayıb üzə çıxacaq.**

– Nəslimizdə musiqiçi olmayıb. Amma hərbi dənizçi olan atam gözəl tar, piano çalardı. Mən də musiqini nə zamandan sevmişəm, yadıma gəlmir… Musiqi məktəbində, sonralar kollecdə, konservatoriyada çox gözəl müəllimlərim olub.

Bu etirafı edən müsahibimiz sənətşünaslıq üzrə fəlsəfə doktoru, Bakı Musiqi Akademiyasının və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin müəllimi, Azərbaycan Dövlət Xor Kapellasınının xormeysteri, "Vestnik" beynəlxalq elmi jurnalının redaksiya heyətinin üzvü, "QS İntelligence Unit" təşkilatının eksperti, Əməkdar artist Yulizana Kuxmazovadır. Əslində, niyyətimiz onunla TÜRKSOY təşkilatının 30 illiyi münasibətilə bəstələnmiş himnlə bagli söhbət etmək idi. Lakin Yulizana xanımla yaxından tanış olunca söz-sözü çəkdi, onun yaradıcılığı bizə maraqlı gəldi deyə, söhbətin məcrası genişləndi.

**– Yulizana xanım, ötən ilin sonlarında Ankarada TÜRKSOY təşkilatının 30 illiyinin sonuncu konsertində sizin bəstələdiyiniz himn ilk dəfə səsləndi.**

– Mən heç yerdə özümü bəstəkar kimi təqdim etmirəm, çünki müvafiq təhsil almamışam. Lakin musiqi təhsilim, duyumum, yazmaq bacarığım var deyə, arada nələrsə bəstələyirəm. TÜRKSOY himninə gəlincə, təşkilat himn, daha doğrüsü, marş barədə müsabiqə elan etmişdi. Mən həmin yarışa qoşuldum və qalib oldum. Həqiqətən də, böyük bir səhnədə, Bilkənd və CSO (Cümhuriyyət Simfonik Orkestrinin) birləşmiş orkestrlərinin, TRT və Özbəkistan Dövlət Xor Kapellasının ifasında öz bəstəsini eşitmək adamı çox qürurlandırır. Üstəlik, dirijor da öz tələbəm – Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Əyyub Quliyev idi.

**– Bəs himnin sözləri kimindir?**

– Mətni TÜRKSOY özü təklif etmişdi. Türk şairi Kənan Çarboğanın şeiri idi. Əslində, mənim TÜRKSOY ilə yaradıcılıq əlaqəm bir qədər əvvəl başlanmışdı. 2019-cu il Aşıq Veysəl ili elan edilmişdi. Düzü, o vaxtadək Aşıq Veysəlin yaradıcılığına, demək olar ki, bələd deyildim. Lakin axtarışlarım uğurlu oldu. "Qara torpaq" əsərim qəbul olundu. Bunun ardınca da "Gəlməz yola gediyorum" mahnısını qurumun sifarişi ilə işlədim. Beləcə, TÜRKSOY-la əməkdaşlığım başlandı.

**– Bu yaxınlarda isə beynəlxalq müsabiqədə münsif kimi iştirak etmisiniz…**

– Aprel ayında Qazaxıstanın Aktube şəhərində "Altın Kamerton – 2024" müsabiqəsi keçirildi. Gənc dirijorların Bazarqali Jamanbayev adına I beynəlxalq müsabiqəsi ilk dəfə baş tuturdu. Münsiflər heyətində ev sahiblərindən başqa, Belarus, Latviya, Rusiya, Ukrayna və digər ölkələrdən mütəxəssislər var idi. Azərbaycanı da mən təmsil edirdim. Bakı Musiqi Akademiyasının və Azərbaycan Milli Konservatoriyasının tələbələri də müsabiqəyə qatılmışdılar. Çox sevindirici haldır ki, bizim uşaqlar qalib gəldilər. BMA-nın magistri Nəzrin Talıbova müsabiqənin diplomantı, AMK-nın tələbəsi Həzimə Məmmədova III yeri tutdu. Hər iki qalibimiz Əməkdar incəsənət xadimi Sevil Hacıyevanın tələbəsidir.

**– Nə gözəl!**

– Elədir. Müsabiqə ilə yanaşı, gənc dirijorlar üçün seminarlar təşkil edilmişdi. Həmin seminarlardan birini də mən keçirdim. Bir neçə saat ərzində gənclər onları maraqlandıran suallara cavab aldılar.

**– Yulizana xanım, bu, sizin Qazaxıstanda ilk belə çıxışınız idi?**

– Yox, hələ 2019-cu ildə başqa bir beynəlxalq müsabiqəyə münsif kimi dəvət olunmuşdum. Müsabiqədən əvvəl Aktube filarmoniyasının bədii rəhbəri, kamera xorunun rəhbəri Merbol Kuspanov mənə müraciət etdi ki, bəlkə, gəlmişkən bir konsert verəsiniz? Mən də sənətini çox sevən biri kimi razılaşdım. Bir neçə Azərbaycan xalq mahnısını, bir də "Yallı"nı xor üçün işləyib onlara göndərdim.

**– "Yallı"?**

– Bəli, "Yallı".

**– Yəqin ki, "Yallı" rəqs melodiyasına fərqli yanaşmısınız.**

– Bilirsiniz, əslində, "Yallı"nı akapella olaraq Bakıda ifa etmişdik. Amma onu bir layihə çərçivəsində həvəskarlar ilə hazırlamışdıq. "Yallı"nın melodiyası üzərində çalışanda fikirləşdim ki, o, birsəsli olsa, qulağa xoş gəlməz. Odur ki, melodiyanı çoxsəsli xor üçün işlədim, əl çalmaq, çırtma, step, bir də dodaqlar arasında sıxılaraq fışıldayan səsdən istifadə etdim. Peşəkar xor kollektivinin ifasında daha mükəmməl alındı.

Yulizana xanım təvazökarlıqla özünə bəstəkar demir. Amma internet resurslarında onun xeyli vokal əsərinə, əsasən də romanslarına rast gəlmək mümkündür. Bir xormeyster olaraq, sırf insan səsi ilə işləmək, onu eşitmək bacarığı, musiqiyə sonsuz sevgi, sənətinə bağlılıq, pedaqoji qabiliyyət və hərtərəfli musiqi savadı Yulizana Kuxmazovanın ilham mənbəyidir.

*Gülcahan MİRMƏMMƏD*

# "Yaşıl düşüncə"nin məkanı genişlənir

**Salyan rayonunda fəaliyyət göstərən "Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinə Kömək İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirilən "Yaşıl düşüncənin yerlərdə təşviqi" layihəsinin icrasına start verib.**



Bu münasibətlə rayon Uşaq–Gənclər İnkişaf Mərkəzində təqdimat mərasimi keçirilib. Tədbirdə Salyan Rayon İcra Hakimiyyətinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, YAP rayon təşkilatının nümayəndələri, qeyri-hökumət təşkilatlarınının rəhbərləri iştirak ediblər. Əvvəlcə son dövrlərdə ictimai birliyin rayonda həyata keçirdiyi ekoloji layihələrə həsr olunmuş videoçarx göstərilib.

"Ana Kür" İctimai Birliyinin sədri və layihənin rəhbəri Rüstəm Məlikov mərasimi açaraq, məram və məqsədlərdən danışıb, layihə çərçivəsində görüləcək işlər, gözlənilən nəticələr barədə məlumat verib. Salyan Rayon İcra Hakimiyyətinin məsul nümayəndəsi Məhərrəm Məmmədov, Şirvan Milli Parkının direktoru Seymur Kərimov, 3 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin aparıcı mütəxəssisi Gülhüseyn Ağayev, Rayon Ağsaqqallar Şurasının sədr müavini Məhəmməd Ağayev, Ziyalılar Birliyinin sədri Allahverdi Piriyev, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi rayon filialının sədri Arif Əsgərov, RİH yanında İctimai Şuranın üzvü Sevinc Bünyatova, AYB Muğan bölməsinin sədri Nəbi İbrahimov, veteran ekoloq Nadir Rüstəmov və başqaları çıxış edərək, iqlim dəyişikliklərinin doğurduğu fəsadların aradan qaldırılmasında Azərbaycan təcrübəsinin rolunu yüksək dəyərləndiriblər.

Qeyd edilib ki, BMT-nin İqlim Dəyişməsi üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyası-COP29 kimi mötəbər tədbirinə ölkəmizin evsahibliyi etməsi cəmiyyətdə "yaşıl düşüncə"nin formalaşmasına, vətəndaşların "yaşıl həyat" tərzinə keçməsinin təşviqinə təkan verəcək. Azərbaycanın "yaşıl gündəliyində" qarşıdakı illərdə görüləcək işlərdən, önəmli layihələrdən bəhs olunub, ölkəmizin enerji istehsalında günəş, külək və su mənbələrinin payının 2030-cu ildə 30 faizə çatdırılacağı vurğulanıb. Natiqlər təqdim olunan layihənin də aktuallığına diqqət çəkiblər.

Mərasimdə layihənin ideyalarının daha çox benifisarlar arasında yayılması üçün həyata keçirilən maarifləndirici və praktik işlərdən, gözlənilən nəticələrdən danışılıb. İcra müddətində müxtəlif ekoloji tədbirlərə dəstək verilməsi, Kürboyu ərazilərdə yerləşən məktəblərdə "Dəyirmi masa"ların təşkili, iməciliklərin keçirilməsi, mövcud yaşıllıqlara qulluq göstərilməsi, tullantıların yığışdırılması nəzərdə tutulub.

*XQ*

# Dünya yazıçılar qurumunun türk xalqları təmsilçisi




**Ümumdünya Yazıçılar Təşkilatının (WOW) onlayn formatda keçirilən iclasında azərbaycanlı nasir Varis Yolçiyev qurumun Türk dövlətləri və türkdilli xalqlar bölməsinin katibi seçilib.**

İclasda digər təşkilati məsələlərə də baxılıb və qurumun 2025-ci ildə Birləşmiş Ərəb Əmirliklərində keçiriləcək növbəti konqresi və 2025-ci il Ümumdünya WOW – LiFFt Ədəbiyyat festivalına hazırlıq işləri müzakirə edilib.

Qeyd edək ki, Avropa, Asiya, Amerika və Afrika qitələri yazıçılarını birləşdirən WOW-un festivalları 2024-cü ilə kimi 4 dildə (ingilis, ispan, rus, ərəb) keçirilirdi və qurumun 4 müvafiq bölməsi fəaliyyət göstərirdi. 2024-cü ildə qara qitədə – Nigeriyada, Nobel mükafatçısı Voye Şoyinkanın fəxri sədrliyi ilə keçirilən konqresdə türk dili də rəsmi festival dili statusu qazanıb və qurumun müvafiq olaraq Türk dövlətləri və türkdilli xalqlar bölməsi yaradılıb.

Bölmə Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Macarıstanı, eləcə də Rusiya (tatarlar, çuvaşlar, başqırdlar, yakutlar), Çin (uyğurlar), İraq (kərküklər), İran (azərbaycanlılar), Kipr (türklər), Ukrayna (Krım tatarları) və s. ölkələrdə yaşayan türkdilli toplumları əhatə edəcək.

*XQ*

# Lənkəran şair oğlunu unutmur

**Lənkəran Mərkəzi Kitabxanasında "Unudulmayanlar" layihəsi çərçivəsində Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş mərhum şair İltifat Salehin xatirə gecəsi keçirilib.**



Rayon rəsmiləri, şairin ailə üzvləri, yaxın dostları, tanınmış yazarlar və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mərasimi AYB Lənkəran bölməsinin sədri Qafar Cəfərli açaraq, İltifat Salehin yaradıcılığından danışıb. O bildirib ki, unudulmaz söz sərrafının yaradıcılığı oxucularının ürəyində silinməz iz qoyub və həmişə böyük məhəbbətlə oxunur.

Mərasimdə çıxış edən digər natiqlər də şair İltifat Salehin söz aləmindən sevgi ilə söhbət açıb və onunla bağlı xatirələrini bölüşüblər. Şairlər Ağamir Cavad, Ziyafət Yəhya, Xatirə Xatun, Əfsanə Sultan Xəlilbəyli, yazıçı-publisist Səyavuş Süleymanlı, Xalq artisti Qabil Quliyev, aktrisa, Prezident mükafatçısı Aynur Əhmədova, bəstəkar-musiqişünas Zəminə Tariyelqızı və başqalarının çıxışları maraqla dinlənilib.

Tədbirin bədii hissəsi də yaddaqalan olub. C. Cabbarlı adına 1 saylı Lənkəran şəhər uşaq musiqi məktəbinin muğam üçlüyü sözləri İltifat Salehə aid olan nümunələri ifa edib. Skripkaçı Müqabil Kamandarın, xanəndə Əsəd Məmmədovun ifaları iştirakçılarda xoş əhval-ruhiyyə yaradıb. Sözlü-nəğməli gecədə məktəblilər şairin poeziyasından nümunələr səsləndiriblər.

Sonda şairin qızı Afaq Eyvazova İltifat Saleh yaradıcılığına verilən yüksək dəyərə görə mərasimin təşkilatçılarına minnətdarlığını bildirib.

*XQ*

İDMAN

# Bakıda ilk Peşəkar Çövkən Liqası

**Azərbaycanın milli atüstü oyun növlərindən biri olan çövkənin nəinki ölkəmizdə, eləcə də dünyada geniş yayılması, populyarlaşması istiqamətində son illər mühüm işlər görülür. Bu idman növü üzrə güclü atletlərin ərsəyə gəlməsində, gənc nəslin sağlam ruhda böyüməsində, "Qarabağ" və "Dilbaz" kimi dünya şöhrətli milli at cinslərinin qorunması və tanıdılmasında önəmli rol oynayır.**



Bu baxımdan, ölkəmizdə ilk dəfə Peşəkar Çövkən Liqasının təşkilini xüsusi vurğulamaq olar. Mayın 21-də Binə Atçılıq Mərkəzində keçirilən liqanın açılış mərasimində Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev çövkənin qədimdən Azərbaycanda yaranması, inkişafı ilə bağlı məlumatların tarixi mənbələrdə öz əksini tapdığını bildirib. O qeyd edib ki, XII sərdə Azərbaycanın dahi şairi, Nizami Gəncəvi məşhur "Xosrov və Şirin" poemasında qadın və kişilərin birgə oynadıqları çövkən oyununu geniş təsvir etmişdir.

Qeyd edilib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycanda digər idman növləri kimi, milli atüstü oyunlar da inkişaf etdirilir, yerli at cinslərimizin dünya şöhrəti artır.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2013-cü ildə UNESCO "Çövkən – Azərbaycanın ənənəvi Qarabağ atüstü oyunu"nu təcili qorunma ehtiyacı olan qeyri-maddi mədəni irs nümunəsi kimi tanıyıb. Qarabağ atının tarixi üzrə xüsusi tədqiqatlar aparılıb və onun dünyanın 3 "təmiz qanlı" at cinsindən biri olması təsdiq edilib.

ARAF rəsmisi Atçılıq Federasiyası tərəfindən son illərdə bu idman növünün inkişafı istiqamətində böyük işlər görüldüyünü bildirib. Qeyd edib ki, çövkən üzrə hər il ənənəvi "Prezident kuboku" turniri təşkil edilir. 2012-ci ildən etibarən Böyük Britaniyada milli süvari dəstəmiz Qarabağ atları üzərində xüsusi proqram nümayiş etdirir. Bu ilin fevral ayında 21 ölkənin nümayəndəsinin iştirakı ilə Bakı şəhərində Beynəlxalq Çövkən Federasiyasının təsis edilməsi və federasiyanın qərargahı olaraq Azərbaycan paytaxtının seçilməsini xüsusi qeyd etmək lazımdır.

Gənclər və idman naziri Fərid Qayıbov Binə Atçılıq Mərkəzinin yerli və beynəlxalq yarışlara evsahibliyi etməsinin sevindirici hal olduğunu diqqətə çatdırıb. O bildirib ki, dövlətimizin başçısının idmanın inkişafına xüsusi diqqət və qayğı göstərir. İdmançılarımız nailiyyətləri ilə bizi daim sevindirirlər. İnanıram ki, bizim qələbələrimiz hələ qarşıdadır.

**Atçılıq Federasiyasının baş katibi Bəhruz Nəbiyev yarışla bağlı jurnalistlərə məlumat verərək qeyd edib ki, turnirdə 10 komanda iştirak edir:**

– Həyata keçirilən tədbirlərdə əsas məqsəd milli at cinslərinin, eyni zamanda qədim atüstü oyunlarımızı inkişaf etdirməkdir. "Prezident kuboku" yarışı il ərzində keçirildi. Bundan başqa, mütə-



madi olaraq çempionat təşkilini düşünürdük ki, Peşəkar Çövkən Liqası bunu həyata keçirəcək. Bu liqa oyunları növbəti illərdə 10 deyil, daha çox komanda ilə davam edəcək.

**ARAF rəsmisi əsas hədəfin 2028-ci ildə Los-Ancelesdə keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya qazanmaq olduğunu da deyib. Builki Paris Oyunlarında Azərbaycanın atçılıq idmanında təmsil olunmayacağını**



**xatırladan baş katib əlavə edib:**

– Artıq dresaj növü üzrə milli komandamız var. Yığma ilboyu Avropada təlim-məşq toplanışlarında olur. Azərbaycanın "Olimpiada-2028"in atçılıq yarışlarında 1 deyil, 2 komanda ilə təmsil olunması üçün əlimizdən gələni edəcəyik.

Rəsmi çıxışlardan sonra Azərbaycan Dövlət Himni səsləndirilib. Daha sonra iştirakçı komandaların paradı olub. Bədii hissə ilə davam edən mərasimdə Qarabağ atlarının bu il Böyük Britaniyada "Vindzor Kral Atçılıq Şousu"nda nümayiş etdirdiyi şou-kompozisiyanı izləyicilər maraqla qarşılayıblar.

Sonra Peşəkar Çövkən Liqasında I turun matçlarına start verilib. Yarışın ilk turunda "Omar" "Embavud"a 1:0 hesabı ilə qalib gəlib. "Sərhədçi" isə "Ağstafa Dilbaz"ı 7:0 hesabla məğlub edib.

Qeyd edək ki, ümumilikdə, Peşəkar Çövkən Liqasında 18 turun keçirilməsi nəzərdə tutulur. Turnirdə iştirak edən hər komanda bir-birinə qarşı 2 oyun keçirəcək. Qalib komandaya 3, heç-heçə edənlərə 1 xal veriləcək. Bütün görüşlər Binə Atçılıq Mərkəzində olacaq.

Dekabrın 4-də turnirin qalibi elan ediləcək.

*Leyla QURBANOVA*
*XQ*

# TDT ailənin gələcəyini himayə edir



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bugünlərdə İstanbulda keçirilmiş Türk Dövlətləri Təşkilatının ailə və sosial siyasətdən məsul nazir və digər qurum rəhbərlərinin birinci iclasında iştirak edib.**

Qurumun mətbuat xidmətindən bu barədə XQ-yə verilən məlumatda bildirilir ki, "Qloballaşan dünyanın risklərinə qarşı: Ailəmiz gələcəyimizdir" mövzusunda təşkil edilmiş İstanbul iclasında müzakirə mövzusu türk dünyası ölkələrində ailənin qorunması və gücləndirilməsi istiqamətində əməkdaşlığın inkişaf etdirilməsidir. Toplantıda çıxış edən Bahar Muradova türk dövlətlərinin daha möhkəm birliyi naminə təşkilatın fəaliyyətinə uğurlar arzu edib.

Komitə sədri bildirib ki, Şuşa Bəyannaməsinin iki ölkə arasındakı qardaşlığı yeni bir mərhələyə qaldırmaqla yanaşı, bütövlükdə türk dövlətləri üçün də bir yol xəritəsidir. O, Türk Dövlətləri Təşkilatı daxilində əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi, bu sıraya ailə və sosial siyasət mövzusunun da daxil edilməsilə tərəfdaşlığın gücləndirilməsini ölkəmizin fəal dəstəklədiyini söyləyib.

İclasda Türk Dövlətləri Təşkilatının ailə və sosial siyasətdən məsul nazir və digər qurum rəhbərlərinin bəyannaməsi qəbul edilib. TDT-nin ailə və sosial siyasətdən məsul nazir və digər qurum rəhbərlərinin növbəti görüşünün 2025-ci ildə Azərbaycanda keçirilməsi qərara alınıb.

*Zərifə HÜSEYNOVA*
*XQ*

BEYNƏLXALQ HƏYAT

# Fransanın ABŞ-yə müxalifliyi nədən qaynaqlanır?

**(əvvəli 1-ci səhifədə)**

Bu milli xüsusiyyətin ən unikal müasir daşıyıcısının da Emmanuel Makron olduğunu desək yanılmarıq. Şarl de Qollun yerişini yerimək həvəsinə düşən Makron Fransanı Avropanın şəriksiz lideri, altetnativ mərkəzinə çevirməyə girişib. Bu həvəs o qədər artıb ki, Fransa onu alman nasistlərindın xilas edən ABŞ-yə qarşı açıq-aşkar çıxır, transatlantik birlikdə ixtilaf yaradır. Parisin Beynəlxalq Cinayət Məsələsinin İsrail rəhbərləri barədə qərarını dəstəkləməsi Fransanın ABŞ-yə növbəti "hədiyyəsi" oldu.

Beynəlxalq Cinayət Məhkəməsi (BCM) İsrail–HƏMAS münaqişəsində hər iki tərəfin yüksək vəzifəli şəxslərinə qarşı hüquqi prosedura başlayıb. Mayın 20-də BCM-nin prokuroru Kərim Xan İsrailin baş naziri Benyamin Netanyahu, İsrailin müdafiə naziri Yoav Qalant və HƏMAS-ın üç lideri Yəhya Sinvar, Məhəmməd Deif və İsmayıl Haniyənin həbsinə order verilməsini istəyib. Ancaq BCM prokurorunun bu qərarı ABŞ-də birmənalı qarşılanmayıb. Birləşmiş Ştatların prezidenti Co Bayden prokuror Kərim Xanın Benyamin Netanyahunun həbsinə order verilməsi tələbini "biabırçı" adlandırıb. "Beynəlxalq Cinayət Məhkəməsi prokurorunun İsrail liderlərinin həbsinə order verilməsi tələbi biabırçılıqdır. Açıq deyim: Beynəlxalq Cinayət Məhkəməsinin prokuroru nəyi nəzərdə tutsa da, İsraillə HƏMAS-ı eyniləşdirmək mümkün deyil. Biz həmişə İsrailin yanında olacağıq və onun təhlükəsizliyinə təhdidlərə qarşı çıxacağıq", – deyə Bayden Ağ evin açıqlamasında bildirib.

Lakin Fransa bu məsələdə Vaşinqtonla razı olmadığını bildirir. Rəsmi Paris BCM-nin bütün hallarda cəzasızlıqla mübarizə öhdəliyini dəstəklədiyini açıqlayır. Fransa Xarici İşlər Nazirliyinin məlumatında vurğulanır: "İsrailə gəldikdə, məhkəmənin İbtidai Palatası prokurorun ittihamlarını dəstəkləmək üçün təqdim etdiyi sübutları araşdırdıqdan sonra, tamamlayıcılıq prinsipini və İsrail məhkəmələrinin mümkün hərəkətlərini nəzərə alaraq, bu orderlərin verilib-verilməməsinə qərar verməlidir". Yəni Paris bu məsələdə də fərqli mövqe sərgiləyərək ABŞ-dən müstəqil güc kimi görünməyə çalışır. Avropanın əksər ölkəsi BCM prokurorunun məlum qərarı barədə birlik nümayiş etdirdikləri halda, Paris barrikadanın digər tərəfində olduğunu göstərir və bununla da beynəlxalq siyasətin yürüdülməsində müstəqil olduğunu nümayiş etdirməyə can atır.

Əslində, Fransa–ABŞ münasibətlərinin rəvan olmadığı heç kimə sirr deyil. Hələ 1966-cı ilin fevralında prezident Şarl de Qoll Fransanın NATO hərbi təşkilatını tərk etdiyini elan etdikdə, bu, Alyansa üzv olan digər ölkələr üçün əsl şok olmuşdu. "Soyuq müharibə"-nin qızğın çağında Fransanın NATO-dan ayrılması o zaman SSRİ üçün mühüm qələbə kimi qiymətləndirilmişdi. 1949-cu ildə Alyansın yaradılmasından bəri Fransa onun əsas iştirakçılarından biri olmuşdu. Ölkənin bu təşkilata daxil olmasının səbəbləri var idi.

Birincisi, İkinci Dünya müharibəsi və alman işğalı ona çox böyük ziyan vurmuşdu, iqtisadiyyata ciddi ziyan dəymiş və Fransa Marşal planı ilə razılaşmaq məcburiyyətində qalmışdı. Müharibə zamanı əziyyət çəkən Qərbi Avropa ölkələrinə iqtisadi yardım planı ABŞ-nin SSRİ-yə qarşı "soyuq müharibəsi"-nin aləti olmaqla bərabər, eyni zamanda, dolların beynəlxalq valyuta kimi möhkəmlənməsi üçün güclü vasitə idi. Ancaq belə bir plan zəifləmiş Fransa üçün böhrandan yeganə çıxış yolu olmuşdu.

İkincisi, Şimali Atlantika Alyansının formalaşması ikiqütblü dünya nizamının artıq formalaşmış modeli şəraitində baş vermişdi. Fransa kapitalist ölkə kimi avtomatik olaraq ABŞ-nin müttəfiqinə çevrilmişdi. Ona görə də Fransa üçün iqtisadi və hərbi sahədə xarici və avropalı tərəfdaşlarla əməkdaşlıq qaçılmaz idi. Elə ki, Fransa ABŞ yardımlarından özünə gəldi, necə deyərlər, naşükürlüyə, tədricən Vaşinqtondan uzaqlaşmağa başlandı. Bu tendensiya 1959-cu ildə prezident seçilən general Şarl de Qollun siyasətində özünü büruzə vermişdi.

1966-cı il martın 7-də Paris Şimali Atlantika Alyansının hərbi strukturundan çıxması barədə ABŞ-yə rəsmi məlumat vermişdi. Yerli tarixçilərin dediklərinə görə, məktubu Fransa diplomatiyasının rəhbəri Kuv de Amerika səfirinə şəxsən çatdırmışdı. Həmin məktubda general de Qoll yazmışdı: "Fransa hesab edir ki, 1949-cu ildən bəri Avropada, Asiyada və dünyanın qalan hissəsində baş verən dəyişikliklər, eləcə də öz vəziyyətinin və silahlı qüvvələrinin təkamülü ittifaqın bağlanması zamanı qəbul edilmiş hərbi qərarlara artıq haqq qazandırmır".

General de Qoll amerikalı



həmkarına bildirmişdi ki, Paris öz ərazisində suverenliyin tam şəkildə həyata keçirilməsinə qayıtmaq niyyətindədir. Buna Fransada xarici hərbi qüvvələrin olması və onların hava məkanından istifadə etməsi mane olurdu. De Qoll, həmçinin Vaşinqtonu "bir daha öz qüvvələrini NATO-nun sərəncamına verməmək" qərarından xəbərdar etmişdi. Amma sonradan məlum olmuşdu ki, Paris Alyansla əlaqələrini tam kəsməmişdi. Buna sübut olaraq münaqişə vəziyyətində fransız qüvvələrinin müttəfiqlərin sərəncamına verilməsini nəzərdə tutan Ayeret–Lemnitzer (1967) və Valentin–Ferberin (1974) gizli müqavilələrini göstərmək olar.

Yəni, İkinci Dünya müharibəsində ABŞ-nin "yedəyində" getmək istəməyən Fransa qapını bərk vurmağa çalışsa da, reallıqda altdan-altdan NATO ilə əməkdaşlığını davam etdirmişdi. Çünki Paris 1941–1945-ci il müharibəsində fransız ordusunun biabırçı məğlubiyyətini unutmamışdı. Cəmi 45 gün almanlara müqavimət göstərməyə gücü çatmış Fransa Eyfelin açarlarını Berlinə təslim etməyə məcbur olmuşdu.

De Qoll irsindən imtina 2009-cu ildə baş verdi. Həmin il aprelin 3–4-də keçirilən NATO-nun yubiley sammitində Fransa təşkilatın vahid komandanlıq strukturlarına qayıtdığını rəsmən elan etdi. NATO ilə münasibətlərin normallaşması keçmiş Yuqoslaviyadakı böhran və Avropanın zəif olması səbəbindən qaçılmaz oldu. NATO-nu Avropa təhlükəsizliyinin əsas qarantı kimi tanıyan Fransa qərar qəbul etməkdən kənarda qala bilmədi və Alyansa qayıtmaq məcburiyyətində qaldı. "Soyuq müharibə"nin bitməsindən sonra Fransada təhlükəsizlik məsələsində ABŞ-dən müstəqil hərəkət etmək barədə fikirlər səslənsə də, geosiyasi reallıqlar təhlükəsizlik məsələsində Vaşinqtonun müdafiəsindən məhrum olmaq qorxusunu gücləndirir. Makron da bunu gözəl anlayır, amma yenə fransızların Avropada digər ölkələrdən bir addım öndə olduğunu sanır və bu istiqamətdə uğursuz addımlar atır. Hələ prezident Jak Şirak dövründə Paris NATO-nun Avropanın yeganə təhlükəsizlik qarantı kimi qəbul etmişdi.

Fərqlənməyə çalışmaq eyib deyil, amma bu, digərlərinin maraqlarını tapdalayırsa və üzvü olduğun təşkilatın siyasətinə tərs gəlirsə, o zaman qınanılası xüsusiyyətə çevrilir. Məsələn, Qərbin Ukrayna–Rusiya müharibəsinə münasibəti hamıya məlumdur və hər kəs Moskvaya qarşı sərt sanksiyaların tətbiq olunmasından da xəbərdardır. Amma Fransa İkinci Dünya müharibəsində ABŞ və Böyük Britaniya qüvvələrinin Fransanın Normandiya sahillərinə çıxmalarının 80 illiyinə həsr olunan yubiley mərasiminə Rusiyadan da rəsmi qonaqları dəvət etməyə hazırlaşır.

Təbii ki, məsuliyyətli anda rəqib saydıqları məsələyə fransızsayağı yanaşma okeanın hər iki tayında da narazılıqla qarşılanır. Əslində, burada təəccüblü heç nə yoxdur, dünyanın müstəmləkəçilik haqqında keçmiş zamanda danışdığı bir vaxtda Fransanın işğal etdiyi ərazilərdə yerli xalqlara qarşı hərbə-zorbaya əl atır. Buna görə də, Parisin hələ çox məsələlərdə Qərbə, ilk növbədə, ABŞ-yə müxalif olmağa çalışacağı təəccüblə qarşılanmamalıdır.

*SE LAY*
*XQ*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Aynur Vaqif qızı Quliyevaya filologiya elmləri üzrə verilmiş FD seriyalı, 08389 nömrəli 29 oktyabr 2013- cü il tarixli fəlsəfə doktoru diplomu və filologiya elmləri sahəsinin 5718.01 –"Dünya ədəbiyyatı (ispan ədəbiyyatı) ixtisası üzrə verilmiş DS seriyalı , 08220 nömrəli 13 may 2022- ci il tarixli dosent attestatı etibarsız sayılır.

## "Gəncə Körpü Tikini-2" ASC səhmdarlarının nəzərinə!

"Gəncə Körpü Tikini-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 8 iyul 2024-cü il saat 16.00-da Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin idarə heyətinin hesabatı.
2. 2023-cü ilin maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və illik hesabatın təsdiqi.
3. 2023-cü maliyyə ili üzrə dividendlərin bölüşdürülməsinin müzakirəsi.
4. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) tərkibinin yenidən formalaşdırılması.

Ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5nömrəli ünvanda, qanunvericiliyə müvafiq qaydada müraciət etməklə tanış olmaq mümkündür.

Bildiririk ki , ümumi yığıncaq iştirakçılarının qeydiyyatı yığıncağın başlanmasına 2( iki) saat qalmış göstərilən ünvanda aparılacaqdır. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi, yaxud şəxsiyyəti təsdiq edən digər sənəd təqdim olunmalıdır. Səhmdarların illik ümumi yığıncağında özünüz, yaxud notarial qaydada təsdiqlənmiş etibarnamə əsasında səlahiyyətli nümayəndəniz iştirak edə bilər.

***"Gəncə Körpü Tikini-2" ASC-nin idarə heyəti***

## "Gəncə Yol Tikini-2" ASC səhmdarlarının nəzərinə!

"Gəncə Yol Tikini-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 9 iyul 2024-cü il saat 16.00-da Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2023-cü ilin maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.

Ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda, qanunvericiliyə müvafiq qaydada müraciət etməklə tanış olmaq mümkündür.

Bildiririk ki, ümumi yığıncaq iştirakçılarının qeydiyyatı yığıncağın başlanmasına 2 (iki) saat qalmış göstərilən ünvanda aparılacaqdır. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi, yaxud şəxsiyyəti təsdiq edən digər sənəd təqdim olunmalıdır. Səhmdarların illik ümumi yığıncağında özünüz, yaxud notarial qaydada təsdiqlənmiş etibarnamə əsasında səlahiyyətli nümayəndəniz iştirak edə bilər.

***"Gəncə Yol Tikini-2" ASC-nin idarə heyəti***

## "Xətai-Rabitə-Tikinti" ASC səhmdarlarının nəzərinə!

"Xətai-Rabitə-Tikinti" ASC səhmdarlarının növbəti ümumi yığıncağı 5 iyul 2024-cü il saat 14.00-da Bakı şəhəri, Xətai rayonu, M. Hadi küçəsi 13X nömrəli ünvanda yerləşən inzibati binada aşağıdakı gündəlikdə keçiriləcəkdir:

1. "Xətai-Rabitə-Tikinti" Açıq Səhmdar Cəmiyyətinin 2023-cü maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiq olunması.
2. Digər məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 18.00-dək səhmdar cəmiyyətin Bakı şəhəri, Xətai rayonu, M. Hadi küçəsi 13X nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətin idarə heyətinə müraciət etməklə tanış ola bilərlər.

Yığıncaqda iştirak etmək vacibdir.

Ünvan- Bakı şəhəri, Xətai rayonu, M. Hadi küçəsi 13X.

***"Xətai-Rabitə-Tikinti" ASC-nin direktorlar (müşahidə) şurası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 106 (30510) 22 may 2024-cü il, çərşənbə

İDMAN

## Avropa çempionatı: 2 qızıl, 2 bürünc mükafat

**Bakıda keçirilən güləş üzrə U-23 Avropa çempionatı davam edir.**



Yarışın ikinci günündə yunan-Roma güləşi üzrə 5 çəkidə mükafatçılar müəyyənləşib. Yığmamız yarış gününü 2 qızıl və 2 bürünc medalla başa vurub. Ziya Babaşovla (63 kq) Xasay Həsənli (77 kq) həlledici mərhələdə rəqiblərini məğlub edərək qızıl medal qazanıblar. Rəşad Məmmədov ( 55 kq) və Laçın Vəliyev (87 kq) isə bürünc mükafata yiyələniblər.

Qeyd edək ki, Avropa çempionatı mayın 26-da başa çatacaq.

## Paraatletikada 3-cü qızıl medal

**Azərbaycanın daha bir paraatleti Yaponiyanın Kobe şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanıb.**




T13 kateqoriyasında yarışan komandamızın üzvü Orxan Aslanov uzunluğa tullanma üzrə yarışda 7.18 metr nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib. Bu, O. Aslanovun ilk dünya çempionluğudur.

Qeyd edək ki, bu, Azərbaycan para-atletlərinin hazırkı dünya çempionatında 3-cü qızıl medalıdır. Bundan əvvəl Lamiyə Vəliyeva 100 metr məsafəyə qaçış üzrə yarışda, Səid Nəcəfzadə uzunluğa tullanmada 1-ci yeri tutublar.

## Fudokançılarımız Avropada fərqləniblər

**Sloveniyanın Podcetrtek şəhərində fudokan üzrə XXVII Avropa çempionatı, uşaqlar arasında Avropa Kuboku yarışı keçirilib.**



Yarışda Azərbaycan Karate Federasiyasının ənənəvi karate üslubu olan fudokan üzrə komandası uğurlu nəticələr qazanıb. Uşaqların yarışında komandamızın üzvləri Mövlan Məmmədli qızıl, Mənsumə Məmmədli bürünc medal qazanıblar. Yeniyetmələr arasında Leyla Mahmudlu və Rəşidə Qafarlı 3-cü yeri tutublar. Gənclər arasında İsmayıl İbrahimli və Şəhriyar Behbudzadə də 3-cü nəticəni göstəriblər. Böyüklərin mübarizəsində isə Vahid Həsənov və Kamran Heydərzadə çempion adına layiq görülüblər.

***L.QURBANOVA***
***XQ***

Günün mövzusu

**Bir azdan havalar lap istiləşəcək. Adətən, yay mövsümündə paytaxt sakinləri imkan tapan kimi şəhərdən rayonlara axışırlar. Əlbəttə, yaşıllığı, suyu bol olan rayonlar daha çox çəkir adamı.**

# Hanı xan çinarların qara kölgəsi?



Təzə ağac əkmədiyimiz bir yana, yeni obyektlər, binalar tikmək istəyəndə, əvvəlcə onun ərazisini ağaclardan təmizləyirik. Çox görmüşük, çox eşitmişik ki, hansısa şirkət tikinti üçün hasara aldığı ərazidəki ağacları gecəykən məhv eləyib. Hələ bir vaxtlar ulu öndər Heydər Əliyev həmin fürsətcillərə xəbərdarlıq edərək belə bir aforizm işlətmişdi: “Bir ağac kəsən bilsin ki, sanki, mənim qolumu kəsir”.

Nədənsə, müəyyən tikinti şirkətlərinin ağlına ağacları repressiyadan başqa fikir gəlmir. Ağac qırğınını sakinlərdən xəlvət tutmaq üçün tikinti obyektinin hasarlarını bacardıqca hündür quraşdıraraq gecənin birində ağacları qırırlar.

Halbuki ağacları xilas etmək üçün ağacköçürən maşınlar var. Həmin maşınlar iri bıçaqlarını ağacın ətrafına dəyirmi formada batıraraq onu zədələmədən köklü-torpaqlı yerdən üzürlər. Yəni, həmin texnika ağacı köklü-torpaqlı götürərək dibçəkdən çıxarılmış gül kimi “ovcunda” aparıb istənilən yerdə dikəldib basdıra bilir. Sözügedən maşınların hələ 2016-cı ildə Bakıya gətirildiyi haqda məlumatlar var. Ancaq nədənsə bu texnikalardan istifadə etməyi unudublar. Ona görə şəhərimizdən yüzlərlə zeytun, çinar, palıd, şam ağacları yoxa çıxıb.

Ağac əkməklə bağlı ciddi bir problem də var. Fikir vermisinizsə, hələ də paytaxtda və müxtəlif bölgələrdə ağacəkmə zamanı əsasən, şam ağaclarından istifadə edilir. Halbuki şam ağacları da Bakı və ətrafı kimi şoran torpaqlarda özlərini uzun müddət doğma diyarda hiss edə bilmirlər. Bu ənənə bizə sovetlər dönəmindən miras qalıb, ona görə bu qaydanı mütləq tərgitməliyik.

Hələ çar Rusiyası dövründən bəri, Qafqazın, eləcə də Azərbaycanın ruslaşdırılması siyasəti yürüdülüb. Belə ki, tarixən Rusiyadan Azərbaycana rəhbərlər, məmurlar və müxtəlif sənaye obyektləri üçün işçi qüvvəsi adına rusəsilli insanlar göndərilib. Ölkəmizin paytaxtında və başqa bölgələrində yaşayan ruslara bu yerləri doğmalaşdırmaq üçün floranı dəyişmək məqsədilə hər yanda şam ağacları əkməyi planlaşdırıblar. Məqsəd, necə deyərlər, həm də təbiəti ruslaşdırmaq olub. Buna görə ölkəmizdə fəaliyyət göstərən sovxozların bəzilərində şam ağacı şitili yetişdirən tingçilik bölmələri də yaradılmışdı.

Hazırda bizi buna heç kim məcbur etməsə də, şam ağacı tingləri yetişdirmə ənənəsi hələ də davam etməkdədir. Əlbəttə, ölkəmizin şoran torpaqlarında körpə şam ağacları özlərini pis hiss edir, böyüyüb özünə gələnə qədər ciddi qulluq istəyir. Fikir versəniz görərsiniz ki, yeni əkilmiş şam ağacları azacıq baxımsız qalan kimi quruyur.

Halbuki öz çinarımız, palıdımız, dəmirqaramız, dağdağanımız, iydəmiz, söyüdümüz, tut ağacımız, zeytunumuz və onlarla növ meyvə ağaclarımız vətənimizin torpaqlarında sevinə-sevinə bitib boy atırlar. Ona görə də özümüzün uca boylu, bol oksigenli çinarlarımızı daha çox əkib çoxaltmalıyıq.

Əslində, biz ömrümüz boyu yay fəsillərində 30–35 dərəcə isti görmüşük və bunu fəslin adi havası kimi qəbul etmişik. Bəs niyə indiki istilərdə nəfəsimiz çatışmır? Bax elə həmin məsələdən danışmaq istəyirəm.

Səbəb birdir: Bakıda oksigen, yaşıllıq çatışmır. Paytaxtımız ağacsızlaşıb. Bakının yaşıl ciyərləri iflic halındadır. Məhz, bu çatımazlıqlara görə, yay olanda bu böyük şəhərdə nəfəs almaq olmur.

Bakıda çoxmərtəbəli hündür binalar inşa edilir. Məsələn, yan-yana üç dənə hündürmərtəbəli bina sakinlərinin sayına görə, təxminən, bir kənd deməkdir. Həmin binalar elə bir sıxlıqda tikilib ucaldılır ki, bəzən sakinlərin həyətə düşüb gəzməyə belə yeri, meydanı olmur. Halbuki o “kəndin” özünün yaşıllığı, parkı, uşaq bağçası, məktəbi, nə bilim, klinikası, mağazaları olmalıdır.

Təəssüf ki, göydələnlərlə əhatə olunmuş yeni Bakı fantastik filmlərdəki kosmik şəhərləri xatırladır. Uca-uca beton binaları yan-yana düzürük, lakin ətrafında lazım olan qədər ağac əkməyi unuduruq.

Bəs, rayon, kənd yerlərində insan niyə ciyərdolusu nəfəs ala bilir? Çünki orada asfalt azdır, torpağın üstü açıqdır. Torpaq çəmənlərlə, ağaclarla, çaylarla nəfəs alar. Nəfəs alan torpaq diridir, yaşayandır, yaşadandır. Ancaq şəhərdə necədir? Asfaltlar, asfaltlar, asfaltlar... Sanki, torpağın ağzını beton qapaqla bağlamışıq.

Şəhərimizdə torpaq rahat nəfəs ala bilmır. Bu qədər ağacsızlıqda yaxşı ki, yaşaya bilirik. Bəxtimiz onda gətirib ki, Bakı bir yandan hava verən, oksigen körükləyən dəniz kənarındadır.

***Murad KÖHNƏQALA,***
***şair-publisist***

Sosial şəbəkələrdən seçmələr

## İçimizə batan dərdlər...



**Əziz oxucu! Qarşında gördüyün bu fotonu tələbə dostlarımdan biri özünün “Facebook” səhifəsində paylaşıb. Belə foto-peyzajlara, rəsmlərə, etüdlərə sosial şəbəkələrdə son vaxtlar tez-tez rast gəlmək mümkündür. Haqqında söhbət açdığım paylaşımın özəlliyi isə ondadır ki, dostum foto ilə bərabər, xalqımızın böyük şairi Bəxtiyar Vahabzadənin məşhur şeirlərindən birinin aşağıdakı bəndini də yerləşdirib:**

*Dərd çəkirəm, bilmirəm,*
*Çəkdiyim dərd kimindir?*
*Dərd çəkirəm dərdimi,*
*Görən çəkir kim indi?*

Yeri gəlmişkən, paylaşımda belə bir qeyd də var: “Bu misralar mənim vaxtilə ən çox sevdiyim şeirdəndir”. Həqiqətən, gözəl və düşündürücü şeir parçasıdır. Bəs, siz necə düşünürsünüz?

Dərd barədə şeirlər çoxdur. Birini də sevimli şairimiz Ramiz Rövşəndən biz yada salırıq:

***Göz yaşları süzüldükcə***
***Adamın quru üzünə,***
***İçimizə batan dərdlər,***
***Bir-bir çıxır su üzünə.***

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

# Azər Zeynalov “Gəncəyə gəlib”

**Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Xalq artisti Azər Zeynalov ilk dəfə “Gəncəyə gəlirəm” adlı solo konsert proqramı ilə çıxış edib.**




Filarmoniyadan bildirilib ki, tədbirdə dövlət və hökumət rəsmiləri, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər. Konsert proqramında sənətçi Emin Sabitoğlunun “Şükriyyə”, “Gəncədən gəlirəm”, Tofiq Quliyevin “Bəxtəvər oldum”, “Azərbaycan”, Rauf Hacıyevin “Leyla”, Siyavuş Kəriminin “Ömrümün istəyi”, “Sənsizləmişəm”, Sevil Əliyevanın “Əziz anam” və digər əsərləri ifa edib.

***XQ***

Hava



## Abşeronda yağışsız, bölgələrdə yağış və duman...

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 22-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Lakin axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Gecə 12-16°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu, nisbi rütubət gecə 60-70 , gündüz 40-50 faiz olacaq.

Azərbaycanın rayonlarında gecə və səhər dağlıq ərazilərdə, gündüz isə bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 20-25° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Sağlamlıq

## Sulu meyvə-tərəvəz, yoxdur onlara əvəz

**Mayenin az qəbulu dəri problemlərindən tutmuş baş ağrılarına qədər bir çox narahatlıqlara səbəb olur. Xüsusilə, yaz və yay fəsillərində orqanizmin maye ehtiyacını ödəmək üçün içməli sudan başqa alternativ – kalorisi az, tərkibində su miqdarı isə çox olan meyvə və tərəvəzlər var.**



Xiyarın 95, kahının isə 96 faizi sudur. Xiyar aşağı kalorilidir və az miqdarda K vitamini, kalium və maqnezium toplayır. Kahının tərkibində yüksək miqdarda K və A vitamini var.

Boranının 95 faizi sudan ibarətdir və C vitamini ilə zəngindir.

Qarpızda 92 faizi su, A və C vitaminləri, maqnezium və likopen, eləcə də güclü antioksidantlar var.

Çiyələkdə su miqdarı 91 faiz, lif, antioksidant, C vitamini, folat və manqan boldur.

Qovunun 90 faizi sudan ibarərdir. Çoxlu lif ehtiva edir. Tərkibində A vitamini var.

Nektarin və armudun 88 faizi sudur. Armud kaliumla, nektarin isə A vitamini, kalium, beta-karotin və fosforla zəngindir.

Sitrus meyvələrinin 88 faizi sudur. Lif, kalium, antioksidant və C vitamini boldur. Portağal, mandarin, qreypfrutu mövsümündə yemək lazımdır. Limon və laym kimi sitrus meyvələrini isə yaz və yay aylarında da istifadə etmək olar.

***Z.HÜSEYNLİ***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov “Azvirt” MMC-nin baş mühəndisi

**CƏFƏRAĞA ŞİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3940
SİFARİŞ 1125
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00